RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 191 (9646) 4 sentyabr 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Riyakarlıq xəstəliyi

## Ermənilər niyə yalan danışmağı və şər atmağı sevirlər

Erməni yalanları bu gün də, həm də "yeni şəraitə uyğun" olaraq davam edir.

Artıq ona inananlar "sovet rəhbərliyi" deyil!

Çünki onlar çoxdan tarixin arxivindədirlər.

Bu yalanlara inananlar ermənilərin dəstəkçiləri və müdafiəçiləri - Fransa, Avropa İttifaqı, ABŞ və onların müxtəlif qurumları, erməni diasporunun maliyyələşdirdiyi beynəlxalq təşkilatlar və QHT-lərdir.

Həm də səmimiyyətdən deyil, sərf etdiyinə görə "inanırlar"!

Belə yalanların bir qisminə qısa şəkildə nəzər yetirək.

"Azərbaycan sülh danışıqlarını pozdu" - 44 günlük Zəfər müharibəsi başlayandan Ermənistanın ən çox haray-həşir saldığı mövzu idi.

Amma sülh danışıqlarını əvvəlcə ATƏT-in Minsk qrupu pozmuşdu.

Çünki yaradıldığından keçən 30 il ərzində qarşısına qoyulan əsas vəzifəni - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini danışıqlar yolu ilə həll edə bilmədi.

Daha doğrusu, həll etmək istəmədi, çünki həmsədr dövlətlərin hər üçü erməni maraqlarını müdafiə edirdi.

"Siz öz aranızda hansı razılığa gəlsəniz biz onu müdafiə edəcəyik" söylədi.

Bu minvalla, əslində, münaqişənin həllindən yaxasını bir kənara çəkdi, işğala məruz qalanla işğalçı arasında bərabərlik işarəsi qoydu.

Hadisələrin gedişi isə onu göstərdi ki, ATƏT-in Minsk qrupunun əsas niyyəti münaqişəni sonsuzadək uzatmaq, Azərbaycanı ərazi itkisi ilə barışdırmaqdır!

Yoxsa bu uzunluğunda sülh danışıqları olmazdı.

ATƏT-in Minsk qrupunun ləğvinin vaxtı çoxdan çatıb!

Sülh danışıqlarına nöqtəni, əslində, "soros uşağı" sayılan, mitinq meydanından birbaşa Ermənistan rəhbərliyinə gələn Paşinyan qoydu.

Əvvəlcə Xankəndidə içib keflənərək "Qarabağ Ermənistandır və nöqtə" dedi.

Sonra isə sərhəddə sistemli şəkildə təxribatlar törədilməsinə rəvac verdi.

Hədlərini aşdılar - "yeni müharibə, yeni ərazilərin itirilməsi olacaq" hədə-qorxusunu dövriyyəyə buraxdılar, Azərbaycana hədə-qorxu gəlməyə başladılar.

Əlbəttə, Azərbaycan Prezidenti cənab İlham Əliyev Paşinyanın əməllərini cavabsız qoymadı!

Əvvəlcə Soçidə keçirilən Beynəlxalq Diskussiya Klubunda, sonra isə Münhen Təhlükəsizlik Konfransında açıq şəkildə, bütün dünyanın eşidəcəyi formada cavabını verdi, təkbətək diskussiyada rüsvay etdi!

Sonra isə 44 günlük Zəfər müharibəsində Ermənistan ordusunu "dəmir yumruğ"u ilə məhv edərək həmin Paşinyana kapitulyasiya aktını imzalatdırdı!"

Beləliklə, əməli şəkildə göstərdi ki, "Qarabağ Azərbaycandır!"

→ 3

# Ersin Tatar İlham Əliyevi təbrik etdi

**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Ersin Tatar növbədənkənar parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb. O, seçkilərin azad, demokratik, sərbəst mühitdə keçdiyini və Azərbaycan xalqının iradəsini ifadə etdiyini vurğulayıb.

Ersin Tatar Azərbaycan parlamentində Şimali Kipr Türk Cümhuriyyəti ilə dostluq qrupunun yaradılmasını da vurğulayaraq yeni parlamentlə parlamentlərarası dostluq qrupu çərçivəsində əməkdaşlığın uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Ölkəsinin Türk Dövlətləri Təşkilatının Şuşa Zirvə görüşünə dəvət olunmasını məmnunluqla xatırladan Ersin Tatar Şimali Kipr Türk Cümhuriyyətinin bu təşkilatla əlaqələrinin inkişafına verdiyi dəstəyə və dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Azərbaycanın bundan sonra da Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətlər Təşkilatı çərçivəsində əlaqələrinin inkişafına və əməkdaşlığının genişlənməsinə dəstək verəcəyini qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# San-Marino Respublikasının Regent Kapitanları zati-aliləri cənab Alessandro Rossi və xanım Milena Qasperoniyə

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, San-Marino xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2024-cü il*

# Dünya rekordu ilə qazanılan çempionluq

## Lamiyə Vəliyeva "Paris-2024"də qızıl medala sahib oldu

Paris Yay Paralimpiya Oyunlarının 6-cı günündə daha bir paralimpiyaçımız öz gücünü sınayıb. Dünən paralimpiya və 4 qat dünya çempionu Lamiyə Vəliyeva T13 kateqoriyasında 100 metr məsafəyə qaçışda özünü yoxlayıb.



O, 11.76 saniyə nəticə ilə finiş xəttini birinci keçib. Lamiyə yeni dünya rekordunu təzələyib. Paratletimiz "Rio-2016" Paralimpiadasında ukraynalı Leilia Adjametovanın 11.79 saniyəlik nəticəsini yeniləyib.

Qeyd edək ki, "Paris-2024"də Azərbaycan yığmasının aktivində 3 qızıl, 1 gümüş və 1 bürünc medal var.

# Qarlı dağların isti suyu

## Kəlbəcərin bir vaxtlar keçmiş SSRİ-də məşhur olmuş müalicəvi "İstisu"yu tezliklə bütün dünyaya səs salacaq



Kəlbəcərdə tikilib istifadəyə verilən "İstisu" mineral su zavodu bölgənin gələcək inkişafında böyük rol oynayacaq. Bu müəssisə uzun illər Kəlbəcərin müstəsna keyfiyyəti və sağlamlığa faydaları ilə tanınan termal su yatağından çıxan eyniadlı suyu illər sonra yenidən istehlakçılara çatdıracaq. Zavodda istehsal olunan su həm keyfiyyəti, həm də qablaşdırılmasına görə müasir standartlara cavab verir. Kəlbəcərin "İstisu"yu natrium bikarbonat və sulfatla zəngindir. Tərkibində olan kalsium, maqnezium, bikarbonat, sulfat və digər faydalı elementlərin orqanizmə müsbət təsiri var. Müəssisənin açılışında iştirak edən Prezidentə məlumat verildi ki, zavod ikinövbəli iş rejimində fəaliyyət göstərəcək. Burada təxminən 100 nəfər işlə təmin ediləcək. İşçilərin əksəriyyəti Kəlbəcər və Laçın rayonlarının sakinləri olacaqlar.

→ 8



# Əzəmətli, nəhəng və genişmiqyaslı quruculuq nümunəsi

## İlham Əliyevin qətiyyəti və əzmi ilə işğaldan azad edilmiş ərazilərimizdə həyat yenidən canlanır

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın sentyabrın 2-də Kəlbəcər rayonuna səfərləri çoxsaylı təməlqoyma mərasimləri və infrastruktur obyektlərinin açılışı ilə yadda qaldı.**





Dövlət başçısı rayon ərazisində görülən işlərlə tanış oldu və bütün bunlar işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərinin nə qədər əzəmətli, genişmiqyaslı olduğunu, kompleks məzmun daşıdığını göstərdi.

### Uğurla reallaşan milli ideya

2020-ci ilin Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan Respublikasının müasir tarixində yeni dövrün başlanğıcı oldu. Bu dövrün milli prioriteti isə işğaldan azad edilmiş ərazilərimizin - Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönüşünün təmin olunmasıdır. Prezident İlham Əliyevin həm də milli ideya olaraq qarşıya qoyduğu bu vəzifə hazırda sürətlə, yüksək dinamizmlə və keyfiyyətlə yerinə yetirilməkdədir. Cəmi 4 il ərzində azad edilmiş ərazilərdə xeyli dəyişikliklər baş verib. Demək olar ki, azad edilmiş bütün şəhərlərdə nəhəng tikinti-quruculuq işləri gedir. Şuşa, Füzuli, Laçın, Xocalı şəhərlərinin, Zəngilanın Ağalı, Laçının Zabux və Sus, Tərtərin Talış kəndlərinin sakinləri artıq öz doğma evlərinə qayıdıblar. İndiyədək 7 min nəfərdən artıq keçmiş məcburi köçkün doğma yurda qayıdıb və bərpa-quruculuq işləri tamamlandıqca onların sayı da yüksəlir.

2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq edib. Proqramda qarşıya qoyulan məqsədlərə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə yüksək standartlara cavab verən yaşayış məntəqələri, o cümlədən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında müasir şəhərlər və kəndlər salınır, etibarlı su, elektrik, qaz, istilik təminatı, habelə bərpa olunan enerji mənbələrindən istifadəyə əsaslanan "yaşıl" texnologiyaların tətbiqi ilə "yaşıl enerji" zonası yaradılır, qabaqcıl standartlara uyğun təhsil, səhiyyə, sosial xidmət, yol-nəqliyyat infrastrukturu qurulur. O cümlədən geri dönən vətəndaşlarımızın məşğulluq imkanları, insan kapitalının inkişaf etdirilməsi, sosial dəstək mexanizmlərinin geniş tətbiqi kimi məsələlər də diqqət mərkəzindədir və hər bir məqsəd birinci növbədə əhalinin layiqli həyat şəraitinin təmin olunmasına xidmət edir. Eyni zamanda barbar düşmənin vəhşicəsinə dağıtdığı tarixi, dini, mədəni abidələrimiz, təbiətimiz bərpa olunur.

### Heydər Əliyev Fondunun möhtəşəm töhfələri

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə görülən bütün işlər Prezident İlham Əliyevin quruculuq əzmini, qətiyyətini və Azərbaycan dövlətinin iqtisadi gücünü nümayiş etdirir. Təsadüfi deyil ki, indi Azərbaycan dövləti Livan boyda, dörd Lüksemburq boyda bir ərazidə bərpa və quruculuq işləri aparır. Dövlət başçısının işğaldan azad edilmiş ərazilərə hər səfəri yeni təməllərin qoyulması və inşaat işlərinin yekunlaşdırılması ilə əlamətdar olur.

Qarabağ və Şərqi Zəngəzurun bərpasında Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da böyük fəallıq nümayiş etdirir, quruculuq işlərinə layiqli töhfələr verir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq layihələri möhtəşəmliyi ilə fərqlənir. Fond hazırda bu ərazilərdə tarixi və dini abidələrin, məscidlərin bərpası ilə bağlı layihələr həyata keçirir. Ötən 4 ilə yaxın müddətdə onların bir qismi tam icra olunub. Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı, Mamayı məscidlərinin, Mehmandarovların malikanə kompleksi ərazisindəki məscidin, Mehmandarovların malikanəsinin, "Şirin su" hamamın, Şuşada Yaradıcılıq Mərkəzinin, Zəngilan məscidinin, Ağdam Cümə məscidinin bərpası məhz Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.

Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri dövlətə və xalqa xidmətin ən gözəl örnəyidir. Qarşıdakı dövrdə isə fond tərəfindən işğaldan azad edilmiş ərazilərimizin bərpasına yeni möhtəşəm töhfələr veriləcək.

### Kəlbəcər sürətlə yenidən qurulur

İşğaldan azad edilmiş digər rayonlarımız kimi Kəlbəcər də kompleks şəkildə sürətlə yenidən qurulur. Ermənilərin vaxtilə vandallığa məruz qoyduqları, yandırdıqları, təbiətinə dağ çəkdikləri Kəlbəcərdə artıq yeni həyat başlayır.

Xatırladaq ki, 2020-ci ildə havaların soyuq və şaxtalı olduğu bir dövrdə azad olunmasına baxmayaraq, Kəlbəcərdə dərhal quruculuq işlərinə başlanılmış, ilk növbədə rayonun enerji ilə təminatı yoluna qoyulmuşdu. Rayonda ilk inşa olunan obyekt də enerji infrastrukturudur. Sonrakı dövrdə dağ çaylarının bol olduğu Kəlbəcərdə yeni su-elektrik stansiyalarının inşasına başlanmış, onların bir çoxu istifadəyə verilmişdir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin Kəlbəcərə hər səfəri əlamətdar olur. Çünki dəniz səviyyəsindən çox yüksəklikdə, uca dağlar qoynunda yerləşən Kəlbəcərdə aparılan quruculuq işləri Prezidentin qətiyyətinin və dövlətimizin gücünün xüsusi bir təntənəsidir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın sentybarın 2-də Kəlbəcərə etdikləri səfər də bu baxımdan əlamətdar oldu. Dövlət başçısı Tərtər çayı üzərində yerləşən 22,5 MVt gücündə "Yuxarı Vəng" və 4,3 MVt gücündə "Zar" su-elektrik stansiyalarının, "İstisu" mineral su zavodunun açılışında iştirak edib. "İstisu" zavodunun təməli 2022-ci ilin iyununda qoyulmuşdu və onun istifadəyə verilməsi göstərir ki, artıq Kəlbəcərin iqtisadi potensialı hərəkətə gətirilir.

Qarabağ və Şərqi Zəngəzurda indiyədək ümumi gücü 270 MVt olan 32 su-elektrik stansiyası istismara verilib və onların bir qismi Kəlbəcərin payına düşür. Su-elektrik stansiyalarının inşası həm də Qarabağ və Şərqi Zəngəzurdakı "yaşıl quruculuğun" göstəricisidir.

Dövlət başçısı Kəlbəcər şəhərində inzibati binanın, ikinci yaşayış kompleksinin və İstisu qəsəbəsinin təməlini də qoyub. İkinci yaşayış kompleksində 160 ailənin yaşaması planlaşdırılır. Şəhərdə birinci yaşayış kompleksinin inşası isə davam edir və tezliklə öz doğma sakinlərini qarşılayacaq.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri əzəmətli, nəhəng və genişmiqyaslıdır. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza mütəmadi səfərləri də göstərir ki, dövlət başçısı bu məsələni xüsusi diqqət və nəzarətində saxlayır. Dövlətimizin başçısının qətiyyəti, iradəsi və quruculuq əzmi ilə işğaldan azad edilmiş ərazilərimizdə həyat yenidən canlanır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Sizi və Yeni Azərbaycan Partiyasını Azərbaycan Respublikası Milli Məclisində təmsil edən deputatları parlament seçkilərində qazanılmış inamlı qələbə münasibətilə Belarusun "Belaya Rus" Partiyası adından təbrik edirəm.

Parlamentdə mütləq çoxluq Azərbaycan vətəndaşlarının etimadının göstəricisi olmaqla yanaşı, partiyanın insanlar üçün əhəmiyyətli layihə və təşəbbüslərin həyata keçirilməsi istiqamətində uzunmüddətli səmərəli fəaliyyətinin məntiqi nəticəsidir.

Əminəm ki, seçilmiş deputatlar ölkənin iqtisadi potensialının daha da inkişaf etdirilməsi, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi, Azərbaycanın beynəlxalq aləmdə siyasi nüfuzunun qorunub saxlanılması və möhkəmləndirilməsi üçün səylərini əsirgəməyəcəklər.

Milli Məclisin yeni tərkibinə tükənməz enerji, sadiq tərəfdaşlar və Azərbaycan Respublikasının mənafeyi naminə uğurların əldə edilməsi üçün düzgün, düşünülmüş qərarların qəbul edilməsini arzulayıram.

"Belaya Rus" Partiyası Yeni Azərbaycan Partiyası ilə ikitərəfli əlaqələrin inkişafına səmimi maraq göstərir və müxtəlif məsələlər üzrə qarşılıqlı fəaliyyətə hazırdır.

Partiyalararası əməkdaşlıq perspektivlərinin müzakirəsi və sazişin imzalanması üçün Belarus və yaxud Azərbaycan Respublikası ərazisində görüşmək imkanının nəzərdən keçirilməsini təklif edirik.

"Belaya Rus" Partiyası partiya diplomatiyası xətti ilə dost dövlətlərin siyasi partiyaları ilə beynəlxalq əlaqələri genişləndirməyə hazırdır.

Məhsuldar birgə fəaliyyətə ümid edirik.

***Hörmətlə,***
***"Belaya Rus" Partiyasının***
***sədri Oleq Romanov***

Qardaş ölkəmiz Azərbaycanda sentyabrın 1-də keçirilən parlament seçkilərində Yeni Azərbaycan Partiyasının Milli Məclisdə 125 deputat mandatından 68-ni qazanması bizim hədsiz sevincimizə səbəb olmuşdur.

Dünyada və özəlliklə türk dünyasında haqq etdiyi yerini tutmuş qardaş ölkə Azərbaycanın qardaş Yeni Azərbaycan Partiyasının əldə etdiyi bu böyük uğurun baş memarı möhtərəm Prezidentimiz cənab İlham Əliyevi və sizləri təbrik edirik. Xalqın etimadını qazanmış hər iki partiyamız bu məsuliyyətlə parlaq gələcək üçün var gücü ilə çalışacaqdır.

Makedoniya türklərinin siyasətdəki ən güclü siyasi təmsilçisi olan Şimali Makedoniya Türk Demokratik Partiyası adından Makedoniya türklərinin salamını çatdıraraq ən dərin hörmət və sevgimizi ifadə edirik.

***Türk Demokratik Partiyasının sədri,***
***millət vəkili Dr. Beycan İLYAS***

# ADA Universitetində İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində tələbələrlə görüş keçirilib




ADA Universitetində ilk dəfə olaraq 2024-2025-ci tədris ilində İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində "Kənd təsərrüfatı və qida elmləri" fakültəsinin bakalavr pilləsinə tələbə qəbulu həyata keçirilib.



ADA Universitetində yeni tədris ilinin başlanması münasibətilə "Kənd təsərrüfatı və qida elmləri" fakültəsinin bakalavr pilləsinə qəbul olunan tələbələr və onların valideynləri ilə görüş təşkil olunub. Görüşdə ADA-nın rektoru, səfir Hafiz Paşayev, kənd təsərrüfatı naziri Məcnun Məmmədov, nazirliyin rəhbər şəxsləri, professor-müəllim heyəti, tələbələr və onların valideynləri iştirak ediblər.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbiri açan ADA Universitetinin rektoru Hafiz Paşayev bildirib ki, rəhbərlik etdiyi təhsil müəssisəsində ölkə iqtisadiyyatının tələblərinə uyğun olaraq ən mühüm ixtisaslar üzrə peşəkar kadrlar hazırlanır. Kənd təsərrüfatının ölkə iqtisadiyyatının ən vacib sahələrindən biri olduğunu deyən rektor Hafiz Paşayev diqqətə çatdırıb ki, müasir dövrdə aqrar sahədə rəqabətədavamlı kadrların yetişdirilməsi mühüm əhəmiyyət kəsb edir. İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində təsis edilən "Kənd təsərrüfatı və qida elmləri" fakültəsində yüksəkixtisaslı kənd təsərrüfatı mütəxəssislərinin yetişdiriləcəyini deyən Hafiz Paşayev əlavə edib ki, İtaliyanın Bolonya Universiteti ilə əməkdaşlıq bu sahədə təhsil alan gənclərə beynəlxalq səviyyəli təhsil və bacarıq qazandıracaq.

Sonda rektor vurğulayıb ki, sözügedən fakültənin bu il qəbul edilən ilk tələbələri ADA Universitetindən ölkəmizin inkişafına dəstək ola biləcək peşəkar kimi məzun olacaqlar.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkəmizdə aqrar inkişaf strategiyasının əsas istiqamətləri, aqrar sahəyə dövlət dəstəyi, nazirliyin fəaliyyəti, həyata keçirilən innovativ layihələr barədə tələbələrə ətraflı məlumat verib. Aqrar sahədə innovasiyalar və müasir texnologiyaların tətbiqinə, davamlı inkişaf prinsiplərinə önəm verildiyini deyən nazir tələbələrin bu sahədəki yenilikləri mənimsəməsinin və gələcək fəaliyyətlərində tətbiq etməsinin cəmiyyət üçün faydalı olacağını vurğulayıb.

Yeni açılmış fakültənin dekanı Matteo Vittuari rəqabətədavamlı kadr hazırlığı, tədris prosesinin təşkili, ADA-Bolonya Universiteti arasında əməkdaşlıq, aqrar sahədə təcrübə mübadiləsi ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib. ADA Universitetinin aqrar sahədə fəaliyyət göstərən dövlət və özəl qurumlarla sıx əməkdaşlıq etdiyini deyən Matteo Vittuari bildirib ki, Bolonya Universiteti ilə qarşılıqlı bilik və təcrübə mübadiləsinin aparılması tələbələrin peşəkar kadr kimi yetişməsinə zəmin yaradır.

Təbirdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyi Aparatının rəhbəri Azad Cəfərli kənd təsərrüfatını strateji və unikal sahə adlandırıb. Bu ilin yanvar-iyul aylarında Azərbaycandan xarici bazarlara 540 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulu ixrac edildiyini deyən Azad Cəfərli bu göstəricinin ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz artdığını bildirib. Aqrar sahənin inkişafının peşəkar kadrlardan asılı olduğunu deyən Aparat rəhbəri tələbələrin zəruri bilik və bacarıqlara yiyələnəcəklərinə və ölkəmizin dinamik inkişaf prosesinə töhfə verəcəklərinə əminliyini ifadə edib.

Daha sonra kənd təsərrüfatı və qida elmləri fakültəsinə qəbul olunan tələbələr və onların valideynlərinin sualları cavablandırılıb, tədris prosesinin təşkili ilə bağlı müzakirələr aparılıb.

Qeyd edək ki, kənd təsərrüfatı və qida elmləri fakültəsi İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində Bolonya Universiteti ilə əməkdaşlıq nəticəsində təsis edilib. Bu ildən fakültə üzrə bakalavr və magistr ixtisasları ADA Universitetinin Bakı kampusunda, Qazax və Gəncədəki regional mərkəzlərində tədris olunacaq.

# Riyakarlıq xəstəliyi

## Ermənilər niyə yalan danışmağı və şər atmağı sevirlər

Yalan danışmaq ermənilərin atributudur!

Yalan danışmaq hayların sevimli məşğuliyyətidir!

Yalan danışmaq bu millətin şakəridir!

**Ən əsası, yalan danışmaq Ermənistanın gəlir mənbəyidir!**

*Odur ki, bu millət yalan danışmasa, yaşaya bilmir!*

*Həm də mövcudluğunu və gəlir mənbəyini qoruyub saxlamaqdan ötrü yalanlar uydurmağa məhkumdur!*

Üstəlik, "yalandan yalan doğar" həqiqəti də var.

Yəni bir yalanı "əsaslandırmaq", doğruluğuna digərlərini də inandırmaq üçün yeni yalanlar uydurmağa məcbursan.

**Haylar üçün yalan danışmaq artıq milli vərdişə, Ermənistan üçün isə dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilib.**

❖ ❖ ❖

*Yalanı həyat tərzi seçən ermənilər özləri barədə "maraqlı" əfsanələr uydurmağı daha çox sevirlər.*

*Çünki olmayan şeyi uydurmaqdan başqa çarələri yoxdur!*

MƏSƏLƏN:

- Guya bunların nə vaxtsa "dənizdən-dənizədək" uzanan dövlətləri olub.
- Guya bunlar dünyanın ən qədim xalqıdırlar.
- Guya bunlar dünyada xristianlığı ən əvvəl qəbul edən millətdirlər.
- Guya bunlar qədim mədəniyyətə malikdirlər.
- Guya bunlar döyüşkən, məğlubedilməzdirlər.

Və s. və i.a.

Amma adi suallarla onların bütün bu miflərini darmadağın etmək çox asandır.

MƏSƏLƏN:

- Əgər "böyük Ermənistan" adında nə vaxtsa bir dövlətin olubsa, onda niyə qədim salnamələrdə, səyyahların xatirələrində, tarix kitablarında bircə dəfə bu barədə danışan, dövlətin hüdudlarını, pul sikkələrini, qalalarını göstərən tarixi fakt yoxdur?
- Əgər dövlətin olmuşdursa, onda niyə çar Rusiyası sənə XIX əsrin əvvəllərində Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına dövlət yaratdı?

**Bu isə həqiqətdir ki, indiki dövlətinizin yaranışı barədə kifayət qədər tarixi sənədlər, faktlar, tarixçilərin əsərləri vardır!**

- Əgər dünyanın ən qədim xalqısansa, dünya mədəniyyətinə, dünya memarlığına, dünya elminə verdiyin töhfələr hansılardır, bircəciyini göstərə bilərsənmi?
- Əgər dünyada xristianlığı birinci sən qəbul etmisənsə, onda ən qədim kilsən hanı? Niyə dünyanın qədim dövlətlərinin hamısında möhtəşəm dini məbədlər qalır, səndəkilər isə yalnız özgələrdən oğurladığın keçmiş alban dini kilsələridir?
- Əgər qədim mədəniyyətə malik xalqsansa, göstər mədəniyyət abidələrini, musiqini, mətbəxini, xalçalarını. Hamısını bizdən oğurlayıb öz adına çıxan sən deyilsənmi? Elə lap sonuncusu bəstəkar Bəhram Nəsiboğlunun "Qarabağ" mahnısı idi ki, onun da bizə məxsusluğunu sübuta yetirərək yenə əlinizi boşda qoyduq!
- Əgər döyüşkən millətsənsə, onda niyə indiyədək öz gücünə bir müharibəni udmamısan, həmişə dost dediyinə xain çıxaraq arxadan kürəyinə bıçaq saplamısan.

Elə Osmanlı dövlətinə xəyanətinə görə səni Türkiyədən qovmadılarmı?

*Lap elə 44 günlük Zəfər müharibəsini yada sal!*

*Zirehli texnikasını, topunu-tüfəngini, döyüş sursatını atıb qaçan siz deyildinizmi?*

*On iki min fərarisi olan dövlət hardan "məğlubedilməz" oldu?!*

*Siz ancaq gizlincə, xaincəsinə torpağa mina basdırmağı, mina tələləri qurmağı, mina xəritələrini gizlətməyi bacarırsınız.*

❖ ❖ ❖

**Ermənilər şər atmağı da çox yaxşı bacarırlar.**

Bu məqamda ən əvvəl özlərini "şərləyirlər"!

*Haylar həmişə özlərini "məzlum", "zavallı", "əzabkeş" xalq kimi təqdim etməyi sevirlər. Əslində, bu, onlara maskalanmaq, əsl xislətlərini gizlətmək üçün gərəkdir!*

**Qarabağda törətdikləri vəhşiliklər və vandallıqlar isə onların həqiqi simalarını bir daha ortaya qoydu.**

İşğal dövründə Azıx mağarasında "qədim ermənilər"in yaşadığını "sübut edən" "yerdənçıxarma" saxsı parçaları və digər "dəlillər" gətirərək dünya "alimlərini" buraya dəvət etdilər.

Ancaq hələ sovet hakimiyyəti illərində azərbaycanlı alimlər mağaranın qədim türk xalqlarına məxsusluğunu sübuta yetirmiş, kifayət qədər elmi əsaslandırmalar aparmış və dünya elmi bunu qəbul etmişdir.

Ermənilərin Azərbaycan ərazisində, sonuncu dəfə Ağdamda "tapdıqları" "Tiqranakert şəhəri"nin xarabalıqları ən çox sevdikləri şər-şəbədədir.

*Dünyada nə qədər "Tiqranakert" olar, hələ bunu yəqin ki, gələcək nəsillər daha yaxşı "biləcəklər".*

❖ ❖ ❖

**Erməni şərinin ikinci mühüm ünvanı biz olmuşuq!**

*Bu şərləmənin səbəbi isə "işğala hazırlıq" mərhələsinin əsas elementlərindən biri idi.*

Odur ki, bu böhtanlara ən çox inanan sovet rəhbərliyi oldu.

Belə ki, "miatsum" hərəkatına başlayan ermənilər keçmiş DQMV-nın Azərbaycanın digər bölgələrindən "sosial-iqtisadi cəhətdən çox geri qaldığını, etnik cəhətdən sıxışdırıldıqlarını və hüquqlarının pozulduğunu" iddia edərək Xankəndidəki meydanda etiraz mitinqləri keçirirdilər.

O dövrdə Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin birgə imzası ilə "DQMV"nin sosial-iqtisadi cəhətdən "geriliyinin aradan qaldırılması" barədə xüsusi qərar qəbul edilsə də, əslində, bunun bir oyun olduğunu hamı gözəl anlayırdı.

*Sovet dövründə "hüquq pozulması", "etnik zəmində sıxışdırma" anlayışı belə ola bilməzdi. Çünki SSRİ "qardaş xalqların könüllü birliyindən" yaranmışdı və burada yalnız "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi" mövcud ola bilərdi.*

**Qırmızı imperiyanın çöküşü dövründə bu ifadələr ermənilər tərəfindən xaricdən idxal edilmişdi və "miatsum" ideoloqlarının planlarına əsasən gələcəyə ünvanlanmışdı.**

❖ ❖ ❖

**Erməni yalanları bu gün də, həm də "yeni şəraitə uyğun" olaraq davam edir.**

Artıq ona inananlar "sovet rəhbərliyi" deyil!

Çünki onlar çoxdan tarixin arxivindədirlər.

*Bu yalanlara inananlar ermənilərin dəstəkçiləri və müdafiəçiləri - Fransa, Avropa İttifaqı, ABŞ və onların müxtəlif qurumları, erməni diasporunun maliyyələşdirdiyi beynəlxalq təşkilatlar və QHT-lərdir.*

Həm də səmimiyyətdən deyil, sərf etdiyinə görə "inanırlar"!

Belə yalanların bir qisminə qısa şəkildə nəzər yetirək.

**"Azərbaycan sülh danışıqlarını pozdu" - 44 günlük Zəfər müharibəsi başlayandan Ermənistanın ən çox harayhəşir saldığı mövzu idi.**

*Amma sülh danışıqlarını əvvəlcə ATƏT-in Minsk qrupu pozmuşdu.*

*Çünki yaradıldığından keçən 30 il ərzində qarşısına qoyulan əsas vəzifəni - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini danışıqlar yolu ilə həll edə bilmədi.*

Daha doğrusu, həll etmək istəmədi, çünki həmsədr dövlətlərin hər üçü erməni maraqlarını müdafiə edirdi.

*"Siz öz aranızda hansı razılığa gəlsəniz biz onu müdafiə edəcəyik" söylədi.*

Bu minvalla, əslində, münaqişənin həllindən yaxasını bir kənara çəkdi, işğala məruz qalanla işğalçı arasında bərabərlik işarəsi qoydu.

**Hadisələrin gedişi isə onu göstərdi ki, ATƏT-in Minsk qrupunun əsas niyyəti münaqişəni sonsuzadək uzatmaq, Azərbaycanı ərazi itkisi ilə barışdırmaqdır!**

**Yoxsa bu uzunluğunda sülh danışıqları olmazdı.**

ATƏT-in Minsk qrupunun ləğvinin vaxtı çoxdan çatıb!

*Sülh danışıqlarına nöqtəni, əslində, "soros uşağı" sayılan, mitinq meydanından birbaşa Ermənistan rəhbərliyinə gələn Paşinyan qoydu.*

**Əvvəlcə Xankəndidə içib keflənərək "Qarabağ Ermənistandır və nöqtə" dedi.**

*Sonra isə sərhəddə sistemli şəkildə təxribatlar törədilməsinə rəvac verdi.*

*Hədlərini aşdılar - "yeni müharibə, yeni ərazilərin itirilməsi olacaq" hədə-qorxusunu dövriyyəyə buraxdılar, Azərbaycana hədə-qorxu gəlməyə başladılar.*

**Əlbəttə, Azərbaycan Prezidenti cənab İlham Əliyev Paşinyanın əməllərini cavabsız qoymadı!**

Əvvəlcə Soçidə keçirilən Beynəlxalq Diskussiya Klubunda, sonra isə Münhen Təhlükəsizlik Konfransında açıq şəkildə, bütün dünyanın eşidəcəyi formada cavabını verdi, təkbətək diskussiyada rüsvay etdi!

Sonra isə 44 günlük Zəfər müharibəsində Ermənistan ordusunu "dəmir yumruğ"u ilə məhv edərək həmin Paşinyana kapitulyasiya aktını imzalatdırdı!"

**Beləliklə, əməli şəkildə göstərdi ki, "Qarabağ Azərbaycandır!"**

❖ ❖ ❖

Ermənilərin növbəti yalanlarından biri **"Azərbaycan Xankəndiyə gedən yolu bağlayıb və orada humanitar fəlakət gözlənilir"** idi.

Baş verənlər göstərir ki, hər erməni yalanının arxasında bir, yaxud bir neçə hiylə gizlənir.

Bu dəfə də eyni vəziyyət idi.

Azərbaycan 44 günlük müharibədə möhtəşəm Zəfərə nail olaraq Ermənistana kapitulyasiya aktını imzalatdırsa da, məğlub ölkə üçtərəfli Bəyanatın bütün bəndlərinə, xüsusən 4-cü və 9-cu bəndlərə əməl etmək istəmirdi.

Üstəlik:

Bir tərəfdən Ağdərə bölgəsindəki faydalı qazıntı yataqlarının istismarını davam etdirərək çıxarılan xammalı (mis, molibden, qızıl və s.) daşıyıb aparırdı.

Digər tərəfdən isə Laçın dəhlizi vasitəsilə ölkəmizə yeni minalar gətirərək ərazilərimizdə basdırılmasını davam etdirir, qanunsuz silahlı birləşmələrinin təminat və təchizatını həyata keçirirdi.

*Hətta o qədər qudurdular ki, Azərbaycan tərəfinin mədənlərdə monitorinq aparmasına belə yol vermədilər.*

*Rusiya sülhməramlı kontingenti isə Azərbaycanın öz ərazisində, öz mədənlərinə baxış keçirməsinə kömək göstərməyi "bacarmadı".*

**Belə olan halda ölkənin bir qrup QHT təmsilçisi Xankəndi yolu üzərində aksiya təşkil edərək buradan gedən nəqliyyat vasitələrini nəzarətə götürdü.**

**Ekoloqların bu aksiyaları beynəlxalq hüququn tələblərinə tam cavab verdiyindən Ermənistanın və dostlarının hadisələri kənardan seyr etməkdən başqa çarələri qalmadı.**

Yenə də ermənilər yalana əl atası oldular.

*Guya Xankəndidə ərzaq qıtlığı yaranıb və belə getsə, separatçılar aclıq çəkəcəklər.*

Halbuki sosial şəbəkələrdə Xankəndidə toy şənliklərinin keçirilməsini, restoran və kafelərdə erməni gənclərinin əylənməsini əks etdirən kifayət qədər süjetlər vardı.

Öz tələblərində haqlı olan ekoloqlarımız isə ərzaq maşınlarını yoxladıqdan sonra bu şəhərə getmələrinə imkan verirdilər.

**Növbəti "humanitar fəlakət" şousunu isə xüsusi təyinatlılarımızın möhtəşəm bir əməliyyat keçirərək Laçın dəhlizi üzərində post qurmaları və bu xəyanət yoluna öz nəzarətimizi tam təmin etmələrindən sonra start verildi!**

*Adətən ermənilər yalanlarını yeritməkdən ötrü bütün mümkün saydıqları vasitələrdən istifadə edirlər:*

- Beynəlxalq təşkilatlara "hüquqlarının pozulduğu barədə" məktub və müraciətlər ünvanlayırlar;
- "Böyük bacı"larını, dostlarını və havadarlarını köməyə çağırırlar;
- Kimlərisə şantaj edərək öz tərəflərinə çəkməyə çalışırlar;
- Hərdən açıq səma altında kütləvi tamaşalar qururlar.

**Budəfəki "humanitar fəlakət şousu" tamaşasında isə bütün vasitələri birlikdə işə saldılar:**

- Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etdilər;
- Fransanın vasitəsilə məsələni BMT Təhlükəsizlik Şurasının iclsında müzakirəyə çıxardılar;
- Rusiya sülhməramlı kontingentini "passiv", "seyrçi" mövqeyinə görə qınaq hədəfinə çevirdilər.

Ən nəhayət, teatrlaşdırılmış tamaşa qurdular:

Paşinyan İrəvandan Xankəndidəki "aclıq çəkənlərə" Laçın yolu ilə 22 "fur" ərzaq göndərdi.

*Bu tamaşaya Paris meri də qoşuldu!*

*Fransadan göndərilən 10 TIR ərzaq da Laçın qapısı ağzında qaldı.*

**Azərbaycan isə çox böyük soyuqqanlılıqla beynəlxalq hüquqla əsaslandırdığı yardımını - Qızıl Aypara Cəmiyyətinin 40 tonluq ununu Ağdam-Xankəndi yolu ilə "aclıq çəkənlərə" yola saldı.**

Üstəlik müstəqil dövlət olaraq prinsipial və qətiyyətli mövqeyini ortaya qoydu:

- Öz vətəndaşlarıma özüm yardım edəcəm!
- Yardımlar isə yalnız Ağdam-Xankəndi yolu ilə çatdırıla bilər!

**Prezident İlham Əliyevin qəti və prinsipial mövqeyi erməni yalanlarını tam faş etdi!**

- Sən demə, ermənilər yalnız "erməni və ya fransız çörəyi" yemək istəyirmişlər!
- Sən demə, "aclıq çəkənlər" yalnız Laçın yolundan gələn ərzağı qəbul edirmişlər.

*Laçın yolu ilə ərzaq gətirmək istəyənlər Laçın qapısının ağzında uzun müddət boynuburuq vəziyyətdə qaldıqdan sonra kor-peşman geriyə qayıtdılar!*

**Ən maraqlısı isə bu oldu ki, Xankəndidə aclıq çəkənlərin heç biri ölmədi...**

*Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyən ermənilər Xankəndini tərk etdikdən sonra oradakı mağazalarda və anbarlarda külli miqdarda ərzaq ehtiyatı olduğu aşkarlandı...*

❖ ❖ ❖

**Ermənilərin Vətən müharibəsi dövründə dünyaya yaydıqları yalanlardan biri də o idi ki, guya Azərbaycan Xankəndidəki mülki obyektləri, hətta "uşaq bağçalarını belə vurur".**

*İkinci yalan o idi ki, guya Azərbaycan qadağan edilmiş silah və sursatlardan istifadə edir.*

**Üçüncü yalanları o idi ki, guya Azərbaycan tərəfindən hərbi əməliyyatlarda xarici ölkələrdən gətirilmiş muzdlular döyüşürlər.**

**Erməni yalanının daha bir xüsusiyyəti də odur ki, öz əməllərini başqalarının üzərinə atır, qabaqdangəlmişlik edirlər.**

Başqa sözlə, "qara məni basınca, mən qaranı basım" prinsipi ilə hərəkət edirlər.

**Ermənilər "Xankəndi şəhərinin ağır artilleriya ilə vurulması" məsələsini ona görə uydurmuşdular ki, öz mənfur əməllərini ört-basdır etsinlər!**

*Azərbaycan Ordusu ləyaqətli müharibə apardı, heç zaman yaşayış məntəqələrini, mülki əhalini və sosial obyektləri hədəf seçmədi!*

**Ermənistan isə ölkəmizdəki dinc əhali arasında çaşqınlıq, qarışıqlıq, narazılıq yaratmaq və bundan istifadə edərək hərbi əməliyyatlara təsir göstərmək niyyətilə Gəncə, Tərtər, Bərdə və Goranboy rayonlarını intensiv şəkildə atəşə tutdu, dinc əhali, o cümlədən uşaqlar və qocalar arasında xeyli tələfata nail oldu.**

*Vətəndaşlara məxsus evlər, məktəblər, uşaq bağçaları, ictimai binalar, ticarət və xidmət obyektləri bu hücumlardan xeyli ziyan çəkdi.*

Bütün bu qurbanlar, dağıntılar barəsindəki materiallar, faktlar toplanaraq beynəlxalq qurumlara, dünya ictimaiyyətinə təqdim edildi, canlı çəkilişlər sosial şəbəkələrdə yerləşdirildi.

**Əsl həqiqətdə isə ermənilər əməllərini pərdələmək üçün özlərinin etdiklərini bizim üstümüzə yıxırdılar.**

Azərbaycanın rayonlarına etdikləri hücumlarda qadağan olunmuş ballistik raketlərdən (məsələn, "İskəndər M"), fosforlu və kasetli bombalardan istifadə edirdilər.

Məqsədləri isə vahimə yaratmaqla yanaşı, dinc əhaliyə daha çox tələfat yaşatmaq idi.

❖ ❖ ❖

**Azərbaycan Ordusunda xaricdən gətirilmiş muzdluların vuruşması barədə yalanı Ermənistan yenə də özündəkini ört-basdır etmək üçün uydurmuşdu.**

Nəinki İkinci, hətta Birinci Qarabağ müharibəsində belə Ermənistan ordusunda Suriya və Livandan gətirilmiş muzdlulardan istifadə olunurdu.

*Guya bunlar erməniəsillilərdir və köməyə gəliblər.*

Özgə ərazisini işğal edənlərin köməkçiləri isə yalnız muzdlular olar.

Əslində, bu məsələdə də da bizi borclu çıxarmağa can atırdılar.

**Vətən müharibəsində üç cəbhədə çarpışan Prezident İlham Əliyev informasiya döyüşlərində 30-dan çox dünya KİV-inin, o cümlədən televiziya kanallarının və informasiya agentliklərinin nümayəndələrini qəbul edərək suallarını cavablandırdı.**

Həmin jurnalistlərin bir neçəsi istisna olmaqla, qalanları ermənilər tərəfindən maliyyələşdirilən qurumlarda çalışdıqlarından erməni mövqeyindən çıxış edirdilər.

*Sifarişçilərinin rəğbətini qazanmaqdan ötrü bəzən jurnalistlərin peşə davranışı qaydalarına belə məhəl qoymadan "prokuror" kimi danışmağa cəhd edirdilər.*

**Hər dəfə isə Azərbaycan Prezidenti müdrik və məntiqli davranışı ilə onları yerində oturdur, verdiyi cavablarla susdururdu.**

Məsələn, iki dialoqa diqqət yetirək:

"Deyirlər Azərbaycan Ordusunda muzdlu əsgərlər döyüşür" - sualındakı uydurmanı cənab İlham Əliyev "Birini tapın göstərin" cavabı ilə puça çıxardı.

Alman jurnalistin "Azərbaycan Ordusunda türk əsgərləri də vuruşur" iddiasına da cavab çox məntiqli oldu:

- Siz onları görmüsünüzmü?

- Bəli, Bakıda görmüşük, - deyə jurnalist vəziyyətdən çıxmaq istədi.

Cənab İlham Əliyev polad məntiqlə həmin ermənipərəsti də susdurdu:

"Bakıda hamı ola bilər, hətta almaniyalı əsgərlər də gəzə bilərlər".

**Bütün bu cəbalar həm də Ermənistan ordusunun biabırçı məğlubiyyətini, fərariliyini və qorxaqlığını ört-basdır etmək üçün göstərilirdi.**

❖ ❖ ❖

Ermənilərin bu gün də davam etdirdikləri yalanların bir qismi 23 saatlıq antiterror tədbirləri ilə bağlıdır.

Guya bu zaman:

- Etnik təmizləmə aparılıb.
- Dinc əhali arasında itkilər baş verib.
- Erməni əhalisi Qarabağdan zorla çıxarılıb.

**Azərbaycan bu yalanları da həm qabaqlayıcı addımları ilə, həm də faktiki materiallar və çəkilişlərlə puça çıxarır.**

Azərbaycan daim və açıq şəkildə bildirib ki, onun hədəfi yalnız işğalçılar, separatçılar və terrorçulardır.

*23 saatlıq antiterror tədbirləri keçirilərkən, ondan əvvəl və sonra da Qarabağdakı erməniəsilli vətəndaşlarına dəfələrlə müraciət ünvanlayaraq "Azərbaycan Konstitusiyasını qəbul edərək Azərbaycan qanunlarına hörmət bəsləyənlər ölkə ərazisində qalıb rahat və asudə yaşaya biləcəkləri" bəyanatını vermişdi.*

*Hətta bu məqsədlə geriyə qayıtmaq istəyənlər üçün xüsusi internet portalı da yaradılmışdı.*

Lakin heç bir "artsaxlı" Azərbaycan vətəndaşlığını qəbul etmək istəyini bildirmədi, bununla bağlı Azərbaycana müraciət etmədi...

Hamısı könüllü şəkildə yır-yığış edərək Hayastana üz tutdu...

Maşını olan öz maşınında, olmayanlar avtobuslarla...

**Hamısı postumuzda qeydiyyatdan keçdilər, bir çoxu Azərbaycan telekanallarına müsahibə verərək könüllü şəkildə, öz istəyi ilə getdiyini söylədi!**

*"Sizə qarşı hər hansı zorakılıq olubmu?" sualına bir nəfər belə müsbət cavab vermədi.*

**Əgər hər hansı zorakılıq halı olsaydı, əgər hər hansı bir "dığanın", yaxud "haxçığın" burnu qanasaydı, dünyanın bütün telekanalları bundan "maraqlı" şoular düzəldib göstərər, bir damcı qanı bir dəryaya çevirib təqdim edərdilər!**

Ən nəhayət, demokratiyanın mühüm prinsiplərindən biri də insanların sərbəst şəkildə özünə yaşayış yeri seçməsidir.

Əslində, otuz il separatçılıqla məşğul olan, bir çoxu terrorçu qruplaşmaların tərkibində iştirak edən, mülki azərbaycanlılara divan tutulmasında fəallıq göstərən erməni mənən Azərbaycan vətəndaşı olmaq hüququnu itirmişdi.

*Bunu özləri də yaxşı bilir və bu gün də gözümüzün içinə baxmağa cəsarət etmirlər!*

**Torpağa və torpağın sahibinə xəyanət edənlər həmin torpaq üzərində gəzə bilməzlər!**

**Torpaq onları yandırar!**

❖ ❖ ❖

*Artıq 30 illik işğal da, separatizm də, terror da, üstəlik iki qanlı müharibə də arxada qalıb.*

*İndi yeni dövrün, yeni reallıqların tələbinə uyğun şəkildə irəli baxmaq vacibdir.*

**İrəlidə bizi gözləyən isə qalib dövlətin şərtləri, üçtərəfli Bəyanat əsasında hazırlanan sülh müqaviləsinin imzalanmasıdır!**

*Ermənilər yenə də xislətlərinə uyğun şəkildə çoxsaylı yalanlar və bəhanələr uydararaq sülh müqaviləsini imzalamaqdan boyun qaçırırlar.*

Bunun da müəyyən və bəlli səbəbləri vardır.

**KTMT-dən inciklik, onun tədbirlərində iştirak etməmək və üzvlük haqqını verməmək bəhanədir.**

*Özlərini Qərbin ağuşuna atmaq niyyətindədirlər və bunu heç də gizlətmirlər.*

**Qərb də erməniləri qucağına götürmək arzusunda olduğunu gizlətmir.**

**ABŞ, Avropa İttifaqı ermənilərin başına pul səpir.**

Fransa ona silah verir.

Artıq ABŞ haylarla birgə təlimlərə başlayıb, Ermənistan ordusunu dirçəltmək üçün hərbçilərini və mütəxəssislərini İrəvana göndərir.

Bu dəfə erməni yalanına Avropa ilə ABŞ də qoşulub.

Dildə sülh desələr də, əməldə Ermənistanı revanşizmə hazırlayırlar.

**Əslində, sülh müqaviləsi imzalanmadan işğalçı dövləti silahlandırmaq onu yeni müharibəyə təhrik etməkdir!**

Ermənistanın yalanı və silahı bol ola bilər, əhalisi, gücü isə çox cüzidir.

Cənubi Qafqaza girmək istəyənlər ən əvvəl bölgənin ən güclü dövləti olan Azərbaycanla hesablaşmalıdırlar!

Həm də buranı Ukraynaya çevirmək planlarından daşınmalıdırlar.

*Cənubi Qafqaz yalan, revanşizm, kimlərinsə kimlərləsə haqq-hesab çəkmək məkanı deyil, sülh və əməkdaşlıq bölgəsi olmalıdır.*

Xeyir də, fayda da bundadır!

❖ ❖ ❖

**Erməni təkcə yalan danışaraq şər atmır.**

**O həm də çox rahatlıqla köhnə dostlarını, necə deyərlər, keçi qiymətinə satır.**

*Rusiya onu dövlət elədi, həmişə arxasında durdu, silahlandırdı, ucuz qiymətə qaz satdı, sərhədlərini qorudu.*

**İndi Ermənistan üzünü Qərbə çevirib, Rusiyadan sürətlə uzaqlaşır...**

- KTMT-nın üzvlük haqqını vermir, tədbirlərində iştirak etmir.
- Zvartnots hava limanını qoruyan rus sərhədçilərini çıxaran kimi, ABŞ hərbi təyyarələri Ermənistana silah-sursat, onları işlədəcək hərbçilər daşımağa başladı.
- Ermənistan ordusu ABŞ hərbçiləri ilə təlimlər keçir, ABŞ-dən gələn hərbi mütəxəssislər Ermənistanın Müdafiə Nazirliyində çalışaraq ordunun ayağa qaldırılmasında onlara yardım göstərir.

*Bu həm də o deməkdir ki, yaxın müddətdə Gümrüdəki Rusiya hərbi bazası öz yerini ABŞ-nin hərbi bazasına verməli olacaq.*

**Ermənistan digər yaxın dostu, Qarabağın işğalı dövründə daim ona qardaş köməyi göstərərək arxa-dayaq olan İrana da xəyanət edir.**

İran-İsrail qarşıdurmasının indiki gərgin və təhlükəli məqamında ABŞ hərbçilərinin Zəngəzurda, İranla sərhəddə yerləşdirilməsi yeni təhlükələrdən xəbər verir.

**Əgər bu gün Ermənistan Avropa Sülh Fondundan yardım, ABŞ-dən pul alırsa, ABŞ-nin təyyarələri dayanmadan Ermənistana silah-sursat, avadanlıq daşıyırsa, onu Rusiyanın və İranın dostu saymaq olarmı?**

**Yalandır!**

*Erməni ilə dost olan heç vaxt ehtiyatını əldən verməməlidir!*

Rusiya və İran isə çətin dövrlərini yaşayırlar.

*Ermənilər də adətən dostlarını ağır məqamlarında arxadan vururlar...*

Necə ki, türkləri vurdular!

**Görək bu dəfə ermənilər şər və yalanlarından, xəyanətkarlıqlarından fayda qazana biləcəklərmi?!**

**Bəxtiyar SADIQOV**

# Bakıda Fransanın işğalı altında olan Mayot adasına həsr olunmuş beynəlxalq konfrans keçirilib




Sentyabrın 3-də Bakıda Fransanın işğalı altındakı Qəmər Adaları İttifaqının Mayot adasına həsr olunmuş beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən tədbirdə "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda müzakirələr aparılıb.

Tədbirdə Qəmər Adaları İttifaqının BMT-də, Cənubi Afrikada və digər regionlarda fəaliyyət göstərmiş nümayəndələri, "Maore komitəsi", "Üçüncü Yol Kollektivi (C3V)", "Demokratik Cəbhə", "Qəmər adalarının bütövlüyü və suverenliyinin müdafiəsi üzrə kollektiv" təşkilatları, Mayot adasının təmsilçiləri, o cümlədən Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, səfirlər, beynəlxalq təşkilatların, beyin mərkəzlərinin təmsilçiləri və media nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları Qəmər adalarının müstəmləkəçilik tarixi, Mayotun Fransa tərəfindən işğalı və bunun nəticəsində adanın vətəndaşlarına vurulmuş ziyan, Fransanın bu bölgədə müstəmləkəçilik siyasətinin geosiyasi və iqtisadi maraqları, habelə Mayot adası ilə bağlı beynəlxalq təşkilatların mövqeyi ətrafında müzakirələr aparıblar.

Çıxış edən Bakı Təşəbbüs Qrupunun (BTQ) İcraçı direktoru Abbas Abbasov son bir neçə ayda paytaxt Bakının müstəmləkəçilikdən əziyyət çəkən xalqların və ölkələrin azadlıq mübarizəsi ilə bağlı beynəlxalq konfranslara evsahibliyi etdiyini deyib. Bildirib ki, Bakı Təşəbbüs Qrupu müstəmləkəçilikdən əziyyət çəkən, əzilən xalqların azadlıq uğrunda mübarizələrinə dəstək verir.

A.Abbasov Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Qəmər adaları və Mayot adasının tarixindən, azadlıq mübarizəsindən danışıb, bəzi statistik rəqəmləri səsləndirib. O, bu konfransın Mayot adasının azadlıq mübarizəsinə dəstək verəcəyinə əminliyini ifadə edib.

Azərbaycan hökumətinin və Bakı Təşəbbüs Qrupunun dəstəyini yüksək qiymətləndirən Mayot Adasının Müstəqilliyi Uğrunda Mübarizə Komitəsinin üzvü Ahmed Tabet ölkəsinin müstəqillik uğrunda mübarizəsindən bəhs edib. Qəmər xalqının müstəqilliyinin BMT tərəfindən tanındığını qeyd edən qonaq 1975-ci ildən sonra Fransanın yenidən ordusunu Mayota yerləşdirdiyini deyib. Bildirib ki, BMT-nin Fransa ordusunun Mayotdan







çıxarılması ilə bağlı qətnamələri olsa da, müstəmləkəçi ölkə buna əhəmiyyət vermir və bununla Fransa beynəlxalq hüquqa qarşı çıxır.

Sonra Mayot adasının tarixi, azadlıq mübarizəsi ilə bağlı videoçarx nümayiş etdirilib.

Qəmər Adaları İttifaqının BMT-də sabiq nümayəndəsi Mohamed Toihiri bildirib ki, Fransa tərəfindən Mayot adasında neokolonializm siyasəti hələ də davam etdirilir. Onun sözlərinə görə, adanın sakinləri çox əziyyət çəkirlər və tez-tez bir yerdən digər yerə köçürülürlər. Bu əziyyətlər nəticəsində minlərlə ada sakini həyatını itirib, on mindən çox insan adadan qovularaq çıxarılıb. "Biz azadlıq mübarizəmizi sonadək davam etdirəcəyik", - deyən Mohamed Toihiri konstitusiyada Qəmər adaları ilə bağlı dəyişiklik edilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, Fransa beynəlxalq hüququn prinsiplərinə zidd hərəkət edir və ada sakinlərinin hüquqlarını nəzərə almır.

Qəmər Adaları İttifaqının təmsilçisi, hüquq müdafiəçisi Mohamed Rafsandjani Hassani Fransa Konstitusiyasının Qəmər adaları ilə bağlı 53-cü maddəsinin saxtalaşdırıldığını diqqətə çatdırıb. Bildirib ki, bu, Fransa tərəfindən Qəmər adalarının qanunsuz olaraq zəbt edilməsi deməkdir. O, həmçinin Mayotun Fransaya birləşdirilməsi və qəmərlilərə vurulmuş ziyandan da danışıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Cavid Vəliyev isə qeyd edib ki, Fransanın məqsədi Mayot adasında yerləşdirdiyi silahlı qüvvələrinin mövqeyini gücləndirməkdir. Onun sözlərinə görə, bu ölkəni adanın sakinlərinin həyat şəraiti maraqlandırmır.

BMTM-in şöbə müdiri bildirib ki, İkinci Dünya müharibəsindən sonra 1945-ci ildə qəbul edilən BMT Nizamnaməsi vətəndaşların hüquqlarının qorunmasına dair öhdəliyi ifadə edir və insan hüquqları ilə bağlı ali prinsipləri rəhbər tutur. "BMT-nin 1960-cı ildə qəbul etdiyi qətnaməsinin tələblərini pozan Fransa Qəmər Adaları İttifaqının sərhədlərinə müdaxilə edir və işğal siyasəti aparır. Fransa 2011-ci ildə Mayotu özünün müstəmləkəsinə çevirib", - deyə C.Vəliyev bildirib. O vurğulayıb ki, Fransa müstəmləkəçilik siyasəti aparmaqla digər xalqların, ölkələrin hüquqlarını pozur.

Qəmər Adaları İttifaqı Üçüncü Yol Kollektivinin (C3V) QHT nümayəndəsi Nadia Tourqui, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktorunun müşaviri Aytən Qəhrəman, Qəmər Adaları İttifaqının nümayəndəsi, Demokratik Cəbhənin üzvü Mohamed Monjoin, Mayot adasının Maore komitəsinin vitse-prezidenti Ambidi Said Mattoir və digərləri çıxış edərək Mayotun Fransaya birləşdirilməsi nəticəsində qəmərlilərə vurulmuş ziyan və fransız müstəmləkəçiliyinin yaratdığı problemlər barədə fikirlərini bildiriblər. Vurğulanıb ki, beynəlxalq hüquq və prinsiplər çərçivəsində hər bir xalqın öz müqəddəratını müəyyən etmək hüququ vardır və bu hüquqlar qorunmalıdır.

Qeyd olunub ki, Fransa Mayotun işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası və Baş Assambleyası tərəfindən qəbul edilmiş çoxsaylı qətnamələrə məhəl qoymur. Qəmər adalarının təmsilçiləri bildiriblər ki, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan istifadə edərək məqsədli şəkildə Mayotun işğalı məsələsini lokallaşdırıb, eləcə də işğal faktının beynəlxalq təşkilatlar səviyyəsində saxlanılmasına imkan vermir, bununla bağlı bütün təşəbbüsləri bloklayıb.

Konfrans çərçivəsində Fransanın müstəmləkəçiliyi altında olan Mayot adasının Maore komitəsi ilə Bakı Təşəbbüs Qrupu (BTQ) arasında sentyabrın 3-də əməkdaşlıq haqqında saziş imzalanıb. Qeyd edək ki, Maore komitəsinin əsas hədəfi Mayotu Qəmər Adaları İttifaqının tərkibinə qaytarmaqdır.

Sonra Bakı Təşəbbüs Qrupunun Mayot adası ilə bağlı hazırladığı fləşmobla Qəmər Adaları İttifaqının ərazi bütövlüyünə tam dəstək ifadə olunub.

Konfransın sonunda yekun bəyanat qəbul edilib.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılıb. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə son bir il ərzində 16 beynəlxalq tədbir keçirilib. Qrup XXI əsrdə dünyanın müxtəlif bölgələrində hələ də müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

# Bakıda keçirilən Mayot adasına həsr olunmuş beynəlxalq konfransda yekun bəyanat qəbul edilib




Sentyabrın 3-də Bakı Təşəbbüs Qrupunun təşəbbüsü ilə Bakıda keçirilən "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda beynəlxalq konfransın yekunlarına dair bəyanat qəbul edilib.

AZƏRTAC bəyanatı təqdim edir: "Konfrans iştirakçıları olaraq tədbirin təşkilinə görə Bakı Təşəbbüs Qrupuna, mehriban və dost qonaqpərvərliyinə görə Azərbaycan xalqına səmimi təşəkkürümüzü bildiririk.

Fransa tərəfindən işğal edilmiş Qəmərin Mayot adasına həsr olunmuş tədbir bütün maraqlı tərəflərə Fransa hökumətinin müstəmləkə siyasəti barədə fikir mübadiləsi aparmağa imkan verdi.

**Tarixi Kontekst:**

1975-ci il iyulun 6-da Qəmər Adaları müstəqilliyini elan etdi. Bundan əvvəl isə 1974-cü ildə Qəmərin müstəqilliyini qəti şəkildə dəstəkləyən bütün Qəmər Adaları ərazisində (Mayot da daxil olmaqla) referendum keçirildi.

Yeni Qəmər Dövləti 1975-ci il noyabrın 12-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 3385 **(XXX)** saylı qətnaməsi ilə Anjuan, Grand Comor, Mayot və Moheli adalarından ibarət Qəmər Dövlətinin birliyinə, eyni zamanda ərazi bütövlüyünə hörmət edilməsinin labüdlüyünü təsdiqləyən qətnamə ilə BMT-yə yekdilliklə qəbul olundu.

1974-cü ildə Qəmər xalqının iradəsinə baxmayaraq, Fransa Mayot üçün növbəti səsvermə keçirməkdə israr etdi və 1976-cı ildə 3385 (XXX) saylı qətnamənin əksinə olaraq bu adada qanunsuz referendum keçirdi. Bu məsələ Qəmər Dövlətinin başçısı tərəfindən BMT Təhlükəsizlik Şurasının diqqətinə çatdırıldı və 1976-cı il fevralın 6-da Təhlükəsizlik Şurası "belə bir referendumun keçirilməsinin Qəmərin daxili işlərinə müdaxilədir" və "Fransanı Mayotda referendumdan imtina etməyə tələb edən" bir qətnamə layihəsini (S/11967) nəzərdən keçirmək üçün toplaşdı. Fransa qətnamə layihəsinə veto qoydu və öz müstəmləkəçi siyasətini davam etdirdi. Nəticədə Mayotun Fransa tərəfindən işğalı baş tutdu.

Qəmər Dövlətinin Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı ilə bağlı qanuni tələblərinin əsassız sayılması üçün Fransa hökumətinin strategiyası, digər sözlə, Mayotun məqsədyönlü şəkildə fransızlaşdırılması :

- Mayotda şirkətlərə fransız mənşəli rəhbər heyətin təyin edilməsi;
- Yarım əsrdən çox hərəkətsizlikdən sonra rekord müddət ərzində Mayotda əsas infrastrukturun əhəmiyyətli dərəcədə inkişafı;
- Fransa qanunvericiliyinin vətəndaşlıq, din, torpaq mülkiyyəti və digər sahələrdə tətbiq edilməsi;
- Çoxşaxəli sosial fəsadlara səbəb olmuş və soyğunçuluğu tamamlamış Qəmərin Mayot adasının Fransanın departamentinə çevrilməsi;
- Fransızların Mayota kütləvi köç etməsi. Halbuki paradoksal olaraq Mayot adasının sakinləri Reünyon və Fransaya miqrasiya etməyə təşviq olunur;
- Qəmərin Mayot adasının faktiki işğalının Qəmər Dövləti tərəfindən qəbul edilməsi üçün dözülməz təzyiqin göstərilməsi.

Bu baxımdan əməkdaşlıq Qəmərlərin üzərində dəyənək kimi yellənir:

● Regional əməkdaşlıq çərçivəsində Mayota nəyin bahasına olursa-olsun Reünyon kimi yanaşmaq lazımdır;

● Qəmərin müstəqil bir hissəsindən gələn qəmərlilərin Mayotda immiqrant kimi qəbul edilmələri ;

● Fransanın Baş naziri Eduard Balladür tərəfindən tətbiq olunan cinayət vizasının qorunması və s.

- Bir tərəfdən Mayotun Qəmər adası olduğuna tamamilə məhəl qoymayan, digər tərəfdən isə "xalqların öz müqəddəratını təyinetmə hüququ" prinsipinin mahiyyətini dəyişən və ümumiyyətlə, sərhədlərin toxunulmazlığı prinsipinə əməl etməyən nəşrlər (coğrafi xəritə, rəsmi gündəliklər və s.) vasitəsilə beynəlxalq kommunikasiya kampaniyasının aparılması;
- Hökumətlərarası müqavilələr imzalayaraq Mayotun fransız statusunu möhkəmləndirmək cəhdlərinin edilməsi;
- Fransanın regional qurumlarda təmsil olunmasına imkan vermək məqsədilə Mayot departamentinin nümayəndələrinin (qəmərəsilli) Afrikadakı səfirliklərində "diplomat" statusu ilə yerləşdirilməsi: Hind Okeanı Komissiyası, SADEC, COMESA, EASF, EAC və başqaları.

Qeyd edilənlər son siyahı deyil!

Beynəlxalq ictimaiyyətin reaksiyası:

Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Afrika İttifaqı Fransanın Mayotda mövcudluğunun Qəmər İttifaqının milli birliyinin, ərazi bütövlüyünün, suverenliyinin pozulması olduğunu qətiyyətlə vurğulayan çoxsaylı qətnamələrlə aydın və birmənalı şəkildə pisləyiblər.

Yuxarıda qeyd olunanlarla əlaqədar,

- Kwassa-kwassalarda dənizi keçmə nəticəsində həlak olan 30 min nəfəri yad edirik və yaxınlarını itirmiş bütün ailələrə başsağlığı veririk. "Dünyanın ən böyük dəniz qəbiristanlığı" "Balladur cinayət vizası"nın nəticəsidir.
- Milli kimliklərini və mədəniyyətlərini qoruyaraq Fransanın Mayotda tətbiq etdiyi mədəni irsin itirilməsi siyasətinə müqavimət göstərən Mayotdakı bütün qardaş və bacılara ehtiramımızı ifadə edirik.
- Biz Qəmərin Mayot adasında "WUAMBUSHU" adlı əməliyyatın həyata keçirilməsini bir daha qətiyyətlə pisləyirik. Deportasiya edilmişlər öz ata-baba torpaqlarının sakinləridir.
- Fransanın Qəmərin Mayot adasındakı müstəmləkəçiliyini pisləyir, bütün regional və alt-regional təşkilatları, vətənpərvər suveren Pan-Afrika hərəkatlarını Fransanın müstəmləkə siyasətini şiddətlə qınamağa çağırırıq.
- Biz Fransa hökumətindən Qəmər İttifaqının suverenliyinə hörmət göstərməyi və onun ayrılmaz hissəsi olan Mayot adasını dərhal azad etməyi tələb edirik.
- Biz Birləşmiş Millətlər Təşkilatının Baş katibi, Afrika İttifaqının Prezidenti, İslam Konfransı Təşkilatının Baş katibi, Ərəb Liqasının Baş katibi, Avropa İttifaqı Komissiyasının Sədri və Qoşulmama Hərəkatının Sədrini Qəmərin Mayot adası ilə bağlı beynəlxalq konfrans təşkil etməyə çağırırıq. Fransa tərəfindən Mayotun qanunsuz işğalına son qoymaq məqsədilə Afrika İttifaqının 7-ci Komitənin fəaliyyətini bərpa etməyə və yuxarıda göstərilən digər təşkilatlar daxilində Qəmərin dost qruplarının yaradılmasına çağırırıq.

# Bakı Təşəbbüs Qrupu Mayot adasının Maore komitəsi ilə əməkdaşlıq edəcək

Fransanın müstəmləkəçiliyi altında olan Mayot adasının Maore komitəsi ilə Bakı Təşəbbüs Qrupu (BTQ) arasında sentyabrın 3-də əməkdaşlıq haqqında saziş imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas Abbasov və Mayot Adasının Müstəqilliyi Uğrunda Mübarizə Komitəsinin üzvü Ahmed Tabet imzalayıblar.

# *İcma:* Ermənistanda revanşist qüvvələrin qərbi azərbaycanlıların qayıdış hüququnu danmasını kəskin şəkildə pisləyirik

Sentyabrın 2-də Ermənistanda revanşist qüvvələrin, qondarma rejimin tör-töküntülərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü təhdid edən təxribatçı açıqlamalarını, o cümlədən Qərbdəki havadarlarına arxalanaraq yenə "beynəlxalq təminat altında Qarabağa qayıdış"dan dəm vuranların biz qərbi azərbaycanlıların qayıdış hüququnu danmasını kəskin şəkildə pisləyirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib. Bəyanatda həmçinin qeyd olunub: "Qərbi Azərbaycan İcması son vaxtlar bir neçə dəfə Ermənistan hökumətindən öz ərazisində Azərbaycanın suverenliyinə qarşı çıxan qüvvələrin fəaliyyətinə son qoyulması ilə bağlı çağırış edib. Görünən odur ki, Ermənistan hökuməti nəinki bu addımı atmır, əksinə, üzdə sülhdən danışaraq kənarda anti-Azərbaycan addımlara rəvac verir.

Qərbi Azərbaycan İcmasının Ermənistanın suverenliyini və ərazi bütövlüyünü təhdid etmədiyi halda, özünü "mühacirətdə olan hökumət" kimi qələmə verən qondarma rejimin tör-töküntülərinin, Ermənistanın sabiq xarici işlər nazirinin rəhbərlik etdiyi "repatriasiya komissiyası"nın Ermənistanda belə rahat fəaliyyət göstərməsi qəbuledilməzdir. Bəyan edirik ki, Ermənistan bu təhlükəli siyasətdən əl çəkməsə, onda biz Azərbaycan Respublikasında mühacirətdə olan Qərbi Azərbaycan hökumətinin təsis edilməsi istiqamətində işlərə başlayacaq və bu xüsusda, ilk olaraq yeni seçilmiş parlamentdə "Qərbi Azərbaycana qayıdış" komissiyasının yaradılması məqsədilə Milli Məclisə müraciət ünvanlayacağıq".




# Bakıda COP29 Sədrliyinin təşəbbüsü ilə İqlim Şəffaflığı üzrə Yüksək Səviyyəli Dialoq keçirilib







Sentyabrın 3-də Bakıda COP29 sədri qismində Azərbaycanın təşəbbüsü ilə "İqlim Şəffaflığı üzrə Yüksək Səviyyəli Dialoq" keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə ümumilikdə 120-dən çox ölkə və beynəlxalq təşkilatlardan yüksəksəviyyəli rəsmilər, o cümlədən Türkiyə, Özbəkistan, Yaponiya, Gürcüstan, Qazaxıstan, Braziliya, Qırğızıstanın nazir və nazir müavinləri, UNFCCC-nin icraçı katibi, ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsinin müavini, Avropa İttifaqı, Avstraliya, Norveç, İsveçrə, Almaniya, Birləşmiş Krallıq, BƏƏ, Səudiyyə Ərəbistanı kimi ölkələrin iqlim üzrə baş danışıqçıları və digər nümayəndələr iştirak ediblər.

Dialoqda açılış nitqi ilə çıxış edən COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev iqlim dəyişmələri ilə mübarizədə qlobal səviyyədə əməkdaşlığın önəmini vurğulayıb. O, bu il ilk dəfə təqdim ediləcək İkiillik Şəffaflıq Hesabatlarının (Biennial Transparency Report/BTR) iqlim dəyişmələri sahəsində görülən işlərin obyektiv qiymətləndirilməsində mühüm rol oynadığını bildirib. Bu hesabatlar Paris Sazişi çərçivəsində ölkələrin öhdəliklərini yerinə yetirməsində önəmli rol oynayacaq, eyni zamanda iqlim dəyişmələri ilə mübarizə istiqamətində həyata keçirilən fəaliyyətləri daha da gücləndirərək qlobal səviyyədə bu səylərə əhəmiyyətli töhfə verəcək.

Dialoq çərçivəsində Azərbaycanın COP29 Sədrliyinin iqlim şəffaflığı sahəsində mühüm irsi olacaq "Bakı Qlobal İqlim Şəffaflığı Platforması" (Baku Global Climate Transparency Platform/BTP) təqdim edilib.

COP29-un Baş danışıqçısı Yalçın Rəfiyev çıxışında bu platformanın əsas məqsədinin qlobal səviyyədə iqlim şəffaflığı üzrə əməkdaşlığı gücləndirmək, ölkələr arasında etimad mühitini formalaşdırmaq və inkişaf etməkdə olan ölkələrə BTR-lərin hazırlanması prosesində dəstək verməkdən ibarət olduğunu vurğulayıb. Bildirib ki, platforma eyni zamanda Paris Sazişi çərçivəsində Genişləndirilmiş Şəffaflıq Çərçivəsinin (Enhanced Transparency Framework/ETF) tətbiqini dəstəkləyərək universal iştirakın təmin olunmasına töhfə verəcək.

Tədbir çərçivəsində həmçinin COP29 Sədrliyinin iqlim şəffaflığı sahəsində apardığı qlobal səylərə əlavə töhfə vermək məqsədilə təyin edilmiş COP29-un iqlim şəffaflığı üzrə yüksəksəviyyəli nümayəndələrinin təqdimatı olub.

Tədbirdə çıxış edən nazir və nazir müavinləri, eləcə də digər yüksəksəviyyəli rəsmilər iqlim dəyişmələri ilə mübarizədə qlobal səylərin gücləndirilməsinə, şəffaflığın artırılmasına və ölkələr arasında etimad mühitinin yaradılmasına Azərbaycan tərəfindən verilən töhfələrin mühüm əhəmiyyətini vurğulayıb, COP29 sədri qismində ölkəmiz tərəfindən irəli sürülmüş Bakı Qlobal İqlim Şəffaflığı Platformasına (BTP) dəstəklərini ifadə ediblər.

Qeyd edək ki, tədbirin məqsədi iqlim şəffaflığı sahəsində qlobal əməkdaşlığın gücləndirilməsindən, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tərəf ölkələr arasında etimad mühitinin formalaşdırılmasına dəstək verilməsindən, İkiillik Şəffaflıq Hesabatlarının (Biennial Transparency Report/BTR) hazırlanmasından və bu istiqamətdə ölkələrə dəstəyin verilməsinin təşviqindən ibarət olub.

# Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında birgə müəssisə təsis edilib

Rumıniyanın paytaxtı Buxarest şəhərində "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə 8-ci Nazirlər-Rəhbər Komitənin iclası keçirilib.





Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycanı energetika naziri Pərviz Şahbazov, Rumıniyanı energetika naziri Sebastian-İoan Burduja, baş katib Mirça Abrudean, Gürcüstanı Baş nazirin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Macarıstanı isə xarici işlər və ticarət naziri Peter Siyarto təmsil edib. Görüşdə həmçinin Bolqarıstanın, Avropa Komissiyasının, ötürücü sistem operatorlarının və CESI şirkətinin nümayəndələri də iştirak ediblər.

İclasda layihənin CESI şirkəti tərəfindən həyata keçirilən texniki-iqtisadi əsaslandırmasının (TİƏ) cari vəziyyəti, birgə müəssisənin təsis edilməsi ilə bağlı görülən işlər, "yaşıl enerji" dəhlizinin fiber-optik komponenti, həmçinin Bolqarıstanın layihəyə inteqrasiyası imkanlarına və digər istiqamətlərə dair məsələlər müzakirə edilib.

Nazir Pərviz Şahbazov "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilkin nəticələrinin təqdimatının bu ilin noyabrında Bakıda keçiriləcək COP29 çərçivəsində planlaşdırıldığını vurğulayaraq prosesin intensivliyini təmin edəcək tövsiyələr verib. Nazir həmçinin layihənin statusu, digər komponentləri, atılacaq növbəti addımlar, eləcə də Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında qurulacaq "yaşıl enerji" dəhlizinin inkişafı ilə bağlı fikirlərini bölüşüb.

"Bu gün birgə müəssisənin təsis sənədlərinin imzalanması ilə layihəmiz yeni mərhələyə qədəm qoyur. Birgə müəssisə - Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti layihənin texniki-iqtisadi əsaslandırmasını maliyyələşdirəcək, TİƏ-nin hazırlanması və icrası proseslərinə nəzarətə məsul, iştirakçı ölkələr tərəfindən həvalə edilmiş tədbirləri həyata keçirən qurum kimi fəaliyyət göstərəcək. "Yaşıl enerji" dəhlizinin əsas resurs mənbəyi olan Azərbaycan Avropa ölkələrinin bərpaolunan enerji sahəsində də əsas tərəfdaşlarından biri olacaq", - deyə nazir bildirib.

Müzakirələrdən sonra Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın sistem operatorları - "Azərenerji", "Gürcüstan Dövlət Elektrosistem", "Transelectrica", MVM - arasında birgə müəssisənin Buxarest şəhərində yaradılmasını nəzərdə tutan "Səhmdar Müqaviləsi", həmçinin iclasın yekunlarına dair Protokol imzalanıb. Birgə müəssisə və İşçi qrupa müəyyən edilmiş müddət ərzində layihənin texniki-iqtisadi əsaslandırmasının tamamlanması üçün məsləhətçi şirkətlə birgə prosesləri sürətləndirmək, nazirlərin növbəti görüşünədək birgə müəssisənin fəaliyyət planının hazırlanması və layihə üzrə biznes modellərlə bağlı məsləhətləşmələrə başlamaq tapşırılıb.

BM-Yaşıl Enerji Dəhlizi Enerji Şirkətinə liderliyin rotasiyaya əsaslanması, həmçinin Fiber-Optik Kabel Xəttinə (FOC) dair tapşırıqların və Bolqarıstanın layihəyə inteqrasiyası ilə bağlı məsələlərin dördtərəfli layihənin texniki-iqtisadi əsaslandırmasında ehtiva edilməsi razılaşdırılıb. Bundan başqa, ümumi və qarşılıqlı maraq doğuran layihələrin (PCI/ PM) ikinci siyahısı ilə əlaqədar 2024-cü ilin sentyabr ayında Avropa Komissiyası tərəfindən başladılmış proses çərçivəsində status üçün kollektiv şəkildə müraciət barədə razılığa gəlinib. COP29 İqlim Liderlərinin Sammiti zamanı layihəyə həsr olunmuş yüksəksəviyyəli tədbirin keçirilməsinə də dəstək ifadə olunub.

Yekunda nazirlərin Buxarest görüşünün nəticələrinə dair brifinq keçirilib.

Qeyd olunub ki, "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanıb.

# Bəşəriyyəti ekoloji fəlakətdən beynəlxalq əməkdaşlıq xilas edə bilər

Bu gün bəşəriyyət "olum və ölüm" dilemması qarşısında qalıb. İnsanın son 200 ildə ətraf mühitə vurduğu ziyanın miqyası o qədər böyükdür ki, artıq onun fəsadları ölçüyəgəlməz səviyyəyə çatıb. O üzdən bəşəriyyət öz əli ilə özünə yaratdığı bu dəhşətli problemi həll etmək məcburiyyətində qalıb.

Ötən əsrin ortalarından bu məsələ yalnız elm adamları tərəfindən gündəmə gətirilirdisə, indi ağlı başında olan hər kəs qarşılaşdığımız bu bəlanın fərqindədir. İndi onun barəsində hər kəs həyəcanla danışır. Artıq ətraf mühitin qorunması siyasətdə də önə çıxıb. Bir çox ölkələrdə fəaliyyət göstərən Yaşıllar partiyasına seçkilərdə səs verənlərin sayı getdikcə artır.

Dünyanın xilasına həsr olunan qlobal tədbir isə cari ilin noyabrında Azərbaycanda keçiriləcək. Ölkəmiz bu dünya əhəmiyyətli tədbirin yüksək səviyyədə keçməsi üçün artıq neçə vaxtdır səylə çalışır. Azərbaycan dövləti COP29-a hazırlıq çərçivəsində əksər ölkələrlə, bu istiqamətdə fəaliyyət göstərən təşkilatlarla əməkdaşlıq edir. 29-cu sessiya ilə bağlı beynəlxalq ekoloji qurumlarla yüksəksəviyyəli tədbirlər keçirilir, qlobal səviyyədə bəşəriyyətə ünvanlanacaq çağırışlar müəyyənləşdirilir.

Bu günlər belə panel tədbirlərdən biri - Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və GLOBSEC2024-ün birgə təşkilatçılığı ilə "COP29 və yaşıl üfüqlər: iqlim dəyişikliyinin idarə edilməsi" mövzusunda keçirilib. "The VONA & The Tide" təhsil və məşvərət platformasının təsisçisi Sofiya Şhevçukun moderatorluğu ilə keçirilən paneldə iqlim dəyişmələrinə qarşı fəaliyyətlərin və dünyada yaşana biləcək arzuolunmaz ssenarilərin qarşısının alınması üçün regionlararası əməkdaşlığın vacibliyi vurğulanıb. Energetika nazirinin müavini və COP29-un baş icraçı direktoru Elnur Soltanov indiyədək ölkəmiz tərəfindən aparılan danışıqlar və görülən işlər barədə məlumat verərək deyib ki, Azərbaycan tərəfindən irəli sürülən 14 təşəbbüsdən 3-ü maliyyə məsələləri ilə bağlıdır, 4-5 bənd isə enerji və "yaşıl" keçid məsələlərini özündə ehtiva edir. E.Soltanov həmçinin əlavə edib ki, COP29 atəşkəs dövrü olacaq: "Bizim COP atəşkəsi kimi ideyamız mövcuddur. Biz hər kəsə atəşkəsə riayət olunması ilə bağlı çağırış edəcəyik. Çünki bir saatlıq olsa da, atəşkəs bizim üçün vacibdir. Müharibələr istixana qazlarının əsas mənbəyidir".

Dünyada iqlim dəyişikliyinin yaratdığı fəsadlardan biri də su çatışmazlığıdır. Bu problemin digər iqlim məsələləri ilə müqayisədə daha çox narahatlıq doğurduğu məlumdur. Su çatışmazlığı kənd təsərrüfatı, ərzaq sistemi, turizm və digər sahələrə də mənfi təsir göstərir. Yeri gəlmişkən qeyd edək ki, İsveçin paytaxtı Stokholmda növbəti illik Beynəlxalq Su Həftəsi keçirilib. Tədbirin yüksəksəviyyəli panelində COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev videoformatda çıxış edərək Azərbaycanın COP29 ilə bağlı prioritetləri və ölkəmizin suyun beynəlxalq iqlim gündəliyində yeri ilə bağlı mövqeyini iştirakçıların nəzərinə çatdırıb.

Stokholm Beynəlxalq Su İnstitutu (SIWI) tərəfindən təşkil edilən həftə çərçivəsində növbəti mühüm müzakirə COP28 sədrliyi, SIWI və COP29 sədrliyi tərəfindən birgə çağırılmış "COP28-dən COP29-a doğru: Su və İqlim fəaliyyəti üçün tərəqqinin əldə edilməsi" başlıqlı yan tədbir çərçivəsində baş tutub. Tədbirdə COP-un Azərbaycan sədrliyi adından çıxış edən Azərbaycanın İsveç Krallığındakı səfiri Zaur Əhmədov COP29-un Su Təşəbbüsü barədə iştirakçılara məlumat verərək beynəlxalq ictimaiyyəti bu təşəbbüsü dəstəkləməyə dəvət edib.

Dünyada iqlim dəyişikliyi nəticəsində son on ildə dünya üzrə dəniz səviyyəsi əvvəlkindən iki dəfədən çox sürətlə qalxıb. Belə dəyişikliklər kiçik ada ölkələrin mövcud olması üçün böyük risk yaradır. Muxtar Babayev "İqlim şəffaflığı sahəsində yüksəksəviyyəli dialoq" mövzusunda keçirilən tədbirdə bu barədə narahatlığını bildirib. Nazir qeyd edib ki, son dövrlər fəlakətlər tez-tez və daha şiddətli baş verir. İqlim hadisələrinin bu cür inkişafı ortaq iqlim məqsədlərinə uyğun hərəkət etməyə ehtiyac olduğunu göstərir. Buna görə də biz COP29-un və iqlim dəyişikliyinə qarşı fəaliyyətimizin uğurlu olması üçün Paris Sazişinin bütün müddəaları üzrə əlimizdən gələni etməliyik. Şəffaflıq bu səylərin əsas hissəsidir, həssas icmalar arasında qlobal iqlim məqsədləri ətrafında etimad yaradılmalıdır. Ötən il tərəflər bir araya gələrək Birləşmiş Ərəb Əmirlikləri Konsensusuna nail oldular. COP29-a doğru irəlilədikcə, 1.5 hədəfinə çatmaq üçün biz işimizi COP28-də yaradılan müsbət ruh və impuls üzərində qurmalıyıq. COP29 Sədrliyi iqlimin maliyyələşdirilməsini əsas götürməklə, ambisiyaları artırmaq və iqlim dəyişikliyi ilə bağlı fəaliyyətə imkan yaradılması məqsədilə uğurlu iqlim danışıqları ili üçün planını paylaşıb. Bütün tərəflərdən gələcək nəsil milli iqlim planlarında öz ambisiyalarını artırmağı xahiş etdiyimiz üçün şəffaflıq vacib olacaq", - deyə M.Babayev bildirib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




◆ Bakı COP29-a hazırlaşır








**- Hər gün səhər buraya idman etməyə gəlirəm. Bu gün isə vacib işlərim olduğundan gəlişim günorta saatlarına düşüb. Elə bil sizi gözləyirmişəm...**

**Əgər fikir vermisinizsə, son illərdə Bakıda salınan əksər parklarda idman qurğuları quraşdırılır. Bu, mənim kimi idmansevərlər üçün çox yaxşı haldır. Təbii ki, zalda da idman edirəm. Amma havalar isinəndə açıq havada, yaşıllıq olan yerlərdə məşq etmək daha yaxşı təsir edir insana...**

**Bakı sakini Samir Qurbanovla həmsöhbət olduğumuz məkan paytaxtımızda Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Paşanın adını daşıyan Atatürk parkıdır.**

# İdmanın və istirahətin "yaşıl məkan"ı

Burada müşahidə apardığımızı və fotolar çəkdiyimizi görən Samir Qurbanovun bizi görüb yaxınlaşaraq söhbətə başlaması ilə fərqinə varırıq ki, gəzə-gəzə parkın idman qurğularının quraşdırıldığı əraziyə gəlib çıxmışıq.

Sevindirici hal isə o idi ki, uşaqdan-yaşlıya hər kəs bu qurğularda idman edirdi. Elə paytaxt sakini ağsaqqal Cavad dayı da söhbətə qoşularaq "yaşıma baxmayın, mən də tez-tez burada idman etməyə gəlirəm. Nəvələrimlə parka gəzməyə çıxanda fürsətdən istifadə edib sağlamlığımın qeydinə qalıram" deyir.

## Sakinlərin də, qonaqların da razılıq etdiyi istirahət mərkəzi

Sakinlərin razılıq etdiyi, Bakının növbəti "yaşıl məkan"ı olan Atatürk parkı "Gənclik" metrostansiyasının yaxınlığından başlayıb Atatürk prospekti boyunca uzanır. Bura paytaxtın ən çox ziyarət edilən məkanlarından biridir.

Nərimanov rayonunda yerləşən bu parkda əsaslı yenidənqurma işləri 2019-cu ildə həyata keçirilib. Həmin vaxta qədər parkdakı şərait ərazidə yaşayanları, burada istirahət edənləri qane etmirdi. Sakinlər asudə vaxtlarını keçirmək üçün başqa ərazilərdə yerləşən yaşıllıq sahələrinə üz tutmalı olurdular. Odur ki, Prezidentin tapşırığı ilə Atatürk parkının tam şəkildə yenidən qurulması, abadlaşdırılması ilə əlaqədar layihə sənədləri hazırlandı. Həmin layihə əsasında park ən müasir standartlara uyğun yenidən qurularaq sakinlərin, qonaqların istifadəsinə verildi.

Onu da qeyd edək ki, Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün paytaxtda görülən abadlıq işləri, yeni parkların, meşə massivlərinin, xiyabanların salınması, yenidən qurulması istiqamətində görülən işlər Prezident İlham Əliyevin birbaşa nəzarətindədir. Dövlət başçısının təşəbbüsü ilə yaradılan və ya onun tapşırıqlarına əsasən əsaslı təmir olunan sosial obyektlərin, ictimai yerlərin, bağların, parkların açılışlarında şəxsən iştirakı, təmir-bərpa işlərindən sonra yeni vəziyyətlə yerində tanış olması bunun bariz nümunəsidir.





Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2019-cu il oktyabrın 1-də Atatürk parkındakı əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdular.

Yenidənqurma işləri nəticəsində parkın landşaft dizaynı yenilənib. Parkı gəzdikcə hər yaş qrupuna uyğun müvafiq işlər görüldüyünü müşahidə edirik. Bu, çox vacib məqamdır. Elə bu baxımdan park kiçikdən-böyüyə hər kəsin istirahət etmək üçün sevərək üz tutduğu "yaşıl məkan"lardan biridir.

## Tutuquşuların "yaşıl məkan"ı

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə şəhər mühitinə aid olan heyvan növlərinin mühafizəsi istiqamətində geniş tədbirlər həyata keçirilir. Əsaslı təmirdən sonra Atatürk parkına tutuquşular da buraxılıb. IDEA-nın "Urban Ecology" ("Şəhər ekologiyası") layihəsi çərçivəsində parkda məskunlaşdırılmış 10 yaxalıqlı tutuquşu da Bakı şəhərinin iqlim şəraitində yaşaya və çoxala bilən növdür.

"Urban Ecology" layihəsi çərçivəsində Bakı və onun ətrafındakı ictimai yerlər şəhər mühitində rahat yaşayıb çoxala bilən heyvan və quş növləri ilə zənginləşdirilir, eləcə də bu növlərin qorunub saxlanması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.





Təbii ki, bu parkın da ən rəngarəng yeri gülüş səslərinin eşidildiyi balaca sakinlər üçün nəzərdə tutulan guşədir. Uşaq əyləncə hissəsində valideynləri, nənə-babaları ilə parka gələn  uşaqların sevincinin həddi-hüdudu yoxdur.

Nəvəsi ilə parkda istirahət edən Sənubər nənə də burada yaradılan şəraitdən razılıq edir. Bildirir ki, yaşayış yerlərinə yaxın ərazilərdə belə istirahət yerlərinin, bağların olması çox yaxşı haldır. Şəhərdə ağaclığın, yaşıllığın olması vacibdir. Görürsüz, bu saatlarda belə evdə dinc qalmayan dəcəllərlə çölə çıxanda kölgəlik tapıb sərinlənə bilirik".

Parkda olduğumuz müddətdə müşahidələrimiz əsasında asudə vaxt keçirənlərin məmnun olduqlarını hiss edirik. Elə biz də ziyarətçilərdən biri olaraq buradakı halımızdan məmnun idik.

## 7 mindən çox bitkinin yer aldığı park

Parka ziyarətçi axınını təmin edən əsas məqam isə təbii ki, buradakı yaşıllıqlardır. Gündən-günə gözəlləşən, "yaşıl şəhər"ə çevrilən Bakının "yaşıl məkan"larından olan 6,5 hektar sahəyə malik parkda 7 mindən çox həm xarici, həm də yerli mənşəli bitki var ki, onlar da günəşin qızmar şüalarından parka üz tutanları qoruyur və insanların kölgəlikdə istirahətini təmin edir.

Ağacların, bitkilərin qorunması üçün yenidənqurma işləri zamanı yaşıllıqların vaxtlı-vaxtında suvarılması məqsədilə su təminatı da unudulmayıb. Belə ki, parkın su təchizatını təmin etmək üçün 4 subartezian quyusu qazılıb, 3 yerdə yeraltı çən qoyularaq suvarma üçün nasos məntəqələri tikilib. Əsaslı təmir işləri nəticəsində park yeni avtomatik suvarma sistemi ilə təchiz edilib.

Parkda həmçinin xüsusi günlərdə bayram tədbirlərinin təşkili, konsertlərin keçirilməsi də nəzərə alınaraq ayrıca meydança salınıb.

Qeyd edək ki, paytaxt Bakının beynəlxalq əhəmiyyətli COP29-a evsahibliyi edəcəyi ərəfədə şəhərdəki digər parklar və bağlardakı kimi burada da ehtiyac yaranan bəzi təmir-bərpa, abadlıq işləri görülür.

Bakının "yaşıl məkan"ları ilə bir-bir yaxından tanış olduqca görürük ki, paytaxtımız həqiqətən də bağlar və parklar şəhərinə çevrilir. Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, icra olunan layihələr nəticəsində Bakı daha da abadlaşır, müasirləşir və yenilənərək gözəlləşir. Bütün bunlar paytaxtın gözəlliyi, abadlığı ilə yanaşı, həm də vətəndaşların rahatlığı üçündür. Ölkə rəhbərinin də qeyd etdiyi kimi, Bakının hər bir guşəsi abad, gözəl olmalıdır. Vətəndaşlar üçün çox gözəl imkanlar yaradılmalıdır.

Biz isə parkın əvvəlki vəziyyətini gözlərimiz önündə canlandırıb bugünkü vəziyyəti  ilə müqayisə etməyə çalışırıq. Getdiyimiz daha neçə-neçə "yaşıl məkan"ları bir daha xatırlayırıq.

*Elə bu əsnada Prezidentin Atatürk parkında görülən işlərlə tanış olduğu vaxtda sakinlərlə görüşündə onlardan birinin görülən işlərin onda yaratdığı təəssüratla bağlı işlətdiyi bənzətməni artıq başa düşürük - Bakı dünyanın gözmuncuğudur...*

***Əsmər QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***
















# "Yuxarı Vəng" SES-də il ərzində 66 milyon kilovat-saatadək "yaşıl enerji" istehsal olunacaq

Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində strategiyasına uyğun olaraq, "Azərenerji" ASC tərəfindən bu günədək Qarabağ və Şərqi Zəngəzurda 32 yerdə su-elektrik stansiyaları tikilib.

Kəlbəcərdə yeni tikilən "Yuxarı Vəng" Su-Elektrik Stansiyası Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyidir. Gücü 22,5 MVt olan bu SES-də istehsal edilən "yaşıl enerji" növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisi tələbatını tam ödəyə bilər. Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında "Azərenerji" ASC-nin İctimaiyyətlə əlaqələr mərkəzinin rəisi Teymur Abdullayev deyib.



"Kəlbəcər" Su-Elektrik stansiyaları silsiləsinə daxil olan "Yuxarı Vəng" SES-ə su iki mənbədən - "Nadirxanlı" SES-in çıxışı və Tutqu çayı üzərində inşa edilmiş baş suqəbuledici qurğudan daxil olur. Su-elektrik stansiyasının ekoloji normaların qorunması şərti ilə 1100 metr yüksəklikdə tikilən baş suqəbuledici qurğusunun eni 26 metr, uzunluğu isə 33 metrdir. Enerji istehsalı, eyni zamanda daşqınların qarşısının alınması üçün böyük əhəmiyyətə malik olan baş suqəbuledici qurğudan stansiyaya suyu ötürmək üçün çətin relyefdə 6824 metr uzunluğunda 2400 millimetr diametrli derivasiya borusu çəkilib. Avropa istehsalı olan turbin, generator və digər avadanlıqlarla təchiz edilən stansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib və 24 damarlı optik kabel xətti çəkilib. Bununla da stansiya ölkə enerjisisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunmaqla yanaşı, ən müasir rəqəmsal idarəetmə sistemləri ilə təchiz olunub və burada lazımi kibertəhlükəsizlik tədbirləri görülüb.

Teymur Abdullayev bildirib ki, layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırma işlərində ətraf mühit amilləri nəzərə alınıb. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğular layihələndirilərək tikilib. Quraşdırılmış hidroaqreqatlar zərərli maddələrin suya qarışmasının qarşısını almaqla yanaşı, onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən aşağı axarda yenidən çaya qaytarır.

Ətraf mühitə dost texnoloji avadanlıqlardan istifadə çay ekosisteminin dayanıqlığını təmin etməklə yanaşı, aşağı axım zonasının su təminatı, eyni zamanda məcraaltı su ehtiyatının formalaşmasına öz töhfəsini verir.

Qeyd edək ki, layihə "Azərenerji" ASC-nin Energetika İnstitutu tərəfindən hazırlanıb. Yenidənqurma işləri çərçivəsində hidroturbin, hidrogeneratorlar və köməkçi avadanlığın quraşdırılmasında yerli mütəxəssislərlə yanaşı, Avstriyanın "Gugler", İtaliyanın "MorelliMotory" şirkətlərinin mütəxəssisləri də iştirak ediblər.

"Yuxarı Vəng" SES-də il ərzində 66 milyon kilovat-saatadək "yaşıl enerji"nin istehsal olunması nəzərdə tutulur ki, bu da 15 milyon kubmetr təbii qaza qənaət edilməsi, 27 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir. Qeyd edilənlər nəzərə alınmaqla "Yuxarı Vəng" Su-Elektrik Stansiyasının tikintisi və fəaliyyətə başlaması üçün qoyulan kapital xərcləri layihənin səmərəliliyi sayəsində 7 ildən az müddətdə tamamilə geri qaytarılacaq ki, bu da layihənin yüksəkgəlirli və iqtisadi cəhətdən əlverişli olduğunu göstərir.

Bu layihə BMT-nin iqlim dəyişikliyi ilə mübarizə və "yaşıl enerji"yə keçidin sürətləndirilməsi baxımından əhəmiyyətlidir. "Yuxarı Vəng" SES "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən əhəmiyyətli təşəbbüslərdən biri olmaqla, Azərbaycanın enerji sektoru ilə bağlı beynəlxalq səviyyədə qəbul edilən ekoloji standartlara uyğun icra edilmiş və ölkəmizin "yaşıl enerji" inkişafına sadiqliyini göstərən bir nümunədir.

Stansiya regionun enerji, iqtisadi və ekoloji inkişafına töhfə verməklə bərabər, əhalinin məşğulluğu baxımından da mühüm rol oynayır və burada məhz Kəlbəcər rayonunun sakinlərinin işlə təmin olunması nəzərdə tutulur.

Ölkəmizdə ilk dəfə Qarabağ və Şərqi Zəngəzur ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı regiona çevrilib və elektrik enerjisi tələbatı tam həcmdə "yaşıl enerji" hesabına təmin edilir. Artıq qalan enerji ölkə enerjisisteminə ötürülür, bu da regional enerji müstəqilliyini artırır və ətraf mühitin qorunmasına töhfə verir.

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda Tərtər çayı üzərində yerləşən "Azərenerji" ASC-nin 22,5 MVt gücündə "Yuxarı Vəng" Su-Elektrik Stansiyasının açılışında iştirak ediblər.

# Azərbaycanla Belarus arasında ticarət dövriyyəsi 29 faizə yaxın artıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov Belarusun xarici işlər nazirinin müavini İqor Nazaruk ilə görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə yüksəksəviyyəli qarşılıqlı səfərlərin, keçirilən birgə tədbirlərin, imzalanan sənədlərin ölkələrimiz arasında münasibətlərin inkişafına təkan verdiyi vurğulanıb.

Qeyd edilib ki, əlaqələrin intensivləşməsi, eyni zamanda iqtisadi əməkdaşlığımızın genişlənməsinə möhkəm zəmin yaradır. Belarusla iqtisadi-ticarət əlaqələri də güclənir. 2024-cü ilin yanvar-iyul aylarında ölkələrimiz arasında ticarət dövriyyəsi 29 faizə yaxın artıb. Görüş zamanı Azərbaycanın əlverişli işgüzar mühiti barədə məlumat verilib, müxtəlif iqtisadi istiqamətlər üzrə, həmçinin Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərində tərəfdaşlığın genişləndirilməsi üçün böyük imkanlar olduğu diqqətə çatdırılıb. Tərəflər əlaqələrin möhkəmləndirilməsi məqsədilə imzalanmış sənədlərin icrası, ticarət, investisiya, aqrar-sənaye sahələrində əməkdaşlığın genişləndirilməsi və birgə istehsal müəssisələrinin yaradılması imkanlarını müzakirə ediblər.

# Bled Strateji Forumunda Azərbaycanın Avropa ölkələrinin enerji təhlükəsizliyinə verdiyi töhfədən danışılıb

Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Sloveniyada keçirilən Bled Strateji Forumunda iştirak etmək məqsədilə avqustun 31-dən sentyabrın 3-dək bu ölkədə işgüzar səfərdə olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, forum çərçivəsində qlobal iqtisadiyyat mövzusuna həsr olunmuş paneldə çıxış edən F.Rzayev dövlətimizin həyata keçirdiyi irimiqyaslı enerji layihələri, Avropa ölkələrinin enerji təhlükəsizliyinə verdiyi töhfə barədə məlumat verib, beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması və fəaliyyəti sahəsində oynadığı vacib rol barədə danışıb.

Azərbaycanın bu fəaliyyətinin Cənubi Qafqaz regionunun təhlükəsiz, firavan və inkişaf etmiş bir məkana çevrilməsi baxımından xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Səfər çərçivəsində həmçinin Sloveniyanın Xarici İşlər Nazirliyində dövlət katibi Marko Ştuçin ilə keçirilmiş görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli əməkdaşlığın gündəliyində duran aktual məsələlər, o cümlədən iki ölkə arasında siyasi dialoqun intensivləşdirilməsi, iqtisadiyyat və s. sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Bu xüsusda, əlaqələrin daha da genişlənməsi istiqamətində mövcud potensialdan istifadənin zəruriliyi qeyd edilib.

F.Rzayev postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi və Ermənistanın qeyri-konstruktiv mövqeyi barədə qarşı tərəfi məlumatlandırıb.

# Azərbaycandan Dubaya turist axını xeyli artıb

Ötən ilin yayında Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında viza rejiminin ləğv edilməsi iki ölkə arasında turizmin inkişafına faydalı təsir göstərib. Xüsusilə təkcə 2023-cü ildə Azərbaycandan Dubaya turist axını 2022-ci illə müqayisədə 69 faiz artıb. Bu barədə Dubay İqtisadiyyat və Turizm Departamentinin Bakıda təşkil etdiyi tədbirdə deyilib.



Dubayın İqtisadiyyat və Turizm Departamentinin Asiya-Sakit Okean regionunda beynəlxalq əməliyyatlar üzrə regional direktoru Şahab Şayan AZƏRTAC-a bildirib ki, bu tendensiya 2024-cü ildə də davam edəcək: bu ilin ilk altı ayında Azərbaycandan gələn turistlərin sayı 2023-cü ilin eyni dövrü ilə müqayisədə 62 faiz artıb, bu da Dubayın artan cəlbediciliyindən xəbər verir. Dubay və Bakı arasında birbaşa uçuşların mövcud olması şəhərlər arasında əlaqələri daha da gücləndirir.



Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əməkdaşlığı gücləndirir və bu, turizm seqmentində də baş verir: "Azərbaycan Dubay üçün getdikcə perspektivli bazara çevrilir və biz bu prosesin şahidi olmaqdan şadıq. Bu irəliləyiş regionlar arasında əlaqələrin güclənməsini və Dubayın aparıcı turizm istiqaməti kimi statusunu təsdiqləyir. Biz turizm infrastrukturunu daim təkmilləşdirir və Azərbaycandan olan səyahətçilər üçün istirahəti unudulmaz, rahat və təhlükəsiz etmək üçün unikal təəssüratlar təklif edirik".

Onun sözlərinə görə, Dubaya beynəlxalq turist axını da artmaqda davam edir. 2023-cü il rekord il oldu - əmirlik 17,15 milyon xarici turist qəbul edib. Turizm artımı 2024-cü ildə də davam edib: yanvar-iyun aylarında 9,31 milyon beynəlxalq turist Dubayı ziyarət edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9 faiz çoxdur. Azərbaycandan və dünyanın hər yerindən gələn turistləri Dubayda tarixi və mədəni yerləri ziyarət etmək imkanı cəlb edir. Dubayın şərq koloriti ilə zəngin bazarları da turistlərdə eyni dərəcədə maraq doğurur.

BƏƏ-də kruiz turizmi sektoru da fəal inkişaf edir. Hazırda Dubaya 8 kruiz marşrutu təklif edən 8 kruiz layneri gəlir. Onlardan biri turistlər üçün çox cəlbedici olan BƏƏ ətrafında kruiz təklif edir.

Qeyd etmək lazımdır ki, Dubayın yüksək nailiyyətləri beynəlxalq səviyyədə tanınıb: 2024-cü ilin əvvəlində şəhər ardıcıl üçüncü dəfə "Tripadvisor Travellers' Choice Awards" tərəfindən tərtib edilən ən yaxşı turizm istiqamətləri siyahısında birinci yerdə qərarlaşıb.

Dubay dünyanın hər yerindən turistləri cəlb edən müxtəlif tədbirlərin keçirilməsi və yeni görməli yerlərinin açılması sayəsində də qlobal istirahət və əyləncə məkanı kimi etibarını gücləndirməyə davam edir.

Ən son əlamətdar hadisələrdən biri də "Dubai Parks and Resorts"da yerləşən və məşhur futbol klubunun himayəsi altında fəaliyyət göstərən bir növ ilk olan "Real Madrid World" əyləncə parkının açılışı olub. Bu, ötən ilin oktyabrında DET və Real Madrid arasında imzalanmış, hər iki təşkilatın inkişafı üçün yeni perspektivlər açan və 2033-cü ilə qədər ölkənin ÜDM-ni ikiqat artırmağı hədəfləyən Dubay İqtisadi Proqramını (D33) dəstəkləyən uzunmüddətli saziş sayəsində mümkün olmuşdur.

# Baş Prokurorluğun nümayəndə heyəti Türkiyə Respublikasında səfərdə olub

Sentyabrın 2-də Azərbaycan Respublikası baş prokurorunun müavini Heydər Məmmədov və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini Anar Nəsibovdan ibarət nümayəndə heyəti qardaş Türkiyə Respublikasının Ankara şəhərində "2024-2025 Yeni Ədliyyə İli Açılış Tədbiri"ndə iştirak ediblər.



Mərasimdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Ali Məhkəmənin sədri Ömer Kerkez, Baş prokuroru Muhsin Şentürk, digər hakim və prokurorlar iştirak ediblər. Tədbir çərçivəsində Prezident Rəcəb Tayyib Ərdoğan prokurorluğun nümayəndə heyətinin rəhbəri Heydər Məmmədovu və eyni zamanda tədbirdə iştirak edən Ali Məhkəmənin nümayəndə heyətinin rəhbəri, həmin məhkəmənin sədr müavini Çingiz Əsgərovu qəbul edib.

Daha sonra prokurorluğun nümayəndə heyəti Türkiyə Respublikasının Baş prokuroru Muhsin Şentürk və Ali Məhkəmənin sədri Ömer Kerkezlə rəsmi görüşlər keçirib, ölkələrimiz arasında hüquqi əməkdaşlığın daha da inkişaf etdirilməsi, təcrübə mübadiləsinin intensivləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb.

Görüşlər zamanı 29 sentyabr - 2 oktyabr tarixlərində Bakı şəhərində keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağı barədə həmkarlara məlumat verilib, tədbirə qatılacaq Türkiyə Respublikasının Baş prokuroru Muhsin Şentürklə konfrans barədə müzakirələr aparılıb. Həmçinin noyabr ayında Bakı şəhərində keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 tədbirinin müstəsna tarixi əhəmiyyəti və həmin mötəbər tədbir çərçivəsində Baş Prokurorluq tərəfindən İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi mövzusunda yüksəksəviyyəli plenar sessiyanın keçiriləcəyi barədə həmkarlara ətraflı məlumat verilib.



# Türkiyədən olan mütəxəssislər və FAO-nun nümayəndələri AQTİ-də olublar

Bitki sağlamlığı üzrə Türkiyə Respublikasından olan mütəxəssislər və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin təmsilçiləri FAO-Türkiyə Tərəfdaşlıq Proqramı (FTPP II) çərçivəsində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda (AQTİ) olublar.




İnstitutun İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, AQTİ-də təşkil edilən görüşdə qonaqlara institutun fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, ölkədə qida təhlükəsizliyinin təmin olunması və əhalinin sağlamlığının qorunması məqsədilə AQTİ-nin nəzdində qida təhlükəsizliyi, kompleks tədqiqatlar, bitki və heyvan sağlamlığı üzrə ixtisaslaşmış laboratoriyalar fəaliyyət göstərir. Laboratoriyalarda müxtəlif qida məhsullarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə müayinələri aparılır.

Həmçinin görüş zamanı Azərbaycanın FTPP II-də iştirakı çərçivəsində böhran vəziyyətlərdə bitki sağlamlığının qiymətləndirilməsi, xəbərdarlıq prosedurlarının və fövqəladə hallara cavab tədbirlərinin formalaşdırılması ilə bağlı məsələlər müzakirə olunub. İki ölkənin müvafiq qurumları arasında təcrübə mübadiləsinin aparılması və digər məsələlər üzrə əməkdaşlığın genişləndirilməsinin zəruri olduğu vurğulanıb, mövcud imkanlar nəzərdən keçirilib, təkliflər irəli sürülüb. Görüşdən sonra qonaqlar iş prinsipini öyrənmək məqsədilə institutun Mərkəzi Fitosanitar Laboratoriyasına baxış keçiriblər. Onlar laborator sınaqların həyata keçirildiyi otaqlara baş çəkib, sınaqların aparılması prosesini izləyib, cihaz və avadanlıqlara baxıblar. Eyni zamanda qonaqlar bitki və bitkiçilik məhsullarında karantin ekspertiza və molekulyar bioloji müayinə üsulları ilə tanış olub, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# AQTA-da Belarus nümayəndə heyəti ilə görüş keçirilib

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində (AQTA) Belarus Respublikasından olan nümayəndə heyəti ilə görüş keçirilib.



Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı AQTA sədrinin müavini Zəkiyyə Mustafayeva Belarusun kənd təsərrüfatı nazirinin birinci müavini Fedçenko Sergey Aleksandroviçin rəhbərlik etdiyi nümayəndə heyətinə ölkəmizdə qida təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işlər, həmçinin bu istiqamətdə beynəlxalq təşkilatlar və xarici ölkələrlə əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlər barədə məlumat verib. Sonra hər iki ölkənin müvafiq qurumları arasında əməkdaşlığın gücləndirilməsi, o cümlədən qida məhsullarının dövriyyəsinin genişləndirilməsi müzakirə edilib, idxal və ixrac üzrə statistik göstəricilər nəzərdən keçirilib, Azərbaycanda baytarlıq preparatlarının birgə istehsalı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olunub. Eyni zamanda Belarusda quş, quş əti və yumurta emal, həmçinin istehsal edən qida obyektlərinin təsdiq sisteminin ekvivalentliyinin tanınması prosesinə toxunulub, bu istiqamətdə qarşıda duran məsələlər müzakirə olunub.

Sonda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İŞİMİZ, GÜZƏRANIMIZ

# Qarlı dağların isti suyu

## Kəlbəcərin bir vaxtlar keçmiş SSRİ-də məşhur olmuş müalicəvi "İstisu"yu tezliklə bütün dünyaya səs salacaq

**Hər birimiz işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı abadlıq və quruculuq işlərinin canlı şahidiyik. Qısa zaman kəsiyində həyata keçirilən yenidənqurmanın, dirçəlişin miqyası həqiqətən də heyrətamizdir. Heyrətamiz olan bir də həmin tədbirlərin gündən-günə sürətlənməsidir.**

30 ilə yaxın müddətdə erməni vəhşiliyinin qurbanına çevrilən, dağıdılan, yerlə yeksan edilən kəndlər, şəhərlər gözümüzün qarşısında bərpa olunur, öz tarixi sakinlərini qəbul edir. Cəmi 4 il müddətinə onlarca yeni, modern üslubda yaşayış məntəqələri salınıb, infrastruktur qurulub, yollar çəkilib, dağıdılan dini, tarixi abidələrimiz bərpa edilib. Bütün bu işlər Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində reallaşdırılır.

Böyük qayıdışın ilk addımı Zəfər yolu adlanan Şuşa-Füzuli avtomobil yolunun tikintisindən başladı. Təməli 2020-ci ilin noyabrında qoyulan Zəfər yolunun açılışı Prezident tərəfindən bir il sonra noyabrın 7-də edildi. Zəfər yoluna Böyük qayıdışın qaranquşu da demək olar. 90 kilometrlik yol ilk gündən ətraf rayonların və Şuşa şəhərinin yenidən qurulmasına şərait yaradır, regiona yeni həyatın, yeni nəfəsin gəlməsini təmin edir. İndi Zəfər yolu təkcə savaş yox, həm də quruculuq meydanındakı qələbələrin simvoludur.

Elə buradaca Kəlbəcər rayonunun Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisini qeyd edək. Yolda artıq bir sıra işlər tamamlanıb.



Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva sentyabrın 2-də Kəlbəcərə səfər edərkən adıçəkilən avtomobil yolu çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış olublar.

Sənaye parkları, elektrik stansiyaları regionun iqtisadi imkanlarını daha da genişləndirmək üçün əlverişli şərait yaradıb. Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları tam gücü ilə fəaliyyətə başlayandan sonra Qarabağın və Şərqi Zəngəzurun iqtisadi mərkəzləri olacaqlar. Ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək su-elektrik stansiyalarının tikintisi də davam edir və onların bir neçəsində işlər artıq tamamlanıb. Bu ilin sonuna kimi Qarabağda və Şərqi Zəngəzurda 12 stansiyanın istismara verilməsi nəzərdə tutulub. Onu da qeyd edək ki, Azərbaycanın enerji sistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik enerjisinə tələbatı tamamilə "yaşıl enerji" hesabına təmin olunur. Bir müddət əvvəl Laçında "Zabux" və "Qarıqışlaq" kiçik su-elektrik stansiyaları (KSES) fəaliyyətə başlayıb. Məlumat üçün bildirək ki, "Zabux" KSES 2,8 MVt, "Qarıqışlaq" KSES 4 MVt gücündədir. İl ərzində "Zabux" KSES-də 8-9 milyon, "Qarıqışlaq" KSES-də isə 11-12 milyon kilovatsaat "yaşıl enerji" istehsal olunacaq.

Prezident İlham Əliyevin infrastruktur obyektlərinin açılışında şəxsən iştirak etməsi həmin müəssisələrin vacibliyindən xəbər verir. Dövlət başçısının sentyabrın 2-də Kəlbəcər rayonunun İstisu qəsəbəsində "Azərişıq" ASC-nin 110/35 kV-luq "İstisu" yarımstansiyasının açılışında iştirak etməsi də Qarabağın və Şərqi Zəngəzurun bərpasının ən yüksək səviyyədə diqqətdə olmasını göstərir. Kəlbəcər rayonunda iki il öncə təməli Prezident İlham Əliyev tərəfindən qoyulan "İstisu" sanatoriyasının və "İstisu" mineral su zavodunun elektrik təchizatı məqsədilə 110/35 kV-luq 40 MVA gücündə "İstisu" yarımstansiyası inşa edilib. Bu yarımstansiya 110/35 kV-luq "Kəlbəcər" yarımstansiyasından çəkilən 110 kV-luq ikidövrəli hava xətti vasitəsilə elektrik enerjisi ilə təmin olunur. Prezident hələ təməlqoyma mərasimində çıxış edərkən demişdi: "Biz qurub-yaradan xalqıq. Biz gəlmişik, tamamilə dağılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qururuq. Artıq yeni həyatın təzahürləri görünməkdədir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir".

Bu gün Kəlbəcərdə tikilib istifadəyə verilən "İstisu" mineral su zavodu bölgənin gələcək inkişafında böyük rol oynayacaq. Bu müəssisə uzun illər Kəlbəcərin müstəsna keyfiyyəti və sağlamlığa faydaları ilə tanınan termal su yatağından çıxan eyniadlı suyu illər sonra yenidən istehlakçılara çatdıracaq. Zavodda istehsal olunan su həm keyfiyyəti, həm də qablaşdırılmasına görə müasir standartlara cavab verir. Kəlbəcərin "İstisu"yu natrium bikarbonat və sulfatla zəngindir. Tərkibində olan kalsium, maqnezium, bikarbonat, sulfat və digər faydalı elementlərin orqanizmə müsbət təsiri var. Müəssisənin açılışında iştirak edən Prezidentə məlumat verildi ki, zavod ikinövbəli iş rejimində fəaliyyət göstərəcək. Burada təxminən 100 nəfər işlə təmin ediləcək. İşçilərin əksəriyyəti Kəlbəcər və Laçın rayonlarının sakinləri olacaqlar.

"İstisu" Müalicə-İstirahət Kompleksi bu gün Şərqi Zəngəzurda tikinti və bərpa-quruculuq işləri baxımından çox gərəkli bir müəssisədir. Məlumat üçün bildirək ki, 1927-ci ildə fəaliyyətə başlayan eyniadlı sanatoriya SSRİ-də ikinci böyük kurort kompleksi hesab edilirdi. O zamanlar kompleksin ərazisində 3 yataq korpusu, müalicəvi vanna xidməti binası, poliklinika korpusu fəaliyyət göstərirdi və ildə 50 min nəfəri qəbul etmək imkanı var idi. Yenidən bərpa edilən "İstisu" Müalicə-İstirahət Kompleksinin isə ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq. Kompleksdəki SPA Mərkəzində termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları, gözəllik salonu mövcud olacaq. Burada müxtəlif iaşə obyektləri - restoranlar, uşaq əyləncə mərkəzi, oyun otağı, sportskafe, karaoke otağı və kafeteriya qonaqlara xidmət göstərəcək.

Müəssisədə görülən işlərlə tanış olan Prezidentə və Birinci vitse-prezidentə məlumat verildi ki, "Aşağı İstisu" mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Aparılan analizlər və balneoloji rəylərə əsasən, "İstisu" təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# ARDNF "Şahdəniz" və AÇG-dən əldə etdiyi gəlirlərini açıqlayıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ilin əvvəlindən sentyabrın 1-dək "Şahdəniz" yatağından (qaz və kondensat) 364,465 milyon dollar gəlir əldə edib.**




Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaydığı məlumata görə, "Şahdəniz" yatağı üzrə gəlirlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 dəfə azalıb. O cümlədən "Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər hesabat dövründə 56 faiz azalaraq 113,878 milyon dollar təşkil edib.

ARDNF-nin digər məlumatında isə bildirlir ki, fondun cari ilin yanvar-avqust ayları ərzində "Azəri-Çıraq-Günəşli" (AÇG) yataq bloku üzrə gəlirləri 9,6 faiz azalıb.

AÇG yatağından bu ilin əvvəlindən sentyabrın 1-i tarixinə 4 milyard 271,6 milyon dollar gəlir əldə olunub. Məlumat üçün bildirək ki, ötən ilin müvafiq dövründə AÇG yatağından 4 milyard 728 milyon dollar gəlir əldə edilmişdi.

# Bakı hava limanının xidmət göstərdiyi sərnişin sayı 33 faizdən çox artıb

**Heydər Əliyev Beynəlxalq Aeroportunda yanvar-avqust aylarında 5,038 milyondan çox sərnişinə xidmət göstərilib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 33,2 faiz çoxdur.**

Hava limanından AZƏRTAC-a bildirilib ki, ötən ilin 8 ayında xidmət göstərilən sərnişinlərin sayı 3,781 milyon nəfər təşkil edib.

Bu ilin avqust ayı hava limanının tarixində ən intensiv ay olub. Bu ay ərzində sərnişin axını 827 min nəfəri keçib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 23 faiz artım deməkdir. Orta hesabla avqust ayında gündəlik təxminən 26 700 sərnişinə xidmət göstərilib.

Qeyd edək ki, bu artım Bakı aeroportunun infrastrukturunun genişləndirilməsi və sərnişinlərə daha çox reys və istiqamətlərin təklif olunmasının nəticəsidir. Heydər Əliyev Beynəlxalq Aeroportu regionun əsas hava qovşağı olaraq yüksəksəviyyəli xidmətin və sərnişinlər üçün rahatlığın təmin edilməsi istiqamətində işlərini davam etdirir.

# DOST RİM ABŞ-də keçirilən müsabiqədə mükafata layiq görülüb

## Naxçıvan MR-də də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi yaradılacaq

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) ABŞ-də keçirilən "2024 Stevie®? Awards for Technology Excellence" müsabiqəsində növbəti uğuruna imza atıb.**

Mərkəzin sosial sahədə xidmətlərin rəqəmsallaşdırılması istiqamətində gördüyü işlər və əldə etdiyi nailiyyətlər münsiflər heyəti tərəfindən yüksək qiymət alıb.

Beləliklə, DOST RİM 20-dən çox ölkədən 600-dən artıq layihənin təqdim edildiyi müsabiqədə "Dövlət Texnologiyaları" kateqoriyası üzrə "İlin Texnologiya Komandası" mükafatına layiq görülüb və müsabiqənin saytındakı qaliblər siyahısında yer alıb (https://stevies-tech.secure-platform.com/site/page/the-awards/2024-stevie-winners)

"Stevie®? Awards" müsabiqəsi 2002-ci ildə təsis edilib və texnologiya sahəsində yüksək standartları, mükəmməlliyi təşviq etmək və texnologiyanın gələcəyini formalaşdıran fərdləri, komandaları və qurumları üzə çıxararaq beynəlxalq səviyyədə tanıtmaq məqsədi daşıyır.

Nazirliyin DOST-la bağlı yaydığı başqa bir xəbərdə bildirilir ki, Naxçıvan Muxtar Respublikasında da DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılması nəzərdə tutulur. Yaxın günlərdə mərkəzin layihələndirilməsi işlərinə başlanacaq.

İlk belə mərkəz 2021-ci ilin oktyabr ayında Bakıda açılıb və Cənubi Qafqazda ilk və ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəzdə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsinə, onların cəmiyyətə inteqrasiyasına dəstək işləri aparılır.

Naxçıvanda yaradılacaq DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi də muxtar respublikada yaşayan əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri və digər həssas qruplara aid şəxslərin istedad və bacarıqlarının təkmilləşdirilməsinə, onların sosial inteqrasiya imkanlarının artırılmasına dəstək göstərəcək.

# Dünya birjalarında neftin qiyməti müxtəlif istiqamətlərdə dəyişib



**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neftin qiyməti müxtəlif istiqamətlərdə dəyişib.**

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,14 dollar azalaraq 77,38 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,54 dollar artaraq 74,09 dollar təşkil edib.

"Əsrin müqaviləsi" - 30

# AÇG təkcə neftlə zəngin deyil...

## İndiyədək bu yataqlar blokundan Azərbaycana təqribən 57 milyard kubmetr səmt qazı təhvil verilib

**Neft yataqlarının eyni zamanda səmt qazı, qaz yataqlarının isə mavi yanacaqla birlikdə kondensat - yüksəkkeyfiyyətli neftlə "yarışa biləcək" yanacaq verməsini təbiətin səxavəti, bəlkə də möcüzəsi adlandırmaq olar. Bu zənginlikdən Azərbaycanın karbohidrogen yataqlarına da bol pay düşüb. Əlbəttə ki, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku bu sırada öndədir.**

AÇG neft yataqlarından indiyədək milyardlarla kubmetr səmt qazı da hasil edilib. Mavi yanacağın böyük hissəsi təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilib. Belə ki, səmt qazı dənizdən sualtı xətlərlə Səngəçal terminalına çatdırılır. Buradan isə SOCAR-a məxsus olan kəmərlə "Azəriqaz" sisteminə ötürülür. Qazın qalan hissəsi yataqlarda layların təzyiqini saxlamaq üçün yenidən kollektora vurulur.

"Əsrin müqaviləsi"nin 30 illiyi ərəfəsində AÇG-nin operatoru olan BP şirkətinin verdiyi məlumata görə, hasilatın başlanğıcından 2024-cü ilin ikinci rübünün sonunadək Azərbaycana təqribən 57 milyard kubmetr səmt qazı təhvil verilib. Təkcə bu ilin birinci yarısında "Azəriqaz" sisteminə əsasən Səngəçal terminalı və "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 6,4 milyon kubmetr, ümumilikdə isə 1,2 milyard kubmetr səmt qazı ötürülüb. Qazın qalan hissəsi həmişə olduğu kimi, layların təzyiqinin saxlanılması məqsədilə istifadə edilib.

Ötən dövrə nəzər saldıqda məlum olur ki, 2022-ci ildə Azərbaycan dövlətinə təhvil verilən səmt qazının gündəlik həcmi orta hesabla 7 milyon kubmetr, ümumilikdə isə 2,6 milyard kubmetr təşkil edib. 2023-cü il ərzində isə bu göstəricilər müvafiq şəkildə 5,5 milyon kubmetr və 2 milyard kubmetr olub.

Ümumiyyətlə, son vaxtlar Azərbaycana verilən səmt qazının həcminin artırılacağı barədə də söhbət gedir. Məsələn, BP-nin Cəbrayıl rayonunda tikəcəyi 230 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası işə düşdükdən sonra şirkətin Azərbaycana verdiyi səmt qazının həcmini artıracağı gözlənilir. Yəni hazırda Səngəçal ərazisində 7 turbin var. Onlardan 5-i "Azəri-Çıraq-Günəşli" yataqlar blokunu, biri "Şahdəniz-1"i, o biri isə "Şahdəniz-2"ni elektrik enerjisi ilə təmin etmək üçündür. Cəbrayıldakı günəş-elektrik stansiyası fəaliyyətə başlayandan sonra BP elektrik enerjisini "Azərenerji" ASC-dən alacaq. Beləliklə, Səngəçaldakı turbinlər işini dayandıracaq. Nəticədə turbinlərin istismarına yönəldilən səmt qazı da Azərbaycana təhvil veriləcək. Bu həmçinin karbon emissiyasının azaldılması ilə bağlı qlobal öhdəliyi yerinə yetirmək baxımından da əhəmiyyətlidir. Lakin AÇG-nin mavi yanacaq töhfəsi səmt qazı ilə bitmir. Blokda "dərin qaz"ın olduğu barədə ehtimallar da gerçəkləşir. Prezident İlham Əliyev cari ilin fevralında "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının paytaxtımızda keçirilən növbəti iclasındakı, iyun ayında Bakı Enerji Həftəsinin açılışındakı və bir sıra digər çıxışlarında bu məsələdən də bəhs edib: "Gələcək planlarımıza gəldikdə, əlbəttə, bu gün biz onları geniş müzakirə edəcəyik. Mən onlardan yalnız bir neçəsini səsləndirmək istərdim. İlk növbədə biz gələn ilin ilk rübündən etibarən "Azəri-Çıraq-Günəşli"nin "Dərin qaz" layihəsi çərçivəsində təbii qazın hasilatını



gözləyirik. Bu, çox böyük ehtiyata malik olmaqla ümidverici strukturdur. Uzun illərdir ki, "Azəri-Çıraq-Günəşli" bizim neft ixracımızın əsas mənbəyidir. Hazırda kəşfiyyata başlanılması ilə bağlı tərəfdaşlarımızla razılığa gəlmişik və bu, əlavə töhfə olacaqdır. İlkin mərhələdə hasilat təqribən yarım milyard kubmetr olacaq, ancaq bir neçə il ərzində bu rəqəm 3-4 dəfə artacaqdır. Bu, "Şahdəniz" və "Abşeron" yataqlarından hasil ediləcək həcmlərlə yanaşı, yeni mənbə olacaqdır".

Belə ki, keçən ilin birinci yarısında "Azəri-Çıraq-Günəşli" strukturunda hazırda istismarda olan neft yataqlarının altındakı "dərin qaz" layları haqqında məlumat toplamaq məqsədilə yeni bir qiymətləndirmə quyusu (A22z) qazılıb. Quyunun qazılmasına fevralın 7-də başlanıb və aprel ayında qazma tamamlanıb. "Dərin qaz" laylarının potensialını öyrənmək məqsədilə quyudan əldə olunmuş məlumatın təhlili aparılıb.

Əməliyyatçı şirkətin son məlumatına görə, A22z qiymətləndirmə quyusundan əldə olunmuş məlumatlar əsasında "Azəri-Çıraq-Günəşli" strukturunda sərbəst təbii qaz ehtiyatlarının gələcək işlənməsi üzrə planlaşdırma işləri bu il də davam edir. Qiymətləndirmə quyusu uğurlu olub və bu da AÇG-də sərbəst qazın gələcək işlənməsi ilə bağlı nikbinlik yaradır. Sərbəst qazın işlənməsi üçün aparılan kommersiya müzakirələri artıq yekunlaşıb və ilkin hasilat quyusunun qazılmasına cari ildə başlamaq planlaşdırılır.

Yeri gəlmişkən, onu da vurğulayaq ki, Azərbaycanın hələ yüz il bundan sonra özünü və bir sıra digər ölkələri qazla təmin etmək imkanı var. Yəni zəngin bir sərvət olan təbii qaz ehtiyatlarımız 2,6 trilyon kubmetr təşkil edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 16 aprel (Çərşənbə günü) tarixli 158-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 15 rəcəbül-mürəccəb sənə 1337.
16 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## QİSMİ-RƏSMİ

**Dövlət Müfəttişliyinə əmrnamə**

Donskoy Darülfünun tələbəsi Ağacəfər Mustafayev Dövlət Müfəttişi İdarəsində xüsusi işlər məmurluğuna təyin edilir.

*Dövlət Müfəttişi vəzifəsini ifa edən:*
*Əliağa Həsənov*

## YENİ KABİNƏ

Həmən iki ay qədər tul [uzun] çəkən ağır və əziyyətli böhran bitdi. Böhranın bu qədər tul çəkməsinin səbəbi – necə ki, keçənlərdə bir kərə dəxi yazmışdıq – Kabinənin müştərək olmaq lüzumu keyfiyyətindən vücuda gələn əngəllər idi. Kabinə düzəlməsi öhdəsinə həvalə edilmiş olan Nəsib bəy həzrətləri koalisyon şəraitini riayəyə məcbur olduğundan, istədiyi adamlardan Kabinə düzəltməyə məşğul olmaq əvəzinə, portfelləri partiya fraksiyaları arasında paylaşdırmaq işinə məşğul idi. İşi çətinə salan dəxi bu paylaşma məsələsi idi. Hər bir paylaşmada hər tərəfi razı salmaq çətin bir əmr [iş] olduğu üçün bu paylaşmada da bir tərəfdən paylaşanların hamısı olmasa da əksəriyyətin razılığı və digər tərəfdən dəxi paylayanın özünün məqsədi hasil olmaq üçün bir bu qədər vaxt əlləşmək lazım gəldi.

Madam ki, paylaşma bitib Kabinə əmələ gəldi, deməli, paylaşanların əksərinin razılığı və paylayanın da məqsəd və arzusu əmələ gəldi. Öylə də oldu. Yeni Kabinəyə – siyasi dildə deyildiyi kimi – Parlaman fraksiyalarının əksəri bəyani-etimad edib razı qaldıqlarını izhar etdilər. Bunlar “Müsavat”, “Əhrar”, Sosialistlər bloku, Əqəliyyəti-milliyyə [Milli azlıqlar] və erməni fraksiyaları idi. “İttihad” sabiq Kabinə elanında olduğu kimi, bu Kabinə elanı bə’dində [sonrasında] dəxi etimadnamə bəyanından çəkindi və yeni təşəkkül etmiş “Bitərəflər” fraksiyası dəxi “İttihad” gedən yol ilə getdi.

Əcəba, partiyalıq əksəriyyətinin etimad və rizasına məzhər [nail] olan bu yeni Kabinə ümuri-dövlətə [dövlət işlərinə] və tərzi-idarəmizə partiya xaricində nəzərlərlə baxan camaatın dəxi rizası və hüsn-rəğbətilə qəbul oluna bilərmi?

Bu suala cavab vermək üçün əvvəlcə görək o nəzər sahiblərinin ki partiya xaricindədirlər, etimad və rizası nə ilə hasil ola bilər.

Partiyalara mənsub olanların etimad və rizası Kabinədə o və ya bu partiya adamlarının miqdarına və portfellərin o tövr və ya bu tövr bölünməyinə bağlı isə, partiya xaricində olan camaatın rəğbət və rizası, əvvəla, Kabinə əzalarından [üzlərindən] hər birinin iqtidarca məşhur və mərufluğuna [tanınmışlığına] və saniyən [ikinci olaraq] Kabinə rəisinin deklarasiyasında elan etdiyi yolların və xətti-hərəkətin kifayət verə bilən dərəcəsinə bağlıdır.

Yeni Kabinəmiz içində öylə əzalar var ki, ümuri-dövlət işində bilümum [ümumiyyətlə] və öhdələrinə götürmüş olduqları Nəzarət [Nazirlik] işlərində bilxüsus [xüsusilə] iqtidar və bacarıqları ilə camaat arasında məruf və məşhurdurlar. Bu əzaların kimlərdən ibarət olduğunu burada sadalamağı, məlum səbəblərə görə, namünasib bilməklə bərabər, hərbiyyə işlərimizi təkrar öhdəsinə götürmüş olan general Səməd bəy [Mehmandarov] həzrətlərinin dövlətimizin istinadgahı olan ordumuzun təşkil və tənzimi ilə camaat arasında layiqli şöhrət qazanmış olan adını xüsusi surətdə zikr etməyi özümüzə caiz bilirik.

Daxiliyyə Nəzarəti kimi mühüm və böyük bir Nəzarətin dəxi Kabinə rəisi olmaq münasibətilə keçənlərdə haqqında xüsusi bir məqalə yazmış olduğumuz Nəsib bəy həzrətlərinin yədi-idarəsinə [idarəsinə, əlinə] keçməsi də camaatı kifayətləndirəcək və rizasını mövcib olacaq [razılığına səbəb olacaq] əhvallardandır.

Bununla belə, yeni Kabinəmiz içində ümuri-dövlət işində iqtidar və bacarıqları hələ camaatca bəlli olmayanlar dəxi vardır. İştə, bu yeni nazirlərimizin dövlət və məmləkət mənafeyi yolunda sərf ediləcək səylərindən “gələcək göstərər” deməyib də, bu gün bir təsəlli olmaq üçün bu nazirlərin xətti-hərəkəti müxtəsər də olmuş olsa cızılmış olan deklarasyona müraciət etməlidir [edilməlidir].

Deklarasyon denilən hökumət bəyannaməsi, ümum Kabinənin nə yolda işləyəcəyini bildirən ümumi bir proqramdır. Dünən Parlaman kürsüsündən eşitdiyimiz bu proqram, ümuri-idareyi-dövlət [dövlət idarəçiliyi işləri] üçün lazım olan bugünkü yolları ümumiyyətlə göstərmək və istiqlalımızı hər gunə [hər cür] təcavüzatdan qorumaq vədindən əlavə, bu gün bizi xüsusi surətdə maraqlandıran Lənkəran məsələsi ilə dövlətlilərin əsgərliyə ciddiyyətlə cəlb edilməsi fəqərəsini [məsələsini] dəxi tezliklə həll edəcək deyə məxsusən xatırlaması hər kəsi qənaətləndirəcək dərəcə müvafiqi-məramdır [məqsədəuyğundur]. Bəyannamədən bəhs edərkən bunu da burada zikr etməyi lazım bildik ki, bəyannamədə Lənkəran məsələsi keçdikdən sonra, Parlamanda “Bəs Qarabağ məsələsi?” deyə nida və sədalar qalxdığını kamali-təəccüblə eşitdik və bu səslərin, deyil erməni məbusları tərəfindən, bəlkə müsəlmanlardan olan bitərəflər tərəfindən gəldiyini anlayıb heyran [heyrətdə] qaldıq.

Qarabağ məsələsi, Azərbaycan dövləti nöqteyi-nəzərincə həll edilmiş bir məsələdir. Bizcə daha bu xüsusda bir məsələ ola bilməz. Gəncə məsələsi, Bakı məsələsi olmadığı kimi, Qarabağ məsələsi də yoxdur. Olmayan halda nədən ötrü bu məsələ bəyannaməyə salınmalı idi ki, bunu bitərəflər tələb edirdirlər?

* * *

Məmləkətində əksəriyyət təşkil edən Azərbaycan türk və islamlığı nöqteyi-nəzərincə dəxi on nəfəri türk və iki nəfəri xarici olan Kabinənin surəti-heyəti qənaətbəxş bir dərəcədədir. Üç Müsavat, iki sosialist, bir Əhrar, dörd partiyasız, iki erməni və bir rusdan təşəkkül etmiş olan Kabinəmizdə daşnak firqəsinə mənsub Azərbaycan naziri olması bizi heç də təşvişə salmaz. Biz bu yol ilə əvvəla haqq və ədalət tərəfdarı olmağımızı və saniyən [ikincisi], erməni milləti ilə türk millləti arasında olan bəzi etimadsızlıqları bərtərəf etmək [aradan qaldırmaq] və bu iki milləti biri-birinə isinişdirmək lüzumunu, hər iki millətin mənfəəti olduğu üçün mülahizəyə alıb da bu işi ümum aləm qabağında şərəf və heysiyyətimizi artıran bir əməl hesab edirik.

Fəqət daşnak və ümum erməni nazirlərimizdən də bizim böyük umacağımız və tələblərimiz vardır ki, bunlardan ən ümdəsi etibarımıza layiq olmaq və bunda baqi [daimi] qalmaqdır. Eyni umacaq və tələbimiz dəxi rus nazirindəndir. Ümidvarıq ki, yeni rus nazirimiz, keçən Kabinəyə daxil olan Protasov məsləkli olmayıb da, Azərbaycan istiqlalına sadiq bir nazir olaraq bizi sevindirəcək və etimadımızı həm özünə, həm də ümum [bütün] Azərbaycan ruslarına qarşı bərkidəcəkdir.

Ən böyük ümidimiz, əlbəttə, yeni Rəisi-vükəla [Baş nazir] olan Nəsib bəy həzrətlərinin dövlət və məmləkətimiz mənafeyi yolunda göstərəcək olduğu səbat və mətanətinə bağlıdır. Buna əmin olub da bu mühüm işdə müvəffəqiyyətlərini diləriк.

*Hacıbəyli Üzeyir*

## YENİ KABİNƏ ƏZALARI [ÜZVLƏRİ]

Baş vəzir və Daxiliyyə naziri – Nəsib bəy Yusifbəyli (Müsavat)
Xariciyyə naziri – Məhəmmədyusif Cəfərov (partiyasız)
Hərbiyyə naziri – General Səməd bəy Mehmandarov (partiyasız)
Ədliyyə və Məsai [Əmək] naziri – Aslan bəy Səfikürdlü (sosialist)
Maliyyə naziri – Əliağa Həsənov (partiyasız)
Ticarət və Sənaət [Sənaye] naziri – Ağa Əminov (Müsavat)
Ziraət [Əkinçilik] naziri – Aslan bəy Qardaşov (Əhrar)
Posta-Teleqraf naziri – Camo bəy Hacınski (sosialist)
Dövlət müfəttişi – Nəriman bəy Nərimanbəyov (Müsavat)
Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri – Viktor Klenevski (Rus-Slav)
Səhhəti-Ümumiyyə [Xalq Səhiyyəsi] naziri – Dastakov (Erməni Milli Komitəsi)
Portfelsiz nazir – Xoren Amaspur (Daşnak)
Maarif və Ədyan [Dinlər] Nəzarəti – Münhəll [boş]

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*14 nisan iclası*

İclas doktor [Həsən bəy] Ağayevin sədarətilə saat 12-də açılaraq yeni Rəisi-vükəlanın [Baş nazirin] təzə Kabinə təşkili haqqındakı məktubu oxunur. Bədəhu [sonra] növbədəki məsələlərin müzakirəsinə keçilərək, saat 3 radələrində, gec olduğu üçün, saat 6-yadək tənəffüs elan edilir. Tənəffüsdən sonra iclas saat 7-dən də bir qədər keçmiş açılaraq söz yeni Kabinə rəisi Yusifbəyli Nəsib bəy həzrətlərinə verilir.

**Yusifbəyli** (Mərkəzdən və soldan şiddətli alqışlar içərisində kürsüyi-xitabətə çıxaraq şu nitqi irad edir [nitqi söyləyir]) – Möhtərəm məbuslar!

Əmrinizlə təşkil etdiyim hökumət, üzərinə nə qədər ağır və nə qədər böyük bir məsuliyyət almış olduğunu anlayır. Doğrudur, Azərbaycan milləti istiqlaliyyətini elan etdiyi bu az bir zamanda yar və əğyar [dost və düşmən] nəzərində müstəqil olmağa layiq bulunduğunu göstərdiyindən, bugünkü hal və mövqeyimiz iki ay əvvəlinkindən daha mətin və daha sağlamdır. Əvət, 10 aydan bəri bir əmri-vaqe [fakt] olan müstəqil Azərbaycan bu gün düvəli-müəzzəmə [böyük dövlətlər] tərəfindən dəxi hüsn-qəbul ərəfəsində bulunduğuna və Azərbaycan türklərinin yaxın bir zamanda dünyanın bilcümlə mədəni millətləri ailəsinə daxil olacağına ümidimiz qəvidir [möhkəmdir]. *(Mərkəzdən alqış)*

Bu böylə olacaq idi. Çünki Azərbaycan türkləri yekvücud olaraq erkək [kişi], qadın, gənc, ixtiyar, fəqir və zəngin, fəhlə və rəncbər, "Müsavat", "Əhrar", "Sosialist", "İttihad", xülasə bütün millət tənivahid [vahid bir bədən] kimi istiqlaliyyətimizi mühafizə etməyə yəmin etmişdir. *(Mərkəzdən və soldan alqış)*

Çünki millətin şu əzminə bilavasitə şahid olan böyük və demokratik İngiltərə komanda heyətinin aldığı təəssüratı qərəzsiz, mübaliğəsiz Parisdə iniqad edən məhkəmeyi-kübraya ərz edəcəyi şübhəsizdir. Əvət, əfəndilər, bunlar həp doğrudur.

Məmafih [bununla belə], bu gün qarşımızda istiqlalımızla bərabər, tamamiyyəti-mülkiyyəmizi [ərazi bütövlüyümüzü] təmin etmək üçün həlli bəklənilən bir çox məsələlər vardır. Hökumət bir an əvvəl məzkur [deyilən] məsələlərlə məşğul olmağı kəndisi üçün ən mühüm və müqəddəs vəzifələrdənədd [hesab] edir.

Məlumunuzdur ki, Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzası hələ yabançılar əlindədir. Yüz minə qədər vətəndaşlarımızın həyatlarına, irz və namuslarına təərrüz [təcavüz] edilir. Azərbaycanın Tiflis və İrəvan vilayətlərində bulunan hissələrinə göz dikənlər dəxi vardır.

İştə, bu məsələləri həll etmək, həm də son imkana qədər sülhən [sülhlə] həll etmək, hökumətin ümdə və əsas vəzifələrindəndir. *(Sağdan: Qarabağ! Qarabağ!)* Hökumət inanmaq istəyir ki, Azərbaycanın bu haqqi-sərihi [açıq-aşkar, mübahisəsiz haqqı] bugünlərdə Tiflisdə iniqad edəcək [toplanacaq] konfransda dəxi qomşularımız tərəfindən təslim və qəbul olunacaqdır. Çünki biz biliriz ki, bizim kimi, qomşularımız dəxi bizimlə sülhlə yaşamaq istəyirlər. Məvərayi-Qafqazda [Zaqafqaziyada] təşəkkül etmiş cümhuriyyətlərin istiqbalı [gələcəyi] işbu cümhuriyyətlər arasında sülh və səlahın [əmin-amanlığın] davamına bağlıdır. Bu isə hər kəsin haqqı kəndisinə verilməklə mümkündür.

Qomşulardan bəhs edərkən bir-iki söz Dağıstan Cümhuriyyəti xüsusunda ərz etmək istərdim.

Əfəndilər! Dağlılar İttifaqı Cümhuriyyəti ilə bizim aramızda ixtilaf deyil, heç bir gunə [heç bir cür] ayrılıq-qeyrilik belə təsəvvür oluna bilməz. Şimali Qafqaz azərbaycanlıların vətəni, Azərbaycan şimali qafqazlı dindaşlarımızın yurdu, ocağı məsabəsindədir [yerindədir]. Məlumi-alilərinizdir, Denikinin orduları Şimali Qafqazın üzərinə hücum edərək cəsur və şücaətli dindaşlarımızın qarlı dağlarını al qanlara boyayıb, onları və onlarla bərabər bizləri yenidən təhti-əsarətə [əsarət altına] almaq fikrindədirlər. Halbuki bu işin o qədər qolay olmadığını Qafqaz qartalları şu günlərdə o qasiblərə [qəsbkarlara] qanlı dərslər verməklə isbat edirlər. Şu arslan mücahid qardaşlarımız bilməlidirlər ki, hər zaman biz onlarla bərabəriz.

Möhtərəm əfəndilər! Digər qomşularımızla dəxi şimdiyə qədər olduğu kimi sülh və müsalimətlə [asayişlə] yaşayacağız. Sevgili Azərbaycanımızın şan və heysiyyətini mühafizə etməklə bərabər, hökumət, qomşular arasında zühur edən cümlə məsələlərin sülhlə həll edilməsi tərəfdarıdır. Bunu biz böylə bilir və qomşularımızın dəxi böylə düşünəcəklərinə şübhə etmiriz. Təbii, bu sülh və səlahın başqa şəraiti [şərtləri] dəxi vardır. O da əqəliyyətdə [azlıqda] qalan millətlərin haqqını tanımaqdır. Zülüm və istibdad altında yaşayıb da "inarodes" namı təhtində [altında] bir əsrdən bəri maddətən və mənən bir çox təzyiqlərə məruz qalan Azərbaycan türkləri Azərbaycan daxilində bulunan bütün vətəndaşlarına bir gözlə baxmaqla, hər kəsin kəndi dilində yazıb-oxumasına, kəndi dilini və kəndi milliyyətini mühafizə etməsinə müsaidə etməzsə, tarixi bir səhv yapmış olar. Onun üçün hökumət, sevgili Azərbaycanımızın cümlə vətəndaşlarımız üçün həqiqi bir vətən olmasına çalışacaqdır.

Böyük dünya yanğınının doğurduğu anarşinin nəticəsi olaraq zühur edən buğz [kin] və ədavətin önünü almağa və təkrar yenə meydan verməməyə səy və iqdam ilə [çalışmaqla], hökumət bu kimi milli xüsumət və təərrüzlərə [düşmənçilik və təcavüzlərə] heç bir vəchlə yol verməyəcəkdir.

Burada torpaq məsələsindən, əmələ məsələsindən uzun-uzadıya bəhsə lüzum görməyirəm. Çünki rəncbərə torpaq, fəhləyə iş məbusan əksəriyyətinin [Parlament üzvlərinin əksəriyyətinin] şüarı olduğundan, təbii, hökumətin dəxi şüarı olacaqdır.

Torpaq məsələsini qəti surətdə həll etmək, təbii, milləti behəqq [layiqiylə] təmsil edəcək Məclisi-Müəssisan haqqıdır. Bu xüsusda bugünkü hökumətin üzərinə ancaq bir vəzifə tərəttüb edir [düşür]. O da məsələni ətraflı hazırlamaq, torpaq işlərinə dair bütün vəsaiqi [sənədləri] cəm və təlif etmək [toplamaq və tərtib etmək] və bu surətlə Məclisi-Müəssisanın heyni-iniqadında [açılışı vaxtında] şu ağır və mühüm məsələnin qolaylıqla həll edilməsinə müavinətdə bulunmaqdan ibarətdir.

Bununla bərabər, gərək torpaq və gərək əmələ məsələsində bir ixtilaf zühur edərsə, hökumət hər zaman zəhmətkeşlərin hüququnu müdafiə edərək onların tərəfində bulunacağını vəd eylər. *(Mərkəzdən və soldan alqış)*

Hökumət əmələnin haqqi-səyini [zəhmətinin haqqını] müdafiə və kəndisini sığorta üçün qanunlar hazırlayacaq.

Məbus əfəndilər! Hürriyyəti-kəlam, hürriyyəti-mətbuat, hürriyyəti-ictima [söz azaldığı, mətbuat azaldığı, toplaşma azadlığı] mədəni və demokratik bir dövlət təşkilinin şəraiti-əsliyyəsindədir [əsas şərtlərindəndir]. Bu xüsusda zənn edərəm hər kəsdən biz irəli getdik. Azərbaycanda görülən şu hürriyyətlər dünyanın heç bir tərəfində mövcud deyildir. Hökumət, təbii, müqəddəs olan bu hürriyyətləri mühafizə edəcəkdir. Hər kəs nə yazarsa yazsın, hər kəs nə istərsə söyləsin, nerədə ictima edərsə etsin. Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül ediləmməz [dözülə bilməz]. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir. *(Ümumi sürəkli alqış)*

Şu istiqlaliyyəti, millətin şu müqəddəs və məşru [qanuni] haqqını təhqir etdirməməyə, şu ülvi hissiyyatına toxundurmamağa hökumət var qüvvəsi ilə çalışacaqdır. *(Mərkəzdən, soldan alqış)*

Bu məsainin [çalışmanın] məcrayi-təbiisində [öz təbii axarında] və bir intizam daxilində cərəyanı üçün hökumət yaxın vaxtlarda müəyyən bir qanun layihəsi tərtibi ilə təsvib [bəyənmə] və təsdiqinizə təqdim edəcəkdir və böyləliklə şu müqəddəs hürriyyətlərdən sui-istemal [sui-istifadə] edənlər məmurların deyil, ədliyyə məhkəmələrinin adilanə və qanuni qərarlarına tabe tutulacaqlardır.

Əfəndilər! Bu hürriyyətlərin ən müqəddəsi məlumi-alilərinizdir ki, hürriyyəti-vicdani-şəxsiyyə və məsuniyyəti-beytiyyədir [mülkiyyət toxunulmazlığı hüququdur]. Təbii, əqidə və vicdana aid məsələlər üçün demokratik cümhuriyyətimizdə kimsə təqib ediləmməz. Burada diqqətə şayan [diqqətəlayiq] bir cəhət vardır ki, o da bütün Cümhuriyyət daxilində məzkur [deyilən] hürriyyətləri anlayaraq mühafizə edə biləcək zəbtiyyə [asayiş] və polis məmurları bulunmasıdır.

Hökumət bu dəvairə [dairələrə, idarələrə] millətin münəvvər [ziyalı] fikirlərini dəvət etməyə təşəbbüs edəcəkdir. Hərgah bu xüsusdakı dəvət qəbul edilməzsə və bu dairələr ləyaqətli əllərə tövdi olunmazsa [tapşırılmazsa], millət əfradı [fərdləri] bu yolda yapılan qanunsuzluqlardan, haqsızlıqlardan xilas olammaz.

Hökumət bu babda [bu barədə] əlindən gələni əsirgəməyəcəkdir. Məmafih [bununla belə], bu xəstəliyin önünü almaq üçün hökumət başqa çarələrə dəxi təvəssül [müraciət] edəcəkdir.

Məlumi-alilərinizdir ki, hər hangi bir sui-istemalın [sui-istifadənin] önünü almaq üçün ən qəti və yeganə çarə onu doğuran səbəbləri izalə etməkdən [aradan qaldırmaqdan] ibarətdir. Bunun böylə olduğunu isbata hacət belə yoxdur. Binaənileyh [ona görə], hökumət hər xüsusda və bilxassə ümuri-daxiliyyədə [xüsusilə daxili işlərdə] ilk öncə mövcud əsbabın [səbəblərin] izaləsi fikrinə çalışacaqdır. Şöylə ki, bir an əvvəl zemstvo idarələrini [yerli özünüidarə qurumlarını] vücuda gətirmək və bu vasitə ilə cümlə məmurları hökumətin nəzarət və tərəssüdündən [diqqətli baxışından] maəda [əlavə], əhalinin dəxi müraqibəsi [nəzər-diqqəti] altına almaq. İştə bunun üçün zemstvo idarələrini sürəti-mümkünə ilə [mümkün qədər sürətlə] meydana gətirməyə hökumət təşəbbüs və mövcud şəhər idarələrini həyata dəvət edəcəkdir. Və bununla bərabər, hökumət məmləkətin təqsimati-idarəsini [inzibati bölgüsünü] dəyişdirməyə müsaidənizlə iqdam edəcəkdir [başlayacaq, təşəbbüs edəcək].

Təbii, sui-istemalatla mübarizənin başqa çarələri dəxi vardır.

Ən müəssir [təsirli] çarələrdən biri də cinayət işləyənləri qanunən təqiblə, canilərə, hər kim olursa-olsun, cəzayi-səzasını [layiqli cəzasını] verməkdir. Hökumət bu xüsusda üzərinə düşən vəzifəni ifa edəcəkdir.

Bu cəzalar dəxi, əlbəttə, ədalət və həqqaniyyətə istinad edilməli və hər dürlü səhv və qərəzdən bəri [uzaq] bulundurulmalıdır. Bunun üçün də ədliyyə məhkəmələri əhaliyə daha yaxın və milli bir ruhda olmalıdır. Bu xüsusda dəxi hökumət bir yenilik, bir əsəri-təcəddüd [yeniləşmə əsəri] göstərməyə və tez bir zamanda mümeyyiz [yaxşını pisdən seçən] hakimlərin ədliyyə məhkəmələrinə cəlbinə çalışacaqdır.

Möhtərəm əfəndilər! Hökumət bütün səyini bir an əvvəl Məclisi-Müəssisan toplamağa həsr edəcəkdir. Bunun üçün komisyonca qəbul edilmiş olan intixabat layiheyi-qanuniyyəsinin [seçki qanunu layihəsinin] tezliklə Məclisdən keçirilməsini arzu ediriz.

Möhtərəm məbuslar! Məlumunuzdur, istiqlalımız, istiqbalımız [gələcəyimiz] həp maarifə bağlıdır. Əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə, bizim üçün fəlah [qurtuluş] və nicat ümidi qalmaz. Hökumət bunu bilir. Bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlamağa və işbu eylüldən [sentyabrdan] etibarən mütəəddid [çoxsaylı] ibtidai məktəblər açmağa təşəbbüs edəcəkdir. Sənaye məktəblərinə ayrıca diqqət edəcəkdir. Mövcud edadilərdən bir qismi tədricən milliləşdiriləcək, digər qismi isə qeyri-müslim çocuqlar üçün rus lisanında ibqa ediləcəkdir [davam etdiriləcəkdir]. Hər millətin kəndi lisanında oxumasına heç bir mane olmadığından, onların çocuqları üçün hökumət hesabına məktəblər açılacaqdır. Edadi məktəblər bulunmayan məhəllərdə [yerlərdə] yenilərini açmağa müsariət ediləcəkdir [tələsiləcəkdir].

Müəllimlərə olan ehtiyacımızı rəf [aradan qaldırmaq] üçün kafi miqdarda darülmüəlliminlər [pedaqoji məktəblər] açmaqla bərabər, xaricdən dəxi müəllimlər dəvət etməyə hökumət çalışacaqdır.

Dərs kitablarımız dəxi azdır. Maarif Nəzarəti bunun çarəsini düşünəcəkdir. Şimdidən mütəəddid komisyonlar təşkil edilmişdir. Bir taqım kitab intixab [seçilmiş] və tərtib edilmişdir. Bunların təb’inə [nəşrinə] müstəcələn şürü edərək [təcili surətdə başlayaraq], eylülə qədər lüzum görülən kitabları kamilən ehzar [hazırlamağa] və tədarükə səy edəcəkdir.

Hökumət ali təhsili dəxi düşünmüşdür. Bunun üçün ali ziraət [kənd təsərrüfatı] məktəbi qanun layihəsi təsvibinizə [təsdiqinizə] təqdim edilmişdir. Tiflisdə bulunan Məvərayi-Qafqaz Darülfünununun [Zaqafqaziya Universitetinin] paytaxtımıza nəqli üçün müzakirata girişilərək, eylül ibtidalarında [sentyabrın əvvəllərində] tədrisata burada davam edilməsinə səy və iqdam edilməkdədir. Darülfünunumuzda, təbii, lisanımızın, tariximizin, ədəbiyyatımızın inkişafına xidmət edə biləcək kürsülər [kafedralar] açılacaqdır.

Məbus əfəndilər! İstiqbalımızın [gələcəyimizin] təmini üçün başqa tədbirlər ittixazı da [tədbirlər görülməsi də] lazımdır. O da iaşə, ticarət və maliyyə işlərini yoluna qoymaqdır. Ərz etdiyim bu işlər birbirinə sıxı-sıxıya bağlıdır.

İaşə məsələsi Azərbaycanda şimdi başqa bir rəng almışdır. Müharibədən dolayı başqa məmləkətlərdə olduğu kimi, bizim vətənimizdə dəxi bütün ticarət inhisar altına alınmışdı. Nəticədə, təbii, süni olsa da böyük bir dairə [idarə], hətta İaşə Nəzarəti namı ilə başqa məhəllərdə [yerlərdə] olduğu kimi bizdə də bir Nəzarət [Nazirlik] təşkil edilmişdi. Məqsəd xüsusi ticarətə yol verməyərək, əhalinin iaşəsinə həsri-diqqət etmək idi. Bunun üçün daxili və xarici ticarəti dövlət kəndi öhdəsinə almışdı. Bu üsulun nə qədər müzirr və vəxim [zərərli və təhlükəli] nəticələr verdiyi məlumunuzdur. Bittəbi [təbii olaraq], Azərbaycan Hökuməti bu üsuldan vaz keçdi. Daxildə ticarəti yenidən ehyaya [canlandırmağa] çalışdı.

Şimdi hökumətin öhdəsinə düşən bir vəzifə varsa, o da əşya fiyatlarının həddindən ziyadə yüksəlməməsi üçün bazara kafi miqdarda əmtəə və ərzaq çıxararaq, tüccarla [tacirlərlə] rəqabət etmək və mümkün olduğu qədər Azərbaycana xaricdən ərzaq və əmtəə cəlb etməkdir. Bu isə artıq Ticarət Nəzarətinin işidir. Ona görə hökumət İaşə Nəzarətini ləğv edərək, bu Nəzarətin bəzi vəzifələrini Ticarət Nəzarətinə tövdi etməklə [tapşırmaqla] iktifa edəcəkdir [kifayətlənəcəkdir].

Möhtərəm məbuslar! Şu çəkdiyimiz bahalıq və bundan dolayı keçirdiyimiz sıxıntı həp ticarətimizin mehvəri-əslisində [əsil mehvərində] cərəyan etmədiyindəndir. Bunun da səbəbi məlumdur.

Bizim sərvətimiz, rifahi-halımız həp neft ticarətinə bağlıdır. Halbuki neftimizin ən böyük bazarı olan Rusiyanın yolu bağlıdır. Bazar açılmazsa, biz güclük çəkəcəyiz. Digər tərəfdən də, Rusiyanın bizim neftimizə ehtiyacı o dərəcədədir ki, bizimlə anlaşmazlar, bizimlə bir “modus vivendi” vəz [tətbiq] və təyin etməzlərsə, Rusiya üçün olduqca böyük və təhlükəli müşkülat zühur edə biləcəyi bədihidir [aşkardır]. Binaənileyh [ona görə], hərgah Astraxan tərəfindən bizə ticarət qapılarını açmaq təklifi vüqu bularsa, müəyyən şəraitlə qəbul edə biləriz.

Filhəqiqə [doğrudan da], bizim üçün Rusiyanın daxili işlərinə qarışmağa haqqımız yoxdur. Rusiyada hangi firqə qalib gələcək, hangi adamlar iş başına keçəcək, bu bizim vəzifəmiz deyil, böyük, hürr Rusiyanın kəndi işidir. Biz Rusiya dövləti ilə hər zaman sülh və səlahla [əmin-amanlıqla], dostanə keçinmək istəriz. Yalnız bir məsələ var ki, Rusiya (bolşevik Rusiyamı, menşevikmi, yoxsa [başqa] birimi olsun) bizim daxili işlərimizə qarışmamalıdır. Biz Rusiyadan yalnız bunu tələb ediriz. Bu da bizim haqqımız olduğunu, təbii, kimsə inkar etməz zənn edəriz. *(Mərkəzdən, soldan alqış)*

Bunun üçün Rusiya ilə hər bir ticarətə girişməyi, münasibatidostanə [dostluq münasibətləri] təsis etməyi Azərbaycan Hökuməti hər zaman kəndisinə borc biləcəkdir. Astaraxan yolu açılarsa, iki yüz milyon puta baliğ [çatan] neftimizi ixrac edə biləcəyimizdən, nəticədə iki milyard qədər bir para Azərbaycana daxil olmuş bulunacaqdır. Əgər nefti yalnız kəndi paramıza satarsaq, şimdiyə qədər buraxdığımız paranın cümləsini toplamış olacağımızdan, nəticədə, təbii, paramızın etibarı yüksələr, məta və ərzağın fiyatı düşər, həyat və məişətimiz kəndi məcrayi-əslisinə övdət edər [təbii yoluna qayıdar]. O vaxt ümuri-maliyyəmiz [maliyyə işlərimiz] dəxi yoluna girər. Bu gün olduğu kimi, gərək burada və gərək Tiflisdə hesabsız kağız paralar buraxmağa artıq məcburiyyət qalmaz. Hələ bu iki "emissiya" – bu, artıq təhəmmül ediləcək [dözüləcək] hallardan deyildir. İki yerdə para çıxarmaq heç bir zaman, heç bir məmləkətdə görünməmiş bir işdir. Hökumət bu hala bir an əvvəl xitam verməyə təşəbbüs edəcəkdir.

Möhtərəm əfəndilər! Dəmiryollarımızda dəxi islaha möhtac bir çox cəhətlər vardır. Bu xüsusda hökumət çalışır və çalışacaqdır. Yalnız bir məsələdən bəhs etmək istəyirəm. O da Ələt-Culfa dəmiryoludur. Bu yola hökumət pək ziyadə əhəmiyyət verir. Bu iş üçün hökumət sizdən para istəyəcəkdir və bu yolun qəribən [yaxın vaxtda] başa gəlməsinə səy edəcəkdir. Bundan başqa torpaq və şose yollarımız dəxi vardır. Bunlar da təmirə möhtacdır. Bu yollarımız mətlub [arzulunan] dərəcədə olmazsa, nə poçtamız işlər, nə də əhalimiz bunlardan istifadə edə bilər.

Möhtərəm məbus əfəndilər! Ərz və tedad etdiyim [saydığım] şu tədabirin [tədbirlərin] ifa və icrası bizim varlığımız və qüvvətli bulunmamızla mümkün ola biləcəkdir. Bunu birdəfəlik bilməliyiz. Qüvvətli olmazsaq nə hürriyyətimiz olar, nə də istiqlalımız. Onun üçün hərbi işimiz hökumət təşəbbüsünün üssi-əsası [əsası, bazası] olacaqdır. Əsgərimizin ehtiyacına, ləvazimatına hökumət ayrıca diqqət və ehtimam edəcəkdir [qayğı göstərəcəkdir].

Əsgərlik kimi müqəddəs vəzifənin ilk əvvəl zənginlərin, qəvilərin [güclülərin], ziyalıların övladlarının vəzifəsi olduğunu hökumət onlara anladacaqdır. *(Ümumi sürəkli alqış, Qara bəy [Qarabəyli] yerindən: Böylə...)* Bundan boyun qaçıran bulunarsa, lazım gələn cəza veriləcəkdir.

Xülasə, əfəndilər! Təkrar edirəm, hər şeydən əvvəl istiqbalımız qüvvətə və millətin əzminə möhtacdır. Birincisi, Hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə sizin əlinizdədir.

Əfəndilər! Təşkil etdiyim hökumət, aranızda bulunan bütün firqələri ehtiva etməyir. Onun üçün, təbii, müxalifətdə qalanlar dəxi sizin aranızda olacaqdır. Mən ancaq bir şeyə əminəm, o da istiqlaliyyət məsələsində olan birliyinizdir. Bu məsələdə mənimlə və təşkil etdiyim hökumətlə həmrəy olmayan bir zatın belə bulunmadığını bilir və bunun üçün də var qüvvəmlə və böyük imanımla çalışacağımı vəd edirəm. *(Səslər: Qarabağ, Qarabağ məsələsi? Ümumi, şiddətli və sürəkli alqış.)*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərin hərəkatı**

London – İngiltərə Hərbiyyə Nəzarətinin bolşeviklər haqqında yazdıqları “Ağ kitab”da bolşeviklər məzalimi [zülümləri] haqqında bir çox məlumat verilir. Bu kitabda 1918-ci sənədə bolşeviklərin hərəkatı barəsində İngiltərənin bir çox rəsmi məlumatı vardır. Bu “Ağ kitab” bolşeviklərin göstərdikləri dəhşət və fəlakəti təsvir edir. Dekabrda Moskvadan hərəkət etmiş olan bir ingilis afiseri [zabiti] xəbər verir ki, Moskvada minlərlə əhali asılmaqla edam edilmişlərdir. Bolşeviklər axır zamanlar qurşun sərf etməyərək “müqəssirləri” asırlar. Həman afiser bunu da əlavə edir ki, Pskovda bolşeviklər 50 afiseri tutub, sonra mişarla parça-parça etmişlər. Yekaterinodarda olan ingilis konsulu xəbər verir ki, hər bir işğal edilmiş şəhərdə bolşeviklər yüzlərlə əhalini qətl edirlər, afiserlərin çiyinlərindən çinlərini çıxarıb bədənlərinə mıxlayırlar.

**Lloyd Corc sülh haqqında**

Lloyd Corc Parlamanda 300 nəfər üzvə cavab verdiyi zaman izhar etmişdir ki, ümumi seçkilərdə sülh haqqında verilən vədlərinin hamısını əmələ gətirmək niyyətindədir.

**Lloyd Corcun teleqrafı**

Lloyd Corc Avamlar Kamerası üzvlərinin teleqrafına cavab olaraq Kennedi Consa göndərdiyi teleqrafda deyir ki:

*“Mən və mənim yoldaşlarım seçicilərimizə verdiyimiz vədlərin hamısını əmələ gətirmək niyyətindəyik. Biz hər bir vaxtda hərgah məmləkətimizin rəyinə görə lazım olarsa, öz vədələrimizə vəfa etməyə hazırıq.”*

**Müharibə zərəri**

Paris müxbiri xəbər verir ki, zərərlərin verilməsi haqqındakı məsələnin maliyyə cəhətinə dəxli olan və hal-hazırda alınan təkliflərin həll edilməsini təsəvvür etmək əsası vardır. Xəbər verildiyinə görə, Almaniyanın müharibə zərərlərinə məsul olduğu etiraf edilmişdir. 1919 və 1920-ci illərin müddətində Almaniya bir milyard ingilis lirəsi verməlidir.

**Odessanın alınması**

Parisdən xəbər verirlər ki, Moskvadan alınan teleqrafda Odessanın Şura və Ukrayna əsgərləri tərəfindən işğal edildiyi xəbər verilir. Londondan xəbər verilir ki, Odessanın Müttəfiqlər tərəfindən təxliyə edildiyi rəsmi surətdə təsdiq edilir.

**Müttəfiq əsgərləri**

Londondan xəbər verirlər ki, Çörçill suala cavab olaraq demişdir ki, bu ayın müddətində Misirə və İstanbula külli miqdarda əsgər göndəriləcəkdir. Bundan əlavə, orada çoxdan bəri məzuniyyətsiz qalan əsgərləri əvəz etməkdən ötrü may, iyun və iyul aylarında lazımi qədər əsgər göndəriləcəkdir.

**Dörd dövlət nümayəndələri**

Parisdən xəbər verirlər ki, bu gün dörd dövlət nümayəndələri siyasi məsələlər müzakirəsinə məşğul olmuşlardır. İngiltərə ilə Fransa Vilhelmin məsul olduğunu etirafla [qəbul etməklə], onun tələb edilməsinə və beynəlmüttəfiqin [müttəfiqlərarası] məhkəməyə verilməsinə razı olmuşlardır. Amerika Vilhelmin məsul olduğuna razı olmuşsa da, lakin onun məhkəmə ilə təqib edildiyini təqdir etməyir.

## SÜLH ƏTRAFINDA

- Parisdə “Matin” qəzetəsinin müxbiri Lloyd Corc ilə müsahibədə bulunmuşdur. Lloyd Corc mümaileyhə [adı çəkilən şəxsə] demişdir ki, o, Pişonun rəyinə şərik olur və sülh şəraiti Pasxa bayramları üçün hazır olacaqdır. Mümkündür ki, aprelin axırlarında, yaxud mayın ibtidalarında [əvvəllərində] Müttəfiqlər Almaniya nümayəndələrini sülh imza etməyə dəvət edəcəkdirlər.

- Parisdə ciddi surətdə şayiat dövran edir [şayiələr gəzir] ki, Amerika Rəisi-cümhuru Vilson Avropadan çıxmaq istəmişdir. Bəzi nümayəndələrin sülhün bəzi xırda məsələlərinə diqqət verməzləri sülh şəraiti tərtibinin təxirinə səbəb olmuşdur. Sülh şəraitini tezliklə bitirmək əvəzinə, öylə nitqlər söyləyib və öylə hərəkətlərdə bulunmuşlar ki, onların vüquuna [meydana gəlməsinə] imkan verilməməli imiş. Cümə günü müttəhid [birləşmiş] iclas vaqe olaraq, hazır edilmiş daklad orada istema ediləcəkdir [dinləniləcəkdir]. Bəzi nikbinlər deyirlər ki, o vaxtadək sülh müahidənaməsi [sazişi] də hazır ediləcəkdir.

## QARS ƏHVALINA DAİR

İngilis qüvveyi-əsgəriyyəsi [hərbi qüvvəsi] Qafqaziyada asayişi təmin etmək məqsədilə gəldi. Qars Şurası ümum əhali üçün işbu məcburiyyətində ifayi-xidmət edib yardım etməyə dəvət olunmuşdu. O bunu yapmadı. Asayiş təmin edib əhalini rahat saxlamaq əvəzində, Qars Şurası əhali arasında qarışıqlıq saldı. Şimdi bu Şura ingilis komandanlığı tərəfindən əzl olunmuşdur [işdən kənarlaşdırılmışdır]. Bundan sonra idarə büsbütün ingilis komandanlığı əlində olub, Qars nahiyəsi, hökumət və idarə onlar tərəfindən tərtib və tənzim olunur. Əhali ingilis komandanlığı tərəfindən olan hər bir əmrə itaət etməlidir. İngilis komandanlığı əhaliyə kəndi əvvəlki yerlərində iqamətgah verib, onların orada rahat yaşamasını mümkün etməyə çalışacaqdır. Silah daşıyanlar kəndilərini ingilis komandanlığı əmrinə müğayir [zidd] bulunmaqda göstərib mücazata [cəzaya] düçar olacaqlar.

Əhali kəndi evlərinə və yaxud onlara göstərilən məxsusi yerlərinə övdət edib [qayıdıb] yaşayacaqlar. İşbu elanatda olan qanunları davami bir hökmdə deyildirlər. Qəti surətdə hər məsələ Sülh Konfransında yalnız təyin oluna bilər.

Əhali kəndi yerlərinə övdət edib zəxirə [ərzaq] əldə etməyə çalışacaqdır. Hər kəs bu məqamda ona yardım göstərməyə məcburdur. Hər bir millət üzərində ingilislər bir gözlə baxacaqdırlar.

[Qars] nahiyəsi mirliva general [general-mayor] Devi təhti-idarəsində [idarəsi altında] olub, onun hər bir əmri icra olunmalıdır. Onun əmrinə mütabiq [uyğun] müamilə [rəftar] etməyənlər mücazat olurlar [cəzalanırlar].

Sülh Konfransı hər bir millətin istiqbalını qərar etdiyində, onların göstərdiyi müamiləni nəzəri-diqqətə alıb ona görə davranar.

*İmza: Qafqaziya İngilis ordu*
*Baş komandanı*
*general Tomson*

## QƏZETƏLƏRDƏN

**Rusiyada**

Samara – Xüsusi işlərə görə Samaraya varid olmuş [gəlmiş] Ufa bolşevik komitəsinin üzvü xəbər verir ki, Ufada Kolçak dəstələrinin yapdıqları cinayət bu vaxta qədər Belı [Ağ] qvardiyanın yapdığı cinayətlərin hamısını ötmüşdür. Kolçak dəstəsi bütün əmələləri və Şura hökuməti ixtiyarında olan məmurların həpsini asıb öldürmüşlərdir. Ufa kəndçi və əmələ qanı ilə boyanmışdır. Şəhərdə həyat əsəri yoxdur. Əhali çox pərişandır. Kolçak əsgəri dəstələri ancaq afiser hissələrindən ibarətdir. Cəbrən [zorla] cəm edilmiş olan kəndçilər ya qaçırlar, yaxud Şura qoşunları cərgəsinə keçirlər. Hətta Kolçak qoşunları ricət etdikdə [geri çəkildikdə], Kolçak ordusundan 150 nəfər bolşeviklərə mülhəq olmuşlardır [qoşulmuşlar].

Kiyev – Odessa altında qəti surətdə pərişan edilmiş olan düşmənlər külli ləvazimi-hərbiyyə buraxaraq qaçmışlardır. Odessadan çıxarılmış olan düşmənlər Tatarqadını kənddə özlərinə xəndək hazırlayıb oradan müharibəyə başlamışlardır. Qırmızı qoşunlar Odessaya daxil olmuşlardır.

## DAĞISTAN ƏHVALI

**Mütarikə**

Aprelin 10-da Qroznı şəhərində Denikin başda olmaq üzrə, Könüllü ordu nümayəndələri Müttəfiq dövlət komandanlığı və Dağıstan millətləri nümayəndələrinin müşavirəsi olacağı haqqında general Prjevalskinin Dağıstan Hökumətinə verilən təklifinə görə, aprelin 7-də Dağıstan Parlamanının örtülü iclası vaqe olmuşdur [baş tutmuşdur]. Bu məsələ müzakirə edildikdən sonra məzkur [deyilən] nümayəndələrlə müşavirədə bulunmaqdan ötrü Parlaman sədri knyaz Qaplanov, Türüq-Məabir [Rabitə və Nəqliyyat] naziri mühəndis [Zübeyr] Teymurxanov, Şəriət idarəsi başçısı Qatsbinski və katib Vəlibəyovdan ibarət fövqəladə siyasi bir heyət intixab edilmişdir [seçilmişdir]. Bundan əlavə, Azərbaycana və Gürcüstana əzimət edib [gedib], oraların siyasi dairələrini xəbərdar etməklə bərabər, Dağıstan Cümhuriyyətinin hal-hazırdakı siyasi şəraiti haqqında müzakirədə bulunmaqdan ötrü digər bir siyasi heyət dəxi intixab edilmişdir. Bu heyətə Parlaman üzvü dava vəkili Mutuşev, mühəndis Xanməhəmmədov və hökumət tərəfindən Pliyev daxil olmuşlardır.

**Torpaq məsələsi**

Dağıstan millətləri Parlamanı torpaq məsələsini müzakirə edib və 1917-ci ildə bu məsələ haqqında vaqe olan iki ictimanın [baş tutan iki yığıncağın] qətnamələrini nəzərə alaraq, aprelin 1-də vaqe olan iclasda böylə qərar qoymuşdur:

Dağıstan Hökumətinə təklif edilsin ki, sosializatsiya əsasında olaraq torpaqların zəhmətkeşlər əlinə verilməsi üçün tez bir zamanda qanun layihəsi tərtib etsin; qanun layihəsi hazırlanmasında, həmçinin torpaqların zəhmətkeşlər əlinə verilməsi planını tərtib etməkdə hökumətlə bərabər iştirak etməkdən ötrü Parlaman komisyonu intixab edilsin [seçilsin].

**Dağıstanlılar və Kuban Radası**

Mövsuq [etibarlı] məlumata görə, Denikinin Dağıstan millətləri əleyhinə hərəkəti Kuban Radasının həyəcanına və Könüllü ordunun hərəkətlərinə görə onun düşmənçiliyinə bais olmuşdur. Kuban nahiyə hökuməti özünü haqlı və heyətcə sosialist və demokrat ədd [hesab] edərək, Dağıstan Millətləri İttifaqının da Rada davam etdiyi şərait üzrə yaşamasını arzu edir. Kuban Radası Denikinin cənubşərqdəki hərəkatını aşkara surətdə irtica adlandırır.

**General Əliyev**

Çeçen nəslindən olan general [Erisxan] Əliyev Lyaxov vasitəsilə Könüllü ordu ərkani-hərbi [hərbi qərargahı] tərəfindən Çeçenistan hakimi təyin edilirmiş. Mövsuq [etibarlı] xəbərlərə görə, general Əliyev bundan imtina edib izhar etmişdir ki, Lyaxov onu öz doğma çeçen xalqının üzərinə hakim etməyə vəkil edilməmişdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Maarif nazirinin Bakıda darülfünun [universitet] güşadı [açılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

1) Maarif nazirinə tapşırılsın ki, 1919-cu və 20-ci təhsil illəri üçün Bakıda darülfünun güşadı barəsində lazımi tədabir ittixaz etsin [tədbirlər görsün] və bundan ötrü də 10 milyon rublədən artıq olmamaq şərti ilə bir smeta təqdim etsin.

2) Bakı Ticarət məktəbi mülkünü həman darülfününa verməli.

* Hərbiyyə nazirinin miralay [polkovnik] Məhəmməd bəy Əlizadənin Gürcüstandakı siyasi nümayəndəlik cənbində [nəzdində] attaşe-militər [hərbi attaşe] təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin təklifini qəbul ilə təsdiq etməli.

* Maarif nazirinin müəllim və Nəzarət müəssisələri məmurları məvaciblərinin artırılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maarif naziri[nin] qanun layihəsini təsviblə [bəyənməklə], nazirə tapşırılsın ki, təsdiqdən ötrü Məclisi-Məbusana idxal etsin.

* Maliyyə nazirinin xırda neftçilərə borc vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin “neftapravod” orderləri rəhni ilə neftçilərə borc vermək haqqındakı məruzəsi təsvib edilsin [bəyənilsin].

* Daxiliyyə nazirinin Gəncə Bələdiyyə İdarəsinə ərzaq işləri üçün bir milyon borc vermək haqqındakı qanun layihəsi istemasından [dinlənilməsindən] sonra qət edilmişdir:

Qanun layihəsini təsviblə, təsdiq üçün Məclisi-Məbusana idxal edilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

- Kazino xidmətçiləri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən kazino sahiblərindən şikayətdə bulunmuşdurlar. Kağızın axırında öz tələbatlarını da Nəzarətə pişnihad [təqdim] edərək, qəbulu üçün lazım gələ biləcək tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdirlər.

- İngilis komandanlığı Rəisi-vükəla [Baş nazir] dəftərxanasına xəbər vermişdir ki, bu gün saat 11 radələrində Bayılda İngiltərə batareyasından altı dənə top atılacaqdır. Məqsəd topları sınamaqdır. Bayıl əhalisindən rica olunur ki, şüşələr sınmamaqdan ötrü pəncərələri açıq buraxsınlar.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Murovdağ tuneli dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq




İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 100, yeni yolun uzunluğu isə 82 kilometrdir.

Yol birinci və ikinci texniki dərəcəyə uyğun olaraq tikilməkdədir. Yolda artıq bir sıra işlər tamamlanıb. AZƏRTAC xəbər verir ki, yolun 34,9-35,4 kilometrliyindəki tunelin uzunluğu 500, hərəkət hissəsinin eni isə 8 metrdir. Layihə üzrə yolboyu ümumi uzunluğu 2968 metr olan 6 qovşaq yenidən qurulub. Ümumi uzunluğu 5600 metr olan 36 bağlantı yolunun tikintisi də icra edilməkdədir.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun uzunluğu Toğanalı-Kəlbəcər hissəsində 56 kilometr, Kəlbəcər-İstisu hissəsində isə 26 kilometr təşkil edir.

Toğanalı-Kəlbəcər yolunun 13-cü kilometrliyindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1700 metrdən 3260 metrə qədər artır. Bu hissədə dünyanın əz uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. Tunel bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 10 metr enində olacaq. Bundan əlavə 561,2 metr, 626,9 metr, 500 metr və 947,9 metr uzunluğunda 4 tunelin tikintisi də həyata keçirilir. Uzunluğu 23,4 kilometr olacaq Murovdağ tunelinin daxilində sağ və sol hissələri birləşdirən bağlantı yolların inşası istiqamətində işlər davam etdirilir. Layihə üzrə tikiləcək tunellərin ümumi uzunluğu isə 26 kilometrdir. Bundan əlavə, yol oxu çətin relyef və çay yatağı boyu davam etdiyi üçün yamacbərkitmə işləri, istinad divarları və mühəndis qurğularının inşası nəzərdə tutulub. Bu məqsədlə 69 kilometr uzunluğunda sintetik tordan istifadə etməklə yamacbərkitmə işləri, 40 kilometrə yaxın daş divar tikintisi yekunlaşıb. Ümumilikdə, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisinin 67,5 faizi tamamlanıb.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisindən keçir. Beləliklə, bu yol bir çox yaşayış məntəqəsi ilə yanaşı, rayon mərkəzinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

# Nehrəm qəsəbəsinə yeni su xətləri çəkilir

Muxtar respublikanın böyük yaşayış məntəqələrindən biri də Nehrəm qəsəbəsidir. Bu qəsəbə həm də bərəkətli torpaqları və zəhmətkeş insanları ilə tanınır. Nehrəm son illərdə daha da baxımlı görkəmə qovuşub.



Yaşayış məntəqəsində təhsil, səhiyyə, yol infrastrukturu qurulsa da, su xətləri uzun illər yararsız vəziyyətdə idi. Bu səbəbdən sakinlər içməli su sarıdan ciddi problemlərlə üzləşirdilər. Nəhayət, sakinlərin içməli su problemi də öz həllini tapıb. AZƏRTAC-ın Naxçıvan bürosunun əməkdaşı qəsəbədə olub, görülən işlərlə maraqlanıb.

Muxtar respublikada vətəndaşların su təminatının yaxşılaşdırılması daim dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Bu məqsədlə yeni içməli və suvarma suyu xətləri çəkilir, mövcud xətlərin ehtiyac olan hissələrində cari təmir-bərpa işləri görülür. Naxçıvanın böyük yaşayış məntəqələrindən olan Babək rayonunun Nehrəm qəsəbəsi də uzun illər içməli su çatışmazlığından əziyyət çəkib. Sakinlər içməli su təminatını qarşılamaq üçün qəsəbədə olan bir neçə su quyusundan, həmçinin su maşınlarından alınan sudan istifadə ediblər. Təbii ki, bu cür su təminatını etibarlı və dayanıqlı hesab etmək olmaz.

"Babək rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Nehrəm qəsəbəsində içməli su və kanalizasiya şəbəkəsinin yenidən qurulması üçün genişmiqyaslı işlərə başlanılıb. 2023-2024-cü illərdə qəsəbədə içməli su şəbəkəsi üçün 7766 metr uzunluğunda müxtəlif diametrli polietilen boru xətti çəkilərək 664 ev su şəbəkəsinə qoşulub, 2028 evə su sayğacı quraşdırılıb. Kanalizasiya şəbəkəsində diametri 100 və 150 millimetr olan 23 min 188 metr uzunluğunda kanalizasiya borusu çəkilib və 2425 ev şəbəkəyə qoşulub. Ümumilikdə, 2011-ci ildən icrasına başlanan layihədə 3 minə qədər ev su və kanalizasiya şəbəkəsinə birləşdirilib, 2320 abonentlə müqavilə bağlanıb. Hazırda 92 evdə tamamlanma işləri görülür. Layihənin icrasında əsas məqsəd vətəndaşları davamlı və dayanıqlı içməli su ilə təmin etmək, tullantı sularının küçələrə axıdılmasının qarşısını almaq, sudan səmərəli və qənaətli istifadəyə şərait yaratmaq, bir sözlə, sakinlərin rifah halını yaxşılaşdırmaqdır.

Qəsəbə sakinləri də görülən işlərdən razıdırlar. Ziyalı Ədalət Əsgərov layihənin həyata keçirilməsinə görə minnətdarlıq edərək deyib: "Uzun illər mədəniyyət sahəsində çalışmışam. İndi təqaüddəyəm. Günümü yeni saldığım həyətyanı bağa qulluq etməklə keçirirəm. Əvvəllər də təsərrüfat sahəm olub. Ümumiyyətlə, Nehrəmdə insanların əsas dolanışıq yeri torpaqdır. Hər il hektarlarla ərazidə taxıl, bostan bitkilərinin əkini həyata keçirilir. Həm suvarma, həm də içməli su sarıdan çətinliklərimiz çox olub. Düzdür, qəsəbədə sovetlər dönəmindən qalma su xətləri var idi, işləyirdi. Ancaq xətlər yararsız, mənbəyi zəif olduğu üçün su fasilələrlə verilirdi. Yəni gün ərzində hər məhəlləyə bir-iki saat su verilərdi ya yox. Şükürlər olsun ki, bir neçə il öncə dövlətimiz bu problemi həll etdi. Artıq bu gün hər həyətdə, mətbəxdə günün istənilən vaxtı içməli su var. Eyni zamanda kanalizasiya xətləri də çəkilib. Atalarımız demişkən, su həyatdır, dirilikdir, aydınlıqdır, təmizlik imandan gəlir. Arzum budur ki, suyumuz hər zaman belə bol, yolumuz aydın, imanımız kamil olsun. Bütün Nehrəm camaatı adından qəsəbəmiz, bizlər üçün zəhmət çəkən, diqqət ayıranlara minnətdarlığımı bildirirəm".

Digər sakin Akif Hüseynov isə qeyd edib ki, Prezident İlham Əliyevin göstərişi ilə regionların sosial-iqtisadi inkişafı üçün reallaşdırılan layihələrdən Nehrəmə də pay düşüb: "Bir neçə il öncə Prezidentin imzaladığı qanunla yaşayış məntəqəsinə qəsəbə statusunun verilməsi göstərilən diqqətin ən bariz ifadəsidir. Məhz bu mütərəqqi addımdan sonra Nehrəmin üzərində daha parlaq günəş doğdu, yollarımız abadlaşdı, yeni obyektlər quruldu. Nəhayət, hər bir sakinin illərdir narahatlığına səbəb olan su problemi də həllini tapdı. Nehrəmlilər yurda, torpağa bağlı insanlardır, qədir-qiymət biləndirlər. Bunu ötən əsrin 90-cı illərində sübut ediblər, bu gün də o yolla gedirlər. Mən bütün qəsəbə sakinləri adından yaradılan şəraitə görə Prezidentimizə minnətdarlıq edirəm".

Dünyada su sarıdan hökm sürən çətinliklərə, yaşanan qıtlığa baxmayaraq, muxtar respublikada görülən qabaqlayıcı tədbirlər sayəsində bu sahədə çətinliklər aradan qalxır. Beləliklə, daha bir böyük yaşayış məntəqəsində - Nehrəmdə illərdir hökm sürən su çatışmazlığı problemi öz həllini tapdı. Əminliklə demək olar ki, yurda, elə bağlı nehrəmlilər torpaqda əkib-becərdikləri naz-nemət qədər, suyun da qədrini biləcək, ondan qənaətlə, səmərəli şəkildə istifadə edəcəklər.

## Görünməyən qəhrəmanlar













# "Ölü" avtomobilləri necə "dirildirlər"?



***Bura avtomobil "qəbiristanlığı" deyil, sovet avtomobil sənayesinin istehsal etdiyi, bir zamanlar ən dəbdə olan "retro avtomobillər"in yenidən həyata qaytarılması üçün növbə gözlədikləri Elbrus ustanın emalatxanasıdır...***

***Avtomobillər də sanki "canlı"dırlar. Daim hərəkətdə olurlar. Öz ömürlərini yaşayırlar. Bərkdən-boşdan keçirlər... Bəxti gətirənləri də olur, qara günə düşənləri də...***

Yaxşı sahibkarın əlinə düşənlər sığal görürlər, qarşısına çıxdıqları insanların marağını cəlb edirlər...

Elə olub ki, bir gözəl qızın qarşısına çıxanda o avtomobili görərkən "kaş mən də belə bir maşında gəlin köçəydim" hisslərini yaşayanlar da az olmayıb.

Bəzən valideynlər ürəklərində arzu tutardılar ki, "övladıma toy edəndə gəlnimi "Volqa"da gətirim..."

"Bəxtəvər "filankəsin" başına, gəlnini "Volqa"da gətirdi" deyənlər də az olmayıb...

Vay o gündən ki, avtomobil naşı adamın əlinə düşə...

Əyilirlər...

Sınırlar...

Sıradan çıxıb ömürlərini lap tez başa vuranlar da çox olub...

Uzunömürlüləri də olur...

Bəzən insanlar haqqında deyirlər ki, "filankəs" ikinci ömrünü yaşayır. Elbrus ustanın emalatxanasında ikinci həyatlarına vəsiqə almaq üçün növbə gözləyən maşınlara baxırıq... Əksəriyyətinin yaşı 70-i keçib, aralarında 80 yaşlılar da var...

Burada sovetin ilk avtomobillərindən olan "Moskviç 404" də var, 1941-1945-ci illər müharibəsində ən çox istifadə edilən "Komandir maşınları", "Villis" də alman faşizmi üzərində qələbənin şərəfinə istehsal olunmuş "Pobeda" da, ceyrangözlü "Qaz-21" də... sovet maşınlarının şahı olan "Qaz-24" də...

### "Anadan usta doğulmuşam"

"Görünməyən qəhrəmanlar"ın bugünkü qəhrəmanı Bakıda "retro maşınlar"ın ən yaxşı təmirçi-restavratorlarından biri hesab olunan Elbrus Heydər oğlu Əliyevdir. Elbrus usta özü haqqında bunları deyir:

- 1971-ci ildə Gəncə şəhərində anadan olmuşam. Gözümü açandan özümü bu sənətin içində görmüşəm. Rəhmətlik Haqverdi dayım Gəncənin adlı-sanlı maşın ustalarından idi. Məni də sənətə o gətirib. "Retro" maşın həvəskarları Haqverdi ustanın yetişdirməsi olduğum üçün mənə daha çox müraciət edirlər... Arzu dayım da bu gün Gəncədə klassik maşın ustası kimi hörmət edilən sənətkarlardandır... Heç gizlətmirəm, bu sənət yaxşı pul gətirir. Bakıda bu işlə çox az usta məşğuldur. Maştağada Əlsahib, Şüvəlanda Rəşid usta bu sənətin peşəkarlarından hesab olunurlar... Onların yığdıqları maşınlar zavod maşınlarından qəti fərqlənmirlər... Hətta zavod istehsalından fərqli restavrasiya işləri də görürlər. Onda avtomobillər daha gözəl görünür. Mənim üçün bu sənət ailəmin dolanışıq yeri, həm də hobbimdir...

### Həyata yeni vəsiqə alan avtomobillər...

- Bir də görürsən ki, evakuatorda 70-80 il bundan qabaq istehsal olunmuş çürük, üstündə yararlı bir hissəsi olmayan avtomobil gətirirlər. Bunlara "cənazə" deyirik.

Elə avtomobil olur ki, üstündə bir ildən çox əziyyət çəkməli oluruq. İnsanlardan fərqli olaraq bura gələn "cənazə"lər birbaşa "cənnət"ə gedirlər... Tam təmir olunub, bəzədilib ikinci ömürlərini yaşayırlar...

Özü də nə ömür? Çox istifadə olunmurlar. Bütün qalan ömürləri qulluq görür... İnsanların diqqətini çəkirlər.

Həyat verdiyim avtomobillərdən sərgidə iştirak edənlər də çoxdur. Onları orada görəndə fərəhlənirəm...



**70-80 yaşlı avtomobillərə yeni həyat verən Elbrus Əliyevin emalatxanası həm də nostalgiya muzeyidir**

### Arzuları kimi əməlləri də ayaq açıb yeriyir...

Elbrus Əliyev deyir ki, Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə keçirilən, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın və bir çox tanınmış şəxsin izlədikləri Bakıda klassik avtomobillərin yürüşündə və sərgisində həyat verdiyi avtomobilləri görəndə fərəhlənir. Deyir ki, "Elbrus, arzuların kimi əməllərin də ayaq açıb yeriyir".

Xatırladaq ki, bu günlərdə Bakıda növbəti dəfə klassik avtomobillərin yürüşü və sərgisi təşkil olunmuşdu. Sərgidə 1980-ci ilədək istehsal olunmuş avtomobillər iştirak edirdi. Onların arasında yürüş üçün qeydiyyatdan keçmiş şəxsi nəqliyyat vasitələri, eləcə də Heydər Əliyev Mərkəzində nümayiş etdirilən klassik avtomobil sərgisinin eksponatları sırasında olan nəqliyyat vasitələri də var idi. Heydər Əliyev Mərkəzinin qarşısından start götürən yürüşdə 100-dən çox klassik avtomobil iştirak edirdi.

Elbrus usta deyir ki, yürüşdə əl işlərini görəndə çox sevinib. Bu sənəti bir növ loğmanın işinə bənzətmək olar. Loğmanlar, yaxşı həkimlər həyat verdikləri xəstənin normal həyatını, yaxşı bir işini görüb necə sevinirlərsə, o da ömrünü başa vurmuş maşını yenidən işə salanda elə sevinir.

### Klassik maşınlara maraq artıb

Elbrus usta deyir ki, son vaxtlar klassik avtomobillərə maraq çox artıb. Bizə müraciət edən "retro avtomobil" həvəskarları əsasən avtomobillərin ilk sahibləri olmur. Bəzən elə olur ki, kimsə atasının, babasının yadigarı olan avtomobili təmir etdirib yadigar kimi saxlayır. Bəzən avtomobil kolleksionerləri köhnə maşınları alaraq onları yığdırıb kolleksiyalarını zənginləşdirirlər...

Son vaxtlar ən çox "Villis", "Qaz-21" avtomobilləri və "Zim"lər dəbə düşüb. "Zim" çox az istehsal olunmuş avtomobillərdəndir. Bu maşınlar vaxtilə yüksəkvəzifəli partiya və hökumət işçilərinin istifadəsində olub. İndi elə avtomobil həvəskarları var ki "Zim", "Qaz-21" üçün istənilən məbləği verməyə hazırdırlar.

Bu maşınları zavod qiymətindən çox baha alıb, restavrasiya etdirirlər. İnsan var ki, bu işin biznesi ilə məşğul olur. Klassik avtomobili yaxşı yığdırıb ağlagəlməz bir qiymətə klassik avtomobil həvəskarlarına satır...

### Bu maşınlar sürmək üçün deyil

İndiyə kimi yenidən həyat verdiyi avtomobillər o qədər çoxdur ki, sayını itirib. Haradasa qarşısına çıxanda, rastlaşanda ikinci ömür verdiyi maşınları tanıyır. Elə olur ki, yaxınlaşıb baxır. Bəzən sahibindən icazə alıb onu işə salır, mühərrikinin səsinə də qulaq asır...

Bu maşınları uzaq məsafəyə sürmək üçün düzəltdirmirlər. Bunlar baxıb zövq almaq üçündür - belə söyləyir Elbrus usta. Əsasən klassik maşın həvəskarları bunları vaxtilə zavodun istehsalı olan detallarla yığdırmaq istəyirlər. Bəzən cüzi dəyişikliklər etdirənlər də olur. Sürət qutusunu müasirləşdirib yenisi ilə - "5 skorostla", mühərrikinin "Qaz-10"la əvəzlənməsini istəyirlər. Buna fərqli yanaşanlar da olur...

Avtomobili tamamilə yeniləyənlər də var. Onlar avtomobilin zahiri görkəmini saxlayıb salonunu əsasən "BMW"də olduğu kimi yığdırıb, motorunu "Mersedes" mühərriki ilə əvəzləyirlər. Bu cür müasirləşmələr əslində risklidir. Nə qədər hissələri yeniləsən də, zavod istehsalı olan detalı əvəz etmir. Avtomobillərin gücü, sürəti onun çəkisinə, eninə, uzununa görə tənzimlənir. Hansı maşında sahibinin, sifarişçinin istəyinə uyğun "məzmunda" dəyişiklik edərsə, qəza təhlükəsi barədə də xəbərdarlıq edir. Zahiri dəyişiklikləri ən çox gənc avtomobil həvəskarları etdirirlər. Usta Elbrus deyir ki, gənc avtomobil həvəskarlarının verdikləri yeni "dizaynlar" daha maraqlı və diqqətçəkən olur. Elə bu maşınları dəbə salan da o cəhətlərdir.

Sovet dövrünü yaşayanlar bilirlər ki, o zamanın adamlarının həyat tərzi sadə olub. Təbii ki, sovet avtomobilləri də vətəndaşların "xarakterinə" uyğun sadə dizayn edilirdi. Ona görə də bu maşınları "bəzəmək" elə də çətin deyil. İstənilən yeniliyi çox gözəl qəbul edirlər. Bundan sonra çox gözəyatımlı olurlar...

### Ehtiyat hissələri tapmaqda çətinliklər olur...

Elbrus usta deyir ki, bəzən ehtiyat hissələri tapmaqda çətinlik çəkirlər. Bir hissəni tapmaq üçün aylarla vaxt sərf olunur. Satıcılar biləndə ki, "antikvar" avtomobil yığırsan, özü də əlacın yoxdur, bu hissə olmasa işin yarımçıq qalacaq, işini tamamlamaq üçün bunu almağa məcbursan, onda satdıqları hissəni daha da bahalaşdırırlar.

Elbrus Əliyev müştərilərindən narazılıq etmir:

- Həyatda nə qazanmışamsa zəhmətimlə, alnımın təri, əlimin qabarı ilə qazanmışam. Elə kişilər var ki, onlardan ətir iyi gəlir, səliqə-sahmanlı olurlar. Məndən isə benzin, mazut, aseton iyi gəlir. Az qala bəzən üzümü də benzinlə, asetonla yuyuram. Amma narazı deyiləm. Çörəyimi halal zəhmətimlə qazanıram...

Üç övladım var, şükürlər olsun ki, nə özüm, nə də övladlarım indiyə kimi haram tikə yeməyiblər. Oğlum Elmir hərbçidir. Hərbi Akademiyanı bitirib, Naxçıvanda xidmət edir. Qızım Fəridə keçən il ailə qurub. Zəhra da böyüyür. Zəhmətli də olsa, hamısını bu işin hesabına yaşadıram. Yaxşı işə yaxşı da qiymət verirlər. Müştərilərimlə heç vaxt qiymət danışmıram. Sağ olsunlar, onlar da xəsislik etmirlər...

Elbrus ustanın köməkçisi Mərdan Məmmədov söhbətə qoşulur:

- İki ildir ki, usta ilə birlikdə çalışırıq. Mən əsasən qaynaq işlərini görürəm. İşimdən də, qazancımdan da çox razıyam... Təvazökarlıqdan uzaq olsa da, deyim ki, əl işimizə bələd olanlar ömürlərini başa vurmuş avtomobillərinə yenidən həyat vermək üçün bizə müraciət edirlər. Cansız da olsa, bir şeyi yenidən həyata qaytarmaq, nəfəs vermək insana zövq verir...

*Beləliklə, usta Elbrusun emalatxanasında ömrünü başa vurmuş "cənazələr"in ikinci dəfə həyata qaytarıldığının canlı şahidi olduq. Bu, bizə xüsusi zövq verdi...*

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV ( foto),***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarının sosial müdafiəsi ilə bağlı tədbirlərin təşkili" adlı *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 16 sentyabr 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 17 sentyabr 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi müəyyən olunmuş şəxslərin iştirakı ilə inklüziv incəsənət nümunələrinin hazırlanması" adlı *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 12 sentyabr 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 13 sentyabr 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

# Revanşist keşişdən xəbərdarlıq

## Ermənistanda ara yenidən qarışa bilər

Revanşistlərin yaxın günlərdə Paşinyan hökuməti əleyhinə kütləvi etiraz aksiyalarına başlayacaqları gözlənilir. Diqqətçəkən məqam isə aksiyalara yenidən din adamlarının başçılıq etməsidir. Xalq arasında nüfuzunu itirən keçmiş hərbi xunta təmsilçilərinin öz məqsədləri üçün din xadimlərindən vasitə kimi istifadə etmələri açıq-aydın ortadadır.



Revanşist "Vətən naminə Tavuş" hərəkatının başçısı, keşiş Baqrat Qalstanyan Ermənistanda mümkün hakimiyyət dəyişikliyindən danışıb. Keşiş bununla bağlı planlarının olduğunu da açıqlayıb. Qalstanyan sentyabr ayı ərzində Nikol Paşinyan hökumətinin iqtidardan uzaqlaşdırılmasının mümkün olub-olmadığı sualına belə cavab verib: "Bu, bizim istəyimiz və arzumuzdur. Söhbət təkcə istək deyil, həm də "mümkündür, mümkün deyil" - zərurət məsələsindən gedir. Bəli, belə bir plan var, arzumuz və bütün sərmayəmiz ona yönəlib. Təkcə hakimiyyəti aradan götürmək üçün yox, bəli, hakimiyyətdən uzaqlaşdırılmalıdırlar. Bu həm də bütün həyatımızı dəyişdirmək meylinə malikdir".

Qeyd edək ki, Qalstanyan Paşinyan hakimiyyətinə qarşı bundan əvvəlki etirazlarda nəinki təhlükə törədə bilmədi, hətta ciddi həyəcan yaşatmağı belə bacarmadı. Az qala ölkəni qarış-qarış gəzsə də, ətrafına kifayət qədər adam toplaya bilmədi və axırda da payıza qədər siyasi fasiləyə yollanmaq qərarını aldı.

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə növbəti dəfə hərbi xuntanın və ona bənzər digər araqızışdıranların çevriliş etmək xəyalları erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Ona görə ki, Azərbaycanla müharibədəki məğlubiyyət Ermənistanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

Sarkisyan-Koçaryan koalisiyası hakimiyyətə gəlmək üçün xaricdən, indiki halda Rusiyadan da yardım alacağına ümid bəsləyir. "4rd.am" nəşri yazır ki, Ermənistanda hakimiyyət çevrilişi istisna olunmur: "Məlumata görə, danışıqlar prosesi ilə paralel olaraq müxtəlif platformalarda başqa diqqətçəkən müzakirələr də gedir. Diplomatik mənbələrdən alınan məlumatlara görə, mümkün Ermənistan-Azərbaycan razılaşmasının maraqlı mərkəzləri, xüsusən də Qərb sənədin imzalanmasından sonra Nikol Paşinyanın hakimiyyətdə qalması məsələsinin çox ciddi problemə çevrilə biləcəyini anlayaraq, bu günlərdə alternativ, "ehtiyat" variantının müzakirəsi ilə bağlı fəallıq nümayiş etdirir. Həmin mərkəzlər başa düşürlər ki, müqavilə imzalanandan sonra Paşinyanı hakimiyyətdə saxlamaq nəinki qeyri-mümkündür, həm də məqsədəuyğun olmaya bilər. Buna görə də onlar "B planı" tapmağa çalışırlar".

Qeyd olunur ki, Paşinyanın dəyişdirilməsi məsələsi həm də öz siyasi maraqlarını qorumaq və onları sona qədər irəli aparmaq, gələcəkdə regional proseslərdən kənarda qalmamaq baxımından əsasdır. Müvafiq olaraq, bir neçə mümkün namizəd müzakirə edilir ki, onlar da təbii olaraq Qərb qanadına aiddir. Yeri gəlmişkən, namizədlər arasında Paşinyanın komandasının bəzi nümayəndələri ilə yanaşı, hazırda Hayastanın daxili siyasi həyatında fəal olmayan fiqurların da olduğu barədə məlumatlar var.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Beyləqan rayonunun 2-ci Şahsevən kəndində Sahab Mikayıl qızı Kərimovanın adına verilmiş fərdi yaşayış evinə dair çıxarış itdiyi üçün etibarsız sayılır.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Rəcəb Tayyib Ərdoğan İlham Əliyevi təbrik edib
Hər şey əvvəlkindən də gözəl olacaq
İlham Əliyev azad etdiyi Kəlbəcəri cənnətə çevirir
Naxçıvandan başlanan Qurtuluş
Demokratik seçki modeli
Müşahidəçilər seçkilərin demokratik və ədalətli keçdiyini bəyan etdi

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Avropa dərin siyasi və texnoloji böhranla üzləşib

**Avropa ölkələrinin siyasi sistemləri müasir qlobal reallıqlara uyğunlaşa bilməmələri səbəbindən dərin böhran içindədir.**

Bu barədə danışan Portuqaliya Prezidenti Marselo Rebelo de Sousanın fikrincə, müharibədən sonrakı illərdə yaradılmış və XX əsrdən XXI əsrə keçidə uyğunlaşdırılmış sistemlər köhnəlib və böhran vəziyyətindədir. Çünki onların rəqəmsallaşmaya, energetika sektorunda baş verən dəyişikliklərə, texnoloji tərəqqiyə və gənclərin gözləntilərinə, elmi və iqtisadi dəyişikliklərə uyğunlaşmağa vaxtı olmayıb.

Portuqaliya Prezidenti qeyd edib ki, Portuqaliya və bütövlükdə Avropa indi bir tarixi dövrün sonunda, digərinin başlanğıcındadır. O hesab edir ki, ABŞ-da prezident seçkilərinin nəticələrindən asılı olmayaraq dünya heç vaxt əvvəlki kimi olmayacaq.

Qlobal dəyişikliyin amilləri arasında Prezident Marselo Rebelo de Sousa Çinin koronavirus pandemiyasından sonra iqtisadi dirçəlişini, Rusiyanın geosiyasi mövqeyini və Cənubi Afrika, Braziliya, Hindistan və Türkiyə kimi yüksələn gücləri qeyd edib.

Portuqaliya Prezidenti etiraf edib ki, Avropa sürətini itirib və indi dünya səhnəsində geri qalıb. Avropa həm də texnologiyanın inkişafı baxımından dünyanın qalan hissəsindən, xüsusən də ABŞ-dən və müəyyən dərəcədə Çindən geri qalır. Bunu "Nokia"nın baş direktoru Pekka Lundmark bildirib. Yaranmış acınacaqlı vəziyyətlə bağlı iş adamı təklif edib: "Avropa İttifaqı iqtisadi rəqabət qabiliyyətini bərpa etmək istəyirsə, o, süni intellekt, bulud texnologiyaları və şəbəkələri qəbul etməli və innovasiyalar üçün daha yaxşı bir evə çevrilməli, tədqiqat və inkişafa investisiyaları dəstəkləməli, daxili bazarı dərinləşdirməlidir və biznes üçün daha əlverişli mühit yaratmalıdır".





Lundmark heç bir tədbir görülməsə, kommunikasiya keyfiyyətinin pisləşəcəyini və Avropada adambaşına düşən rəqəmsal infrastruktura investisiyanın ABŞ-nin yarısından az olacağını proqnozlaşdırıb.

"Fortune" nəşri üçün məqaləsində o xatırladıb ki, Avropa tarixən elmi, iqtisadi və sosial tərəqqiyə təkan verən innovasiyalar, ideya və ixtiralar mərkəzi olub, lakin "son illərdə bu mühərrikin gücü tükənməyə başlayıb". Avropa hələ də dünyanın aparıcı şirkətlərinə evsahibliyi edir. Bununla belə o öz vətəndaşlarına firavan və təhlükəsiz gələcəyi təmin etmək üçün yeni texnologiyalardan istifadə etməlidir. O, son hesabatında rəqabət qabiliyyətinin pisləşməsini vurğulayan Avropa Sənayesində Rəqabətlilik "dəyirmi masa"sının (ERT) nəticələrini xatırladıb: "2022-ci ilin iyun ayından əvvəlki hesabatımız soyuq duş idisə, bu, artıq buz vannasıdır..."

ERT-nin rəqabətqabiliyyətlilik və innovasiya komitəsinə rəhbərlik edən Martin Brudermüller bununla əlaqədar deyib: "Düşünürəm ki, bizim siyasi rəhbərliyimiz Avropanın biznes işini nə qədər təcili yenidən qurmağımız lazım olduğunu hələ dərk etməyib". Aİ rəhbərliyi və Avropanın əksəriyyət ölkələri tənzimləmə yolu ilə vəziyyəti düzəltmək üçün həyata keçirdiyi bəzi tədbirlər istisna olmaqla, hələ də çox az cəhd edirlər, lakin bu, işləməyəcək. Bu səbəbdən Brudermüller xəbərdarlıq edir: "Bizim üzləşdiyimiz problemlər sadəcə onlara pul ayırmaqla və qanunvericilik aktları buraxmaqla həll edilə bilməyəcək qədər böyükdür".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Sentyabrın 4-nə gözlənilən hava proqnozu açıqlanıb

Azərbaycanda sentyabrın 4-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 20-25° isti, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 756 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.

Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 26-27° isti, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacağı proqnozlaşdırılır.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24° isti, gündüz 33-38° isti olacağı gözlənilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16° isti, gündüz 20-25° isti, bəzi yerlərdə 28-31° isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15° isti, gündüz 20-25° isti, bəzi yerlərdə 28-31° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-22° isti, gündüz 31-36° isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21° isti, gündüz 28-33° isti, dağlarda gecə 13-17° isti, gündüz 22-27° isti gözlənilir.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Ağdaş, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23° isti, gündüz 32-37° isti olacağı bildirilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-22° isti, gündüz 31-36° isti, dağlarda gecə 17-19° isti, gündüz 23-28° isti olacağı ehtimalı var.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri parlament Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsinin əməkdaşı Kamalə Məmmədovaya həyat yoldaşı

**MAHİR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mərkəzi Neftçilər Xəstəxanasının rəhbərliyi və kollektivi professor

**RAUF QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **4073**
Sifariş **2004**

**Qiyməti 60 qəpik**